RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 92 (8971) CÜMƏ AXŞAMI, 5 may 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Heydər Əliyevin arzuladığı Azərbaycan

5

## Məcburi köçkünlərin qayıdacağı ilk rayon Zəngilan olacaq



4

## Prezident İlham Əliyev Ramazan bayramı ilə bağlı paylaşım edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial şəbəkə hesablarında Ramazan bayramı ilə əlaqədar paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, paylaşımdakı fotonun üzərində qeyd edilib: "Ramazan bayramınız mübarək!"

## Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan bayramı münasibətilə paylaşımlar edib



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva "İnstaqram" hesabında Ramazan bayramı münasibətilə paylaşım edib.

AZƏRTAC xəbər verir ki, Mehriban Əliyeva sosial şəbəkə hesabında sosial xidmət müəssisəsinin ahıl sakinləri üçün müqəddəs Ramazan ayı münasibətilə verilən iftar mərasimindən fotolar paylaşaraq "Allah orucunuzu qəbul etsin!" yazıb.

## İlham Əliyev Rəcəb Tayyib Ərdoğanı ölkəmizə səfərə dəvət edib



**Mayın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub.**

Prezidentlər Ramazan bayramı münasibətilə bir-birini təbrik edib, qardaş Azərbaycan və Türkiyə xalqlarına ən xoş arzularını çatdırıblar.

Dövlət başçıları Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da bütün istiqamətlərdə uğurla inkişaf edəcəyinə əminliklərini bildirib, əlaqələrimizin perspektivləri ilə bağlı məsələləri müzakirə ediblər.

Prezident İlham Əliyev Rəcəb Tayyib Ərdoğanı ölkəmizə səfərə dəvət edib. Dəvət minnətdarlıqla qəbul olunub.

***Prezidentin Mətbuat Xidməti***

## Azərbaycan ilə Ermənistan arasında əlaqələrin normallaşdırılması məsələləri müzakirə olunub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də Fransa Respublikasının Xarici İşlər Nazirliyinin Şərq Tərəfdaşlığı üzrə səfiri Bris Rokföyü qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Bris Rokföy Fransanın Cənubi Qafqazda sülh gündəliyini, eyni zamanda Avropa İttifaqının sədri kimi ölkəsinin Avropa İttifaqının Azərbaycanla əlaqələrin müxtəlif sahələri üzrə təşəbbüslərini tam dəstəklədiyini dedi.

3

## Prezidentdən şəhid ailələri və müharibə əlillərinə bayram hədiyyəsi



2

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 2-də Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün nəzərdə tutulan yeni yaşayış kompleksinin açılışında iştirak ediblər.**

## Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi uğurla icra edilir

**Mayın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakının Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində inşa olunan 304 nömrəli tam orta məktəbin açılışında iştirak ediblər.**




3

## İlham Əliyevin Ramazan töhfəsi

### Şəhid ailələri və müharibə əlillərinə qayğı dövlətin prioritetidir

**2018-ci ildə 626, 2019-cu ildə 934, 2020-ci ildə 1572, 2021-ci ildə isə 3000 mənzil və fərdi ev verilib.**

Bu il, yeni postmüharibə dövründə isə 3500 mənzilin verilməsi nəzərdə tutulur ki, onlardan da artıq 1500 ev təqdim edilib. Bu da 2018-ci ilə nisbətən 5 dəfə çoxdur. Ümumilikdə isə ötən dövrdə 12500-dən çox şəhid ailəsi və müharibə əlili mənzil və ya fərdi evlə təmin edilib.

7

## Yeni metod, yüksək xidmət

### İcbari tibbi sığorta fəaliyyətində köklü dəyişikliklər başlayır

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən əhaliyə göstərilən tibbi xidmətin səviyyəsini daha da yaxşılaşdırmaq məqsədi ilə yeni təkliflər zərfi hazırlanaraq aidiyyəti qurumlara təqdim olunub.

Yeni təkliflər zərfinə 700 yeni tibbi xidməti daxil ediləcək, ümumilikdə 3000-dən çox tibbi xidmətin icbari tibbi sığorta çərçivəsində fəaliyyət göstərməsi nəzərdə tutulub.

12

## Maarifçilik məşəli

### Heydər Əliyev Fondu ölkədə aparılan təhsil islahatlarına böyük dəstək verir

İnkişaf dəyişiklikdir. Mütərəqqi ənənələr üzərində yeni dəyərlərin yaradılmasıdır. Həyatımızdakı ən böyük dəyişikliklər isə məhz təhsillə, məktəblə başlanır.

Son illər elmimiz, təhsilimiz daha geniş inteqrasiya proseslərinə cəlb olunur. Həyata keçirilən tədbirlər sayəsində həm infrastruktur yenilənir, həm də kadr potensialı müasir dünyanın tələblərinə uyğun tərzdə formalaşdırılır.

8

## Peşəkarlığın, fədakarlığın və vətəni sevməyin təcəssümü

**Azərbaycan ictimaiyyəti Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyətini əvvəlcə hərbi paradlarda görmüşdü.**

2016-cı ilin Aprel döyüşləri isə XTQ-nin ən yüksək döyüş qabiliyyətinə malik peşəkar hərbi birlik olduğunu yaxından nümayiş etdirmişdi. Aprel döyüşlərində düşmənin hərbi təxribatının qarşısını alan XTQ bölmələri onun çoxsaylı canlı qüvvəsini və hərbi texnikasını məhv etmişdilər.

8

## Şuşaya səfərləri turizm şirkətləri bazara çeviriblər




**Rəsmi qurumların səfər bileti bir ay öncə bir saata satılıb bitir, işbazlar isə istənilən gün üçün bileti üçqat baha satışa çıxarırlar...**

12

# Prezidentdən şəhid ailələri və müharibə əlillərinə bayram hədiyyəsi









**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 2-də Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün nəzərdə tutulan yeni yaşayış kompleksinin açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev dövlət başçısına və birinci xanıma yeni yaşayış kompleksi barədə məlumat verdi.

Bildirildi ki, doqquzmərtəbəli 12 binadan və 576 mənzildən ibarət yeni yaşayış kompleksi 2.76 hektar ərazidə inşa olunub. Kompleksdəki binalarda ümumilikdə 36 birotaqlı, 144 ikiotaqlı, 360 üçotaqlı və 36 dördotaqlı mənzil vardır.

Kompleksin ərazisində 100 yerlik uşaq bağçası və bir inzibati bina inşa olunub. Həmçinin sakinlərin və övladlarının asudə vaxtının səmərəli təşkili üçün şərait yaradılıb və kompleks bütün zəruri infrastrukturla təmin edilib.

Şəhid ailələri və müharibə əlillərinə 200 mənzil və 50 avtomobilin təqdim olunmasının məhz müqəddəs Ramazan bayramında gerçəkləşməsi isə təsadüfi deyil. Humanizm, sosial qayğıya ehtiyacı olan ailələrə xüsusi diqqət və İslam dəyərlərinə sadiqlik Azərbaycan Prezidentinin idarəçilik konsepsiyasının mühüm tərkib hissələrindəndir.

Sosial məsələlərin həlli ilə bağlı ortaya qoyulan siyasi iradə və ardıcıl praktik addımlar deməyə əsas verir ki, Azərbaycan sosialyönümlü dövlət modeli formalaşdırıb. Qlobal bazardakı dəyişikliklərdən, tələb-təklifdən, yeni çağırışlardan doğan islahatlar belə sosialyönümlü tədbirlərlə kompensasiya edilir. Başqa sözlə, bazar iqtisadiyyatının möhkəmlənməsi üçün kompleks tədbirlər sistemi əhalinin sosial baxımdan nisbətən zəif təbəqəsinin maraqlarına xidmət edir. Bu siyasət postmüharibə dövründə xüsusilə geniş vüsət alıb. Prezident İlham Əliyevin göstərişi ilə postmüharibə dövründə icra olunan sosial dəstək paketi 100 min şəxsi əhatə edib, onlara 166 min xidmət göstərilib.

Bu dövr ərzində şəhid ailə üzvləri və müharibə iştirakçılarından ibarət 93 min nəfərə 103 min sosial ödəniş təyin olunub. Mənzil proqramı 5 dəfə genişləndirilib, 2021-ci ildə 3000, postmüharibə dövründə 3500 mənzil verilib. Beləliklə, ümumilikdə 12500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə, 7400 müharibə əlili avtomobillə təmin olunub.

Vətən müharibəsinin 200 hərbçisi, ümumilikdə 300 müharibə əlili son nəsil protezlərlə, 1400 müharibə əlili 17 min reabilitasiya vasitəsi, 5 min ailə sosial-psixoloji, 1500 şəxs reabilitasiya xidmətləri ilə təmin edilib, 11 min şəxs aktiv məşğulluq proqramlarına cəlb olunub, vahid əlaqələndirmə mərkəzləri tərəfindən isə 30 min şəxsə xidmətlər göstərilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksdəki uşaq bağçasında yaradılan şəraitlə tanış oldular.

Sonra dövlət başçısı və birinci xanım Vətən müharibəsində şəxsi igidliyinə və şücaətinə görə "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmiş şəhid Mahir Məmmədovun ailəsinin qonağı olublar.

**Prezident İlham ƏLİYEV** şəhidin ailə üzvləri ilə söhbətində dedi:

- İlk növbədə sizi Ramazan bayramı münasibətilə təbrik etmək istəyirəm. Biz bu bayram günündə Bakı şəhərində yeni şəhərciyin açılışını qeyd edirik. Şəhid ailələri üçün nəzərdə tutulan mənzillərdə həm şəhid ailələri, həm müharibə əlilləri yaşayacaqlar. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Allah sizin oğlunuza rəhmət eləsin. Böyük faciədir, böyük itkidir. Siz oğlunuzu itirmisiniz, siz həyat yoldaşınızı, siz isə qardaşınızı. Bilirəm ki, Mahir çox qəhrəman bir insan idi, Aprel döyüşlərində də iştirak etmişdi. Vətən müharibəsində də xüsusi qəhrəmanlıq göstərdiyinə görə dövlət tərəfindən üç medalla təltif edilmişdir. Ağır itkidir, sağalmaz bir yaradır, bunu hər kəs başa düşür. Amma yeganə təsəlli o ola bilər ki, canını Vətən uğrunda fəda etdi. Onun və onun kimi övladlarımızın qəhrəmanlığı nəticəsində biz işğala son qoyduq.

Birinci Qarabağ müharibəsində şəhidlərimiz olub, bu günə qədər 4 minə yaxın insan itkin düşmüş hesab olunur. Aydın məsələdir ki, onlar həyatda deyil, həyatını itiriblər və ümumiyyətlə, 15 mindən çox şəhidimiz olubdur. Buna baxmayaraq, torpaqlarımız da əldən gedib. Amma İkinci Qarabağ müharibəsində şəhidlərimiz az olub. Halbuki hər bir şəhidin həyatı təkrarolunmazdır, əvəzolunmazdır. Ancaq əməliyyatlar aparılan zaman vacib şərtlərdən biri də o idi ki, itkilərimiz az olsun və torpaqlarımız da geri qayıtdı.

Hər bir şəhidin xatirəsi, əlbəttə, onların yaxınlarının və bütün Azərbaycan xalqının qəlbində əbədi yaşayır və yaşayacaq. Keçən il sentyabrın 27-də - Anım Günündə biz o Anım yürüşünü sanki şəhidlərlə birlikdə etdik, onların şəkilləri ilə. Sonra o şəkillər onların ailələrinə təqdim edilmişdir. Yeganə təsəlli o ola bilər, başqa təsəlli ola bilməz.

Əlbəttə, biz bütün şəhidlərimizin ailələrinin məişət problemlərini həll etməyə çalışırıq və çalışacağıq. Bu, bizim borcumuzdur. Prezident kimi mənim və dövlətimizin borcudur. Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin ailələrinə bu günə qədər 12 mindən çox mənzil verilib. Bu yenə də bizim borcumuzdur. Əsas təsəlli odur ki, o, əbədiyyətə qovuşub, şəhadət zirvəsinə qovuşub. Bu dünyada heç kim əbədi qalmayacaq, hamımız gec-tez haqq dünyasına qovuşacağıq. Əlbəttə ki, gənc yaşında həyatdan getmək böyük faciədir, ancaq nə deyə bilərik. Yeganə təsəlli odur ki, o, Vətən uğrunda döyüşüb, vuruşub, həlak olub və eyni zamanda onun qanı yerdə qalmayıb. O, oktyabrın 19-da rəhmətə getmişdir. Artıq Füzuli şəhəri işğaldan azad edilmişdir. Ondan sonra onun yoldaşları müzəffər yürüşünü axıra qədər davam etdirərək bayrağımızı Şuşada sancdılar, düşməni qovduq və haqq-ədaləti bərpa etdik.

Sizin üçün, əlbəttə ki, çox ağırdır, bu itki ilə heç cür barışmaq mümkün deyil. Vaxt da bu yaranı sağaltmayacaq. Amma yenə də onun xatirəsi, onun qəhrəmanlığı daim yaşayacaq. Azərbaycan vətəndaşları, bütün dünya azərbaycanlıları şəhidlərimizlə fəxr edirlər. Onlar bizim üçün qürur mənbəyidir və bu, Azərbaycan xalqı durduqca əbədi olacaq. Biz onların xatirəsini əbədi yaşadacağıq. Onların qəhrəmanlığı heç vaxt bizim yaddaşımızdan, sonrakı nəsillərin ürəyindən silinməyəcək. Şəhidlər ölmür, biz bunu artıq dəfələrlə demişik, onlar bizimlədir. Çünki onların xatirəsi yaşayır, Mahirin övladı yaşayır. Əminəm ki, atasına layiq böyüyəcək. Sadəcə olaraq, onun böyüməsi, onun atası kimi qəhrəman olması sizin üçün bir təsəlli ola bilər.

Yəni o, həyatda övladını, gənc həyat yoldaşını, qardaşını, anasını qoyub getdi. Bilirsiniz, müharibədən sonra şəhid ailələri ilə, veteranlarla, qazilərlə çoxsaylı görüşlərim olub. Hər bir görüş bir daha xalqımızın böyüklüyünü göstərir. Çünki öz oğlunu, həyat yoldaşını, qardaşını itirmək böyük faciədir. Ancaq bu, xalqımızın iradəsini sarsıtmadı. Biz Mahir kimi qəhrəmanlar hesabına bundan sonra qəhrəman və müzəffər xalq kimi əbədi yaşayacağıq. Yenə də deyirəm, biz Birinci Qarabağ müharibəsini də heç vaxt unutmamalıyıq, şəhidləri unutmamalıyıq. O vaxt onlar şəhid oldular, amma torpaqlar da getdi. Bu dəfə şəhid oldular, amma torpaqlar qayıtdı. Fərq budur və təsəlli bu ola bilər. Əlbəttə, yaxın, doğma adamın itirilməsi yarası heç vaxt sağalmayacaq. Amma həyat davam edir və davam edəcək.

İndi torpaqların yenidən qurulması işinə start vermişik. Azad edilmiş torpaqlarda, indi yaradılan binalarda, evlərdə, məktəblərdə, xəstəxanalarda, o binaların hər bir daşında şəhidlərimizin əbədi təsviri həkk olunub. Onlar bu torpaq üçün həlak oldular, Vətəni hər şeydən üstün tutdular. Bir daha demək istəyirəm, həm Aprel döyüşləri zamanı, həm İkinci Qarabağ müharibəsində Mahir əsl vətənpərvərlik göstərmişdir. İndi onun xatirəsini yaşatmaq, onun övladını dəyərli vətəndaş kimi böyütmək, yəqin ki, sizin üçün əsas məsələdir. Dövlət üçün də əsas məsələdir. Dövlət şəhid ailələrinin problemlərinin həlli üçün əlindən gələni edir və edəcək. Bu haqda çox danışmaq istəməzdim. Bu, bizim borcumuzdur və sizin həyatınız, yaşayışınız daim diqqət mərkəzində olacaqdır.

**Şəhid Mahirin qardaşı Habil MƏMMƏDOV:** Çox sağ olun, cənab Prezident, bu müqəddəs gündə bizi ziyarət edirsiniz. Şəhid ailələrinə, qazilərə həmişə diqqət və qayğı göstərirsiniz. Sizə öz ailəmiz adından da təşəkkürümüzü bildiririk. Bu gözəl mənzilə görə də çox sağ olun. Mehriban xanım, Siz də çox sağ olun. Allah razı olsun.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Oğlunuzun neçə yaşı var? ...

**Şəhid Mahirin anası Timziyə MƏMMƏDOVA:** Bilirsiniz, oğlu sentyabrın 21-də doğulub, 27-si müharibə başladı.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Sentyabrda doğulub...

**Timziyə MƏMMƏDOVA:** Heç görə bilmədi, birinci övladıdır, bir az gec evləndi.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Allah saxlasın, adı nədir?

**Timziyə MƏMMƏDOVA:** Babasının adıdır, Səlim. İndi şəhidlərimizin ruhu şaddır ki, bizim torpaqlarımız alınıb Sizin sayənizdə.

**Prezident İlham ƏLİYEV:** Ruhları həmişə şad olacaq. Bizim hamımızın borcu idi və yenə də deyirəm, onun qanını biz döyüş meydanında aldıq, haqq işimizi sonuna qədər apardıq və qələbəni təmin etdik. Mahirin balaca balası böyüyəndə, əlbəttə, atası ilə ömür boyu həm fəxr edəcək, həm də əminəm ki, ömür boyu Azərbaycan xalqı həmişə ona qayğı göstərəcək, hörmət edəcək, çünki o, şəhidin övladıdır.

**Timziyə MƏMMƏDOVA:** Özü də atası ilə qürur duyacaq, düzdür.

**Habil MƏMMƏDOV:** Tez-tez məzarının üstünə aparıb gətiririk.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Qələbə parkında hər bir şəhidin adı yazılıb.

**Prezident İlham ƏLİYEV:** Hər birinin, hər birinin. Həm də Zəfər muzeyi yaradılacaq. Zəfər parkı Bakının ən möhtəşəm yerlərinin birində, bəlkə də, birincisində - Dənizkənarı bulvarın önündədir. Orada böyük xatirə kompleksi inşa ediləcək. İşlərə yaxın zamanlarda start veriləcək. Hər şəhidin adı orada həkk olunacaq. Azad edilmiş bütün şəhərlərdə, hər bir şəhərdə Zəfər muzeyi, İşğal muzeyi yaradılacaq. Yəni bütün şəhidlərimizin adı əbədi yaşayacaq. O sevinci onlar bizə bəxş etdilər.

**Timziyə MƏMMƏDOVA:** Mahir özü də çox yaxşı oğul olub. Öz işini də çox sevirdi, xəritəçəkən olub. İşini çox sevirdi. Allah rəhmət eləsin bütün şəhidlərə!

**Prezident İlham ƏLİYEV:** Allah rəhmət eləsin!

**Habil MƏMMƏDOV:** Cənab Prezident, biz də Sizinlə fəxr edirik. Nə yaxşı ki, xalqımızın, dövlətimizin Sizin kimi Prezidenti var. Allah Sizə cansağlığı versin. Çox sağ olun hər bir şəraitə görə. Diqqət, qayğı göstərdiyinizə görə çox sağ olun, təşəkkür edirik.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Timziyə MƏMMƏDOVA:** Sizin tapşırığınızla biz şəhid ailələrinə yaxşı baxırlar, qiymət verirlər. Yaxşıyıq, hər şey yaxşıdır. Narazı deyilik.

**Habil MƏMMƏDOV:** Vaxtlı-vaxtında maraqlanırlar.

**Prezident İlham ƏLİYEV:** Bəli, mən bütün dövlət qurumlarına göstəriş vermişəm, daim şəhid ailələri diqqətlə əhatə olunsunlar.

**Timziyə MƏMMƏDOVA:** Qayğı göstərilir.

**Prezident İlham ƏLİYEV:** Bütün məsələlərdə, məşğulluq, məişət problemləri, ondan sonra istənilən problem ola bilər insanın həyatında, - bütün dövlət məmurları, mərkəzi, yerli icra orqanları daim şəhid ailələri ilə bir yerdə olmalıdırlar, kömək göstərməlidirlər. Bu, bizim borcumuzdur.

Bizim əsas borcumuz ermeniləri torpaqlarımızdan qovmaq idi və Mahir kimi övladlarımız buna nail oldular.

*Ardı 3-cü səh.*

# Azərbaycan ilə Ermənistan arasında əlaqələrin normallaşdırılması məsələləri müzakirə olunub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də Fransa Respublikasının Xarici İşlər Nazirliyinin Şərq Tərəfdaşlığı üzrə səfiri Bris Rokföyü qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Bris Rokföy Fransanın Cənubi Qafqazda sülh gündəliyini, eyni zamanda Avropa İttifaqının sədri kimi ölkəsinin Avropa İttifaqının Azərbaycanla əlaqələrin müxtəlif sahələri üzrə təşəbbüslərini tam dəstəklədiyini dedi.

Söhbət zamanı Azərbaycan-Avropa İttifaqı əlaqələrinin uğurla inkişaf etdiyi vurğulandı, dövlətimizin başçısının ötən ilin dekabrında Brüsseldə Avropa İttifaqının Şərq Tərəfdaşlığı Sammitində iştirakı xatırlandı.

Görüşdə postmünaqişə dövrü və Azərbaycan ilə Ermənistan arasında əlaqələrin normallaşdırılması, sülh müqaviləsinin hazırlanması üçün danışıqların aparılması, sərhədlərin delimitasiyası ilə bağlı məsələlər müzakirə olundu. Ölkəmizin irəli sürdüyü 5 prinsipi Ermənistan tərəfinin qəbul etdiyini vurğulayan dövlətimizin başçısı sülh müqaviləsi ilə bağlı danışıqların başlanılması üzrə Azərbaycan nümayəndə heyətinin hazır olduğunu bildirdi.

Söhbət zamanı Azərbaycan-Fransa münasibətlərinə toxunuldu. Prezident İlham Əliyev ötən ilin dekabrında Fransa Prezidenti Emmanuel Makronla Brüsseldə görüşünü və bu ilin fevralında videoformatda görüşünü qeyd etdi. Dövlətimizin başçısı eyni zamanda Emmanuel Makrona Fransa Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə təbrik ünvanladığını xatırlatdı.

# Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "İnstaqram" səhifəsində Ramazan bayramı münasibətilə paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "İnstaqram" səhifəsində Ramazan bayramı münasibətilə paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Azərbaycan xalqını və dünya müsəlmanlarını Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Bu mübarək bayram günlərində edilən bütün duaların, diləklərin və saf niyyətlərin qəbul olunmasını arzulayıram. Uca Tanrı hər kəsə möhkəm cansağlığı və səadət, Vətənimizə sülh və əmin-amanlıq bəxş etsin!"



# Prezidentdən şəhid ailələri və müharibə əlillərinə bayram hədiyyəsi

*Əvvəli 2-ci səh.*



İndi isə şəhidlərimizin yaxınlarına diqqət göstərmək hər bir dövlət məmurunun borcudur və cəmiyyətdə bu məsələ ilə bağlı tam həmrəylik var. Nəinki dövlət qurumları, istənilən insan çalışır ki, şəhid ailəsinə hansısa bir kömək göstərsin. Məşğulluqla bağlı. Bizim qazilərimiz də çox olub. On mindən çox yaralı əsgər-zabitimiz olub. Onların da sağalması prosesi gedir. Onlar üçün artıq son model olan iki yüz protez təşkil edilib və onlar normal həyata qayıdıblar. Dövlət öz üzərinə nə düşürsə etməlidir və edəcək.

**Habil MƏMMƏDOV:** Mənzil də çox gözəldir, cənab Prezident.

**Şəhid Mahirin həyat yoldaşı Günel MƏMMƏDOVA:** Mənzilə görə çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Yaxşıdır, bura şəhərcikdir, bağça da var, məktəb də yaxındadır.

**Habil MƏMMƏDOV:** Şəraiti çox gözəldir.

**Prezident İlham ƏLİYEV:** Bilirsiniz, bu evlər məcburi köçkünlər üçün inşa edilmişdi. İşğal dövründə məcburi köçkünləri yerləşdirmək üçün, normal şərait yaratmaq üçün böyük işlər görüldü və belə gözəl şəhərciklər yaradıldı. Amma müharibədən sonra mən qərar qəbul etdim, onlar üçün nəzərdə tutulan yerləri biz şəhid ailələrinə təqdim edək ki, onlar çox vaxt gözləmədən tezliklə bu mənzillərlə təmin olunsunlar. Çünki hələ də, - onu da deməliyəm, - Birinci Qarabağ müharibəsinin şəhid ailələrinin bəziləri evlərlə təmin edilməyib. Düzdür, 12 min 500 mənzil verilib, ancaq hələ də növbədə duranlar var. Ona görə mən dedim ki, birincisi, məcburi köçkünlər üçün biz artıq Qarabağda, Zəngəzurda evlər tikməyə başlamışıq. Onlar orada yaşamalıdırlar. İkincisi, tezliklə şəhid ailələri, yaralı olan hərbçilərimizin problemlərinin həlli üçün bu gözəl evləri biz şəhid ailələrinə təqdim edək. Keçən il 3 min, bu il 1500 mənzil verilib və bundan sonra da veriləcək. Bu mənzillərdə yaşamaq üçün bütün şərait var. Amma ondan sonra məşğulluqla bağlı, - mən bilirəm ki, siz işləyirsiniz, - pensiyalarla, təqaüdlə bağlı bütün bu məsələlər, həmçinin şəhidlərin yaxınları daim diqqət mərkəzində olmalıdırlar ki, sizin və sizin kimi şəhid ailələrinin həyatında heç bir problem olmasın. Mən Prezident kimi bütün dövlət qurumlarına bunu tapşırmışam, bu gün də mənim sözlərimi eşidirlər. Bu, bizim borcumuzdur.

**Ailə üzvləri:** Çox sağ olun, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Mən yenə də deyirəm, ömrün əvvəli də, sonu da var, heç kim həyatda əbədi qalmır. Amma şəhid olmaq, bu, doğrudan da, xalq qarşısında, tarix və gələcək nəsillər qarşısında böyük xidmətdir. Şəhid əbədi qalır, əməyi və qəhrəmanlığı əvəzolunmazdır. Çünki canını fəda edir ki, torpaqlar azad olunsun və ədalət bərpa olunsun, xalqımızın ləyaqəti bərpa olunsun. Çünki otuz il torpaqlarımız işğal altında qalıb və xalqımız mənəvi əzablar çəkib - hər birimiz, o cümlədən Mahir. Onu irəliyə aparan məhz Vətən sevgisi olub, bu ədalətsizliklə barışmazlığı olub. Canını fəda edib, amma onun kimi övladlarımız xalqımızın ləyaqətini bərpa etdilər. Bu, qələbə qədər vacib məsələdir, gələcək nəsillərin yetişməsi və tərbiyəsi üçün əvəzolunmaz amildir. Çünki biz artıq ilyarımdır ki, müzəffər xalq kimi yaşayırıq. Əvvəllər torpaqları işğal edilmiş xalq kimi yaşamışıq.

**Timziyə MƏMMƏDOVA:** İndi başımız ucadır.

**Prezident İlham ƏLİYEV:** Bəli, başımız ucadır, əbədi belə olacaq. Bir daha demək istəyirəm ki, Mahirlə, onun kimi şəhidlərlə biz əbədi fəxr edirik və edəcəyik.

**Habil MƏMMƏDOV:** Sağ olun, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Arzulayıram ki, dövlət tərəfindən sizə yaradılan bu şərait bundan sonra acınızı nisbətən azalda bilsin.

**Habil MƏMMƏDOV:** Düzdür, bizim üçün təsəllidir, cənab Prezident. Sizinlə görüşmək də çox xoş oldu. Çox sağ olun, hər bir şəraitə görə.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Ailə üzvləri:** Təşəkkür edirik. Çox sağ olun.

# "Antiinhisar fəaliyyəti haqqında", "Yeyinti məhsulları haqqında" və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci, 20-ci və 24-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

1. "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 9, maddə 224; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 17; 2001, № 6, maddə 360, № 11, maddələr 676, 683, № 12, maddə 736; 2003, № 1, maddə 5; 2004, № 2, maddə 57, № 4, maddə 202; 2006, № 12, maddə 1005; 2008, № 2, maddə 49, № 5, maddə 348, № 6, maddə 462; 2010, № 11, maddə 939; 2015, № 4, maddə 369; 2016, № 4, maddə 637; 2019, № 1, maddə 25; 2021, № 7, maddə 701) 4-cü maddəsinin birinci hissəsinin ikinci abzasında "material" sözü "dövlət və səfərbərlik" sözləri ilə əvəz edilsin.

2. "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 8; 2001, № 12, maddə 736; 2003, № 1, maddə 7; 2004, № 1, maddə 6; 2007, № 6, maddə 560; 2009, № 2, maddələr 49, 55; 2011, № 4, maddə 257; 2013, № 11, maddə 1290; 2014, № 11, maddə 1365; 2015, № 11, maddə 1252; 2017, № 5, maddələr 718, 747; 2018, № 4, maddə 642, № 12 (I kitab), maddə 2492; 2019, № 6, maddələr 993, 995, № 8, maddə 1383; 2020, № 5, maddə 521, № 7, maddə 838) 19-cu maddəsinin ikinci hissəsinin birinci abzasında "material" sözü "və səfərbərlik" sözləri ilə əvəz edilsin.

3. "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 882; 2006, № 2, maddə 65, № 11, maddə 925; 2008, № 8, maddə 699; 2013, № 6, maddə 596; 2014, № 7, maddə 762; 2015, № 5, maddə 492; 2018, № 7 (I kitab), maddə 1401, № 11, maddə 2222) 5.2.1-ci maddəsində "material" sözü "və səfərbərlik" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2022-ci il*

# Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi uğurla icra edilir







Mayın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakının Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində inşa olunan 304 nömrəli tam orta məktəbin açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı və birinci xanım məktəb binasında yaradılan şəraitlə tanış oldular.

Heydər Əliyev Fondunun icraçı direktoru, Prezidentin köməkçisi Anar Ələkbərov məktəb haqqında məlumat verdi.

Bildirildi ki, yeni təhsil müəssisəsində sinif, əmək, hərbi və kompüter otaqları, laboratoriya, kitabxanalar, yeməkxana və idman zalı var. Məktəb zəruri mebel və avadanlıqlarla, əyani vəsaitlərlə tam təchiz edilib.

Qeyd edək ki, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun uğurla icra olunan layihələrindən biri "Yeniləşən Azərbaycana - yeni məktəb" proqramıdır. 2005-ci ildən həyata keçirilən layihənin əsas məqsədi təhsil sahəsində mövcud olan problemlərin həllinə kömək etmək, ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaqdır. Kürdəxanı qəsəbəsində istifadəyə verilən 304 nömrəli məktəb də fondun həmin proqramı çərçivəsində inşa olunub. Birinci vitse-prezident Mehriban Əliyeva 2019-cu ildə Kürdəxanı qəsəbəsindəki 113 nömrəli məktəbdə yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olarkən, sakinlərin müraciəti əsasında şagird sıxlığı nəzərə alınaraq, yeni məktəb binasının tikilməsi üçün göstəriş verib. 2020-ci ildə qəsəbədə yeni təhsil ocağının tikintisinə başlanılıb. İndi isə 960 şagird yerlik 304 nömrəli məktəb kürdəxanılı şagirdlərin istifadəsinə verilir.

Xatırladaq ki, Kürdəxanı qəsəbəsinin əhalisinin ümumi sayı 15 min 120 nəfərdir. Burada əhalinin sayının artması yeni iş yerlərinin, tibb, təhsil ocaqlarının tikilməsini və digər infrastruktur layihələrinin həyata keçirilməsini zəruri edir. Qəsəbədə tikilən yeni məktəb binasını Bakı şəhərinin, ətraf kənd və qəsəbələrin sosial iqtisadi inkişafı ilə bağlı görülən işlərin davamı hesab etmək olar. Son dörd il yarımda Sabunçu rayonu üzrə yeni inşa edilən, əsaslı təmir olunan və əlavə korpuslar tikilən məktəblərin sayı 13-dür. Kürdəxanı qəsəbəsindəki 304 saylı tam orta məktəb isə sayca 14-cüdür.

Ölkəmizdə təhsil müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və yenilərinin inşası, onların zəruri tədris avadanlığı ilə təchizi gənc nəslin daha savadlı və bilikli yetişməsinə hesablanıb. Yeni məktəb binalarının və tədris korpuslarının inşası şagird sıxlığını aradan qaldırmaqla, həm də onların daha keyfiyyətli təhsil almasına şərait yaradır.

# Azərbaycan-Polşa dostluq və əməkdaşlıq münasibətləri məmnunluq doğurur

## Polşa Respublikasının Prezidenti zati-aliləri cənab Andjey Dudaya

Hörmətli cənab Prezident!

Polşa Respublikasının milli bayramı - Konstitusiya Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Azərbaycan-Polşa ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Daim genişlənən siyasi, iqtisadi və humanitar əlaqələrimiz, yüksəksəviyyəli qarşılıqlı səfərlər, müxtəlif sahələrdə səmərəli əməkdaşlığımız münasibətlərimizin məzmununu real şəkildə əks etdirir.

İnanıram ki, ölkələrimiz arasında istər ikitərəfli qaydada, istərsə də Avropa İttifaqı çərçivəsində fəal və qarşılıqlı faydalı əməkdaşlıq bundan sonra da birgə səylərimizlə müvəffəqiyyətlə davam edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Polşa xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 aprel 2022-ci il*

# V.M.Quliyevin Azərbaycan Respublikasının Bosniya və Herseqovinada fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vilayət Muxtar oğlu Quliyev Azərbaycan Respublikasının Bosniya və Herseqovinada fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 may 2022-ci il*

# Dövlətlərarası münasibətlərin təməlində xalqlarımızın iradəsi dayanır

## İsrail Dövlətinin Prezidenti zati-aliləri cənab İsxak Hersoqa

Hörmətli cənab Prezident!

İsrail Dövlətinin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında uğurla inkişaf edən dövlətlərarası münasibətlərin təməlində tarixən dostluq, qarşılıqlı anlaşma və hörmət şəraitində yaşayan xalqlarımızın iradəsi dayanır.

Bu gün Azərbaycan-İsrail əlaqələrinin əhatə dairəsinin genişlənməsi, bir sıra mühüm sahələrdə ölkələrimizin fəal əməkdaşlığı məmnunluq doğurur. Şübhəsiz, Təl-Əvivdə ölkəmizin Ticarət və Turizm nümayəndəliklərinin açılması əməkdaşlığımızın inkişafına, insanlararası təmasların artmasına töhfə verəcəkdir.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa və yenidənqurma işlərində İsrail şirkətlərinin iştirakını xüsusi qeyd etmək istəyirəm.

Hesab edirəm ki, energetika, yüksək texnologiyalar, təhsil, hərbi-texniki və digər sahələrdə qarşılıqlı fəaliyyətimizin daha da inkişaf etdirilməsi üçün yaxşı imkanlar mövcuddur. Əminəm ki, xalqlarımızın mənafelərinə uyğun olaraq ölkələrimiz arasında ənənəvi dostluq münasibətlərini genişləndirmək, əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost İsrail xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 aprel 2022-ci il*

# Məcburi köçkünlərin qayıdacağı ilk rayon Zəngilan olacaq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Vahid Hacıyevi Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı qəbulda çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı

- Siz bu gün Zəngilan rayonunda Prezidentin xüsusi nümayəndəsi vəzifəsinə təyin edilirsiniz. Sizi təbrik edirəm və uğurlar arzulayıram. Sizə böyük etimad göstərilir və siz bu etimadı öz işinizlə doğrultmalısınız.

Zəngilan rayonu azad edilmiş digər rayonlarımız kimi, böyük dağıntılara məruz qalmışdır. Ermənistanın işğalçı qüvvələri Zəngilan rayonunu demək olar ki, yerləyeksan etmişlər. Zəngilan şəhərində cəmi 1-2 salamat bina qalıb, o binalardan da Ermənistan işğalçıları - hərbçilər istifadə edirdilər. Bir dənə də salamat kənd qalmayıb, Zəngilanın bütün kəndləri yerləyeksan edilib. Bu bir daha erməni vandalizminin eybəcər sifətini bütün dünyaya göstərir, bir də onu göstərir ki, Azərbaycan xalqı və Azərbaycan Ordusu bölgəmizi böyük bəladan - erməni faşizmindən xilas etmişdir.

Zəngilan rayonunda eyni zamanda bütün tarixi-dini abidələrimiz ermənilər tərəfindən dağıdılıb. Biz artıq tarixi-dini abidələrimizin bərpası işinə başlamışıq. Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə Zəngilan Şəhər Məscidi indi əsaslı şəkildə təmir olunur, faktiki olaraq yenidən qurulur. Çünki bu məsciddən cəmi bir divar qalmışdı. Yəni Zəngilanda mövcud olan acı mənzərə azad edilmiş bütün başqa torpaqlarda da mövcuddur.

Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik və Zəngilan rayonu bu sahədə birinci rayondur ki, artıq keçmiş məcburi köçkünlər yaxın gələcəkdə oraya qayıdacaqlar. Bildiyiniz kimi, birinci pilot layihə Zəngilanın Ağalı kəndində həyata keçirilir. Ağalı kəndi faktiki olaraq yenidən qurulur, böyük və rahat kənd olacaq. Ağalı kəndinin timsalında hər bir Azərbaycan vətəndaşı və ümumiyyətlə, hər bir insan bizim planlarımızı görə bilər. Biz azad edilmiş torpaqları necə görmək istəyirik? Biz insanlara, oraya qayıdacaq insanlara hansı şəraiti yaratmaq istəyirik? Hər kəs görəcək ki, işlərimiz planlı və sistemli şəkildə aparılacaq, bütün amillər nəzərə alınacaq - təhlükəsizlik, rahatlıq, rifah, məşğulluq və gələcək inkişaf.

Eyni zamanda hazırda Zəngilan rayonunda böyük infrastruktur layihələri icra edilir. Onların arasında Zəngəzur dəhlizinin tərkib hissəsi olan nəqliyyat infrastrukturunu mən qeyd etmək istərdim. Bu il Zəngilan Beynəlxalq Hava Limanı istismara veriləcəkdir. Əminəm ki, bu hava limanının çox böyük funksiyaları olacaqdır. Çünki biz Zəngilanı gələcəkdə beynəlxalq nəqliyyat-logistika mərkəzi kimi görürük. Rayonun yerləşməsi, beynəlxalq bazarlara yaxın olması və digər amillər bunu təmin edəcək. Azad edilmiş torpaqlarda Füzulidən sonra ikinci hava limanının məhz Zəngilanda yaradılması, əlbəttə ki, coğrafi vəziyyəti nəzərdə tutur, buna əsaslanır, eyni zamanda bizim həm iqtisadi, nəqliyyat, həm də təhlükəsizliklə bağlı məsələlərimizi həll etmək üçün vacib vasitə olacaqdır. Zəngəzur dəhlizinə gəldikdə, artıq bu dəhliz reallıqdır. Zəngilan rayonunun ərazisindən keçən həm dəmir yolu, həm avtomobil yolu nəinki Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, eyni zamanda beynəlxalq yükdaşımaları üçün yeni bir yol olacaq, beynəlxalq bir yol olacaq. Ona görə və eyni zamanda keçmiş məcburi köçkünlərin rahatlığı üçün biz dörd və altı zolaqdan ibarət olan avtomobil yolunu sürətlə inşa edirik. Bu yolun hissə-hissə istifadəyə verilməsi gələn ildən başlayacaq.

Azərbaycan vətəndaşları yaxşı bilirlər ki, işğal dövründə Ermənistan rəhbərliyi Ermənistandan Cəbrayıla yol çəkmək istəyirdi. Həmin bu yol təbii ki, Zəngilandan keçməli idi. Onların bu ümidləri və ümumiyyətlə, bütün ümidləri gözlərində qaldı. Bildiyimə görə, birzolaqlı kənd tipli bir yol çəkmək fikrində idilər. Biz isə Horadizdən Zəngilana dörd və altızolaqlı magistral avtomobil yolu çəkirik. Eyni zamanda mövcud yol, yəni sovet vaxtından qalan yol, hansı ki, indi biz ondan istifadə edirik, o da əsaslı şəkildə təmir olunacaq. Yəni yeni çəkilən yol tam yeni və daha əlverişli marşrutla keçir və yol boyunca yol infrastrukturu həm məsafə baxımından daha əlverişli olacaq, həm də əlbəttə, vətəndaşlar bu yolla rahat gedib-gələcəklər və beynəlxalq yükdaşıma məsələləri öz həllini tapacaqdır.

Bununla yanaşı, Zəngilandan Qubadlıya və Qubadlıdan Laçına bir çox zolaqdan ibarət yol çəkilir. Bu da Şərqi Zəngəzur iqtisadi rayonundakı rayonlar arasında birləşməni təmin edəcəkdir. Dəmir yoluna gəldikdə, hazırda bizim sonuncu dəmir yolu infrastrukturu olan bu istiqamətdə stansiyamız Horadizdir. Horadizdən Ağbəndə gedən dəmir yolunun inşası artıq sürətlə aparılır və əminəm ki, gələn il tam istismara veriləcəkdir. Bu da həm vətəndaşlar üçün, həm də beynəlxalq yükgöndərənlər üçün çox əlverişli bir infrastruktur olacaqdır.

Biz həm Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə Zəngəzur dəhlizi vasitəsilə birləşdirəcəyik, tam yeni nəqliyyat dəhlizi açılacaq. Nəzərə alsaq ki, son vaxtlar Azərbaycana Xəzər dənizinin şərq hissəsindən çoxlu müraciətlər daxil olub. Azərbaycan ərazisindən yük göndərmək istəyənlərin həm sayı, həm də yüklərin həcmi artır, əlbəttə, Zəngəzur dəhlizi bizim üçün və qonşu dövlətlər üçün əlavə imkanlar yaradacaq.

Biz son illər ərzində deyə bilərəm ki, təqribən 10-15 il ərzində nəqliyyat sektoruna çox böyük əhəmiyyət vermişik. Məhz buna görə bu gün istənilən yükü qəbul edə və onu tranzit kimi ötürə bilərik, bunu edirik və bizim imkanlarımız daha da artacaq.

Digər vacib məsələ məşğulluqla bağlıdır. Ağalı kəndində bu məsələ nəzərdə tutulub. Bu il orada yeni müəssisələrin yaradılması nəzərdə tutulur. Mən göstəriş vermişdim ki, keçmiş məcburi köçkünlər Ağalı kəndinə qayıdan zaman artıq orada işlə məşğul olmaq üçün imkan olsun - həm kənd təsərrüfatında, həm də dövlət və özəl şirkətlər tərəfindən yaradılmış müəssisələrdə insanlar çalışacaqlar. Azad edilmiş torpaqlarda bizim kənd təsərrüfatı ilə bağlı çox böyük planlarımız var. İndi hər kəs yaxşı görür və bilir ki, ərzaq təhlükəsizliyi ön plana çıxır. Son illərdə bu istiqamətdə bir çox işlər görülüb. Ancaq hələ ki, biz özümüzü tam şəkildə, yəni 100 faiz ərzaqlıq buğda ilə və bütövlükdə taxılla təmin edə bilmirik. Əminəm ki, görüləcək əlavə tədbirlər nəticəsində idxaldan asılılıq böyük dərəcədə azalacaq. Burada əsas məsələ həm məhsuldarlıq, sudan düzgün istifadə edilməsi, eyni zamanda azad olunmuş torpaqlarda əkin yerlərinin düzgün seçilməsi və orada aqrotexniki xidmətin göstərilməsidir.

Azad edilmiş ərazilərin təbii iqlimi və coğrafiyası elədir ki, orada həm heyvandarlıqla çox genişmiqyaslı məşğul olmaq olar, xüsusilə Laçın, Kəlbəcər, o cümlədən Qubadlı, Zəngilan rayonlarında, həm də əkinçiliklə daha çox Ağdam, Füzuli, Xocavənd, Cəbrayıl və eyni zamanda Zəngilan, Qubadlı rayonlarında. Azad edilmiş ərazilərdə birinci aqropark məhz yenə də Zəngilan rayonunda yaradılır. Keçən il mən qardaşım, Türkiyə Cümhuriyyətinin Prezidenti ilə birlikdə "DOST Aqropark" adlandırılan aqroparkın təməlini qoyduq. Bu yaxınlarda aqroparkın fəaliyyəti ilə bağlı mənə məlumat verildi. Çox şadam ki, hər şey plan üzrə gedir. Bu, birinci, nümunəvi bir aqropark olacaq. Əminəm ki, azad edilmiş torpaqlarda aqroparkların sayı çox olacaq. Necə ki, indi sənaye zonaları yaradılır, həm Cəbrayıl rayonunda, həm Ağdam rayonunda.

Hesab edirəm ki, Zəngilan rayonunda əsas məşğulluq və iqtisadiyyatın əsas hissələrindən biri də kənd təsərrüfatı olmalıdır. Çünki təbii iqlim çox əlverişlidir və yenə də "DOST Aqropark"ın timsalında biz azad edilmiş bütün torpaqlarda gələcəkdə yaradılacaq mənzərəni görməliyik.

Eyni zamanda azad edilmiş hər bir rayonda kəndlərin bərpası ilə bağlı işlərə artıq start verilmişdir. Bu haqda bu yaxınlarda ictimaiyyətə məlumat verilmişdir. Biz kəndləri də planlı şəkildə bərpa edəcəyik. Biz bu prosesi də mərhələlərə böldük. Birinci mərhələdə hansı kəndlər qurulacaq, ikinci mərhələdə və sair. Əlbəttə, kəndlərin qurulması da planlı şəkildə aparılmalıdır. Yəni kortəbii yox, sistemli şəkildə. Ona görə hər bir yeni yaradılacaq, bərpa ediləcək kəndin baş planı olmalıdır və baş planlar hazırda hazırlanır. Necə ki, şəhərlərin baş planları, o cümlədən Zəngilan şəhərinin, eləcə də kəndlərin baş planları hazırlanacaq. Azad edilmiş bütün torpaqlarda görüləcək bütün işlər ancaq baş planlar əsasında olmalıdır. Baş plandan kənar bir dənə də daş daş üstə qoyulmamalıdır, bir dənə də qanunsuz tikili olmamalıdır. Yəni biz nümunəvi bir yaşayış məkanını yaradırıq. Həm Azərbaycan üçün, həm dünya üçün nümunəvi bir təcrübə sahibi olacağıq. Ona görə hər şey şəffaf, tenderlər və baş planlar əsasında yaradılacaqdır. Ona görə azad edilmiş bütün rayonlarda, o cümlədən Zəngilan rayonunda da bu işlərə artıq hazırlıq gedir.

Ermənistan işğal dövründə işğal altında olan torpaqların ekologiyasına da böyük zərər vurmuşdur və mən həmin rəqəmləri səsləndirmişdim. Əlli-altmış min hektar meşə ilə örtülü sahə tamamilə məhv edilmişdir. Biz bunu peyk vasitəsilə müşahidə edirdik. Xüsusilə Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonlarında meşələrin kütləvi surətdə qırılması prosesi gedirdi. Yəni bu faktiki olaraq vəhşilik və talançılıqdır. Ermənistanın işğal dövründə çirkin əməllərini təsvir etmək üçün, hesab edirəm ki, bu iki ifadə ön planda olmalıdır - vəhşilik və talançılıq. Zəngilanda da bu mənfur işlər görülmüşdür və bunun nəticəsində təbiətə çox böyük ziyan vurulmuşdur.

Hər kəs yaxşı bilir ki, Avropada ərazisinə görə ikinci ən böyük çinar meşəsi Zəngilan rayonunda olub - Bəsitçay təbiət qoruğu. Bəsitçay təbiət qoruğunun böyük hissəsi məhv edilib və mən Zəngilanda olarkən o kəsilmiş ağacların kötüklərini görmüşəm və eyni zamanda yandırılmış ağacları da görmüşəm. Eyni çirkin əməlləri onlar Kəlbəcər və Laçın rayonlarında müharibədən dərhal sonra etmişdilər. Onlara möhlət verilmişdi o ərazilərdən çıxmaq üçün, iyirmi gün vaxt verilmişdi. O günləri onlar yenə də bəd əməllər üçün istifadə etmişdilər. Onlara məxsus olmayan, azərbaycanlıların tikdirdikləri və onların qanunsuz yaşadıqları evləri məhv etmiş, yandırmış, ağacları kəsmiş, yandırmışlar. Bütün əşyaları ya məhv etmiş, ya da ki söküb aparmışlar. Bu biabırçı kadrlar xarici kanallar vasitəsilə də görüntüləndi və hər kəs görə bildi ki, onlar hansı əşyaları özləri üçün əziz bilib tələm-tələsik çıxarmağa nail olmuşdular. Amma eyni zamanda ağacları kəsib yandırmışdılar.

Biz Bəsitçay təbiət qoruğunun bərpasına başladıq. Mən tarixi Zəfərdən sonra ilk dəfə Zəngilanda olanda orada ağaclar əkmişəm. Göstəriş verilib və təbii ki, biz Bəsitçay təbiət qoruğunu bərpa edəcəyik. Amma buna, əlbəttə ki, çox vaxt lazım olacaq.

Eyni zamanda Ermənistan Zəngilandakı və digər rayonlardakı qızıl və digər qiymətli metallar yataqlarını da vəhşicəsinə istismar etmişdir. Zəngilanda Vejnəli qızıl yatağını vəhşicəsinə istismar etmişdir. Oranı da ekoloji fəlakət zonasına çevirmişdir və qanunsuz olaraq orada çıxarılan qızıl xaricə aparılıb satılmışdır.

Biz indi bütün hüquqi prosedurlara start vermişik. Mən bu haqda Azərbaycan ictimaiyyətini məlumatlandırmışdım. Bir cinayət də cavabsız qalmayacaq. Birincisi, biz dəymiş bütün ziyanı hesablayırıq, bütün şəhər və kəndlərimizin pasportlaşdırılması prosesi gedir. Hər bir binanın, yaxud da ki o binadan qalan dağıntıların video-foto çəkilişi aparılır. Bu sübutdur və biz beynəlxalq məhkəmələrə də müraciət etmək əzmindəyik, hazırlıq işləri gedir. Həmçinin Vejnəli qızıl yatağının xarici vətəndaşlar tərəfindən, o cümlədən erməniəsilli xarici vətəndaşlar tərəfindən qanunsuz istismar edilməsi onlara baha başa gələcək. Biz o adamların adlarını bilirik. Biz onları dünya qarşısında ifşa edəcəyik və bizə təzminat ödəyəcəklər. Vurulmuş ziyanın təzminatını mütləq ödəyəcəklər.

Eyni zamanda təbii fəlakət zonaları arasında yenə də Zəngilanın ərazisindən keçən Oxçuçay çayının taleyini biz əfsuslar olsun ki, ürəkağrısı ilə dilə gətiririk. Oxçuçay da Ermənistanın ekoloji terroruna məruz qalmışdır. Əfsuslar olsun ki, bir xarici şirkət də bu ekoloji terrorun ermənilərlə birlikdə müəllifi olmuşdur. Oxçuçayın sarı rəngə boyanması artıq mətbuatda dəfələrlə dərc edilib, həm foto, həm videogörüntülər var. Yəni Ermənistanda istismar edilən mis kombinatının bütün axıntıları Oxçuçaya təmizlənmədən ötürülürdü. Bu cinayətdir, bu, ekoloji terrordur. Bunu kim edib? Ermənistanın keçmiş rəhbərliyi. Çünki həmin o mis kombinatının səhmdarları Ermənistanın keçmiş rəhbərliyinə yaxın olan və qohumluq əlaqələri olan adamlardır. Biz bilirik ki, bu mis kombinatının işlənilməsi korrupsiya sxemləri əsasında olub. Təəssüf ki, beynəlxalq auditə subyekt olan xarici şirkət də bu korrupsiya əməllərində iştirak edib.

Ermənistan rəhbərliyinə gəldikdə, onların hər bir addımı, hər bir hərəkəti biabırçılıq olub. Amma beynəlxalq auditlə işləyən beynəlxalq şirkət bu çirkin əməllərə əl atırsa, burada həmin o şirkətin yerləşdiyi ölkələrin hüquq-mühafizə orqanlarının işi olmalıdır. Biz bir neçə dəfə o şirkətin adını çəkmişik, bu gün də çəkə bilərəm: "Cronimet" şirkəti. Nə üçün bu günə qədər reaksiya verilmir? Nə üçün Almaniyanın hüquq-mühafizə orqanları bu şirkətin əməllərini araşdırmır? Biz axı rəsmən müraciət etmişik. Həm də həmin "Cronimet" şirkətinə müraciət etmişik: gəlin, təmizləyin bu ekoloji terrorun fəsadlarını. Cavab yoxdur. Hüquq-mühafizə orqanlarından cavab yoxdur. Axı biz bilirik ki, Avropada ekologiyaya nə qədər böyük diqqət göstərilir. Biz bilirik ki, havanın yarım dərəcə istiləşməsi indi bütün dünya, Avropa üçün böyük problem kimi qəbul edilir. İqlim dəyişikliyi problemi bu gün dünya gündəliyinin diqqətini cəlb edib. Amma burada açıq-aşkar görünür ki, təmiz qaynaqlardan axan çay sarı rəngə boyanır. Yəni oradan götürülən nümunələr, o cümlədən işğal dövründə götürülən nümunələr bunu göstərir. Birinci olaraq erməni ekoloqları bu məsələni qaldırmışdılar. Onlar qeyd edirdilər ki, burada təbii fəlakət baş verir. Əlbəttə ki, onlar Azərbaycana, necə deyərlər, xoş münasibət göstərən adamlar deyildilər, onlar hesab edirdilər ki, bu torpaqlar Ermənistanın əlində əbədi olacaq. Ona görə məsələ qaldırmışdılar və əvvəlki rəhbərliyi, kriminal xunta rejimini - Serjik Sarkisyanı və onun qohumlarını ittiham etmişdilər. Onların da əlində sübutlar var. Amma bir addım atıldı? Yox.

Ona görə bu məsələni də indi bizim mərkəzi icra orqanları qaldırıblar və məşğul olurlar. Əlbəttə ki, siz mənim nümayəndəm kimi bütün bu məsələləri daha dərindən təhlil etməlisiniz və vurulmuş ziyanın ödənilməsi, məhkəmə və hüquq iddialarının qaldırılması ilə bağlı öz töhfənizi verməlisiniz. Əlbəttə, bu əsas məsələlərdir, bu, ilkin mərhələdə görüləcək işlərdir, o cümlədən minatəmizləmə işləri. İndi bizim müvafiq qurumlarımız bu işlə məşğul olurlar. Əlbəttə ki, mənim yerlərdəki nümayəndələrim də burada fəal iştirak etməlidirlər, öz köməklərini göstərməlidirlər.

Qarşıda duran digər vəzifələr, əlbəttə ki, ilk növbədə keçmiş məcburi köçkünlərin azad edilmiş torpaqlara tezliklə qayıtmaları ilə bağlıdır. Burada da dövlət nə mümkünsə edir, bütün güclər səfərbər olunub. Maliyyə vəsaiti səfərbər edilib. Keçən il və bu il bu məqsədlər üçün hər il üzrə 2,2 milyard manat vəsait nəzərdə tutulub, yəni toplam 4,4 milyard manat. Bu il bizim iqtisadi inkişafımız daha sürətlidir və ilin birinci rübündə iqtisadiyyat təxminən 7 faiz artıb, gəlirlərimiz də artıb. Ona görə mən hesab edirəm ki, təxirəsalınmaz işlərin görülməsi üçün biz əlavə vəsait ayırmalıyıq. Azad edilmiş torpaqların bərpası üçün əlavə vəsait ayırmalıyıq. Hökumətə bu məsələ ilə bağlı göstəriş verildi. Yəqin ki, yaxın gələcəkdə biz bunu rəsmən təsdiqləyəcəyik ki, daha çox işi bu il görə bilək. Hələ, deməli, ilin 4 ayı keçib, görüləcək işlər çoxdur. Ona görə keçmiş məcburi köçkünlərin qaytarılması üzrə birinci layihə, qeyd etdiyim kimi, yaxın zamanlarda icra olunacaq. Digər layihələrə də mütləq başlamaq lazımdır.

Zəngilan şəhərinin baş planının ilkin versiyası mənə təqdim edilmişdir. Prinsip etibarilə bu məqbuldur. Amma, əlbəttə ki, göstəriş vermişəm ki, daha geniş diskussiyalar, müzakirələr aparılsın. Siz də təbii olaraq bu işlərə dərhal qoşulun. Zəngilan şəhərinin baş planı bütün müasir memarlıq normalarını ehtiva edəcək. Həm xarici görünüşü çox gözəl olmalıdır, rahatlıq olmalıdır, həm də bütün ekoloji standartlar burada təmin edilməlidir və tətbiq olunmalıdır. Zəngilan şəhəri və ümumiyyətlə, Zəngilan rayonu təbiət nöqteyi-nəzərindən çox gözəl olduğu üçün yeni yaradılacaq şəhər də bu gözəlliyi özündə təcəssüm etdirməlidir. Ona görə baş planın qəbul edilməsi, təsdiq olunması və ondan sonra işlərin daha sürətlə getməsi, əlbəttə ki, təmin ediləcəkdir.

Zəngilanda kənd təsərrüfatının inkişafı ilə bağlı çox böyük imkanlar var. Mən artıq bəzi fikirlərimi bildirmişəm. Amma rayonun bütün kənd təsərrüfatı potensialı tam dəqiqliyi ilə təhlil edilməlidir və ora qayıdacaq keçmiş məcburi köçkünlər üçün də tövsiyələr verilməlidir. Əlbəttə ki, burada mərkəzi icra orqanları - Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və mənim nümayəndəm kimi siz birgə işləməlisiniz. Zəngilan rayonunun kənd təsərrüfatı potensialını maksimum dərəcədə realizə etmək üçün tövsiyələr verilməlidir - harada hansı iş görülməlidir? Əlbəttə ki, sovet vaxtında orada kənd təsərrüfatı ilə bağlı aparılan işlər təhlil edilməlidir. Ancaq təbii ki, bu, bizim üçün əsas ola bilməz. Çünki o vaxt tam fərqli aqrotexniki imkanlar, tam fərqli texnologiyalar var idi. Biz Zəngilan rayonunda kənd təsərrüfatı sahəsinə ən qabaqcıl texnologiyaları gətirməliyik və bunu mən mərkəzi icra orqanları qarşısında vəzifə kimi qoymuşam - dünyada ən mütərəqqi texnologiya nədirsə, o, bizdə olmalıdır, xüsusilə azad edilmiş ərazilərdə. Çünki 30 ilə yaxın insanlar torpaq həsrəti ilə yaşamışlar, Ermənistan onların ömrünün böyük hissəsini oğurlamışdır. Onlardan minlərlə, on minlərlə insan öz doğma torpağını görməyib, həsrətlə həyatdan gedib. Ona görə oraya qayıdacaq insanlar üçün xüsusi şərait yaradılmalıdır. Kənd təsərrüfatı həm məşğulluq, həm ərzaq təhlükəsizliyi, həm də ixrac deməkdir.

Zəngilan rayonu həmsərhəd rayondur, həm İranla, həm Ermənistanla və Naxçıvana da məsafə çox yaxındır. Zəngəzur dəhlizinin işə düşməsi nəticəsində eyni zamanda Zəngilan rayonundan İran İslam Respublikasına keçən yollar nəzərə alınmaqla ixrac bazarlarına Zəngilanda yetişdiriləcək malların çox böyük çıxış imkanı var və biz bundan maksimum faydalanmalıyıq. Çünki Zəngilandan Ordubada gedən dəmir yolu, avtomobil yolu, o cümlədən İran ərazisinə keçir, - mart ayında müvafiq memorandum imzalanmışdır, - eyni zamanda Ermənistan ərazisindən də mütləq keçməlidir və əminəm ki, keçəcəkdir. Ona görə ixrac bazarlarına yaxınlığı, əlbəttə ki, əlavə imkanlar yaradır, həm ixrac üçün, həm də idxal üçün. Yerli istehsalın genişləndirilməsi üçün, əlbəttə ki, ixrac malları da gətirilməlidir, texnologiyalar gətirilməlidir.

Təbiətin qorunması, əlbəttə ki, ön planda olmalıdır. Zəngilan rayonunun çox gözəl təbiəti var, füsunkar təbiəti var və təbiət nöqteyi-nəzərindən hesab edirəm ki, ölkəmizin ən gözəl rayonlarından biridir. Təbii ki, Zəngilan rayonunda böyük turizm potensialı vardır. Çünki gözəl meşələr, dağlar, bulaqlar, çaylar və beynəlxalq hava limanı, dəmir yolu, avtomobil yolları bütün bunlar böyük bir sərvət olacaq. Zəngilan rayonunun turizm potensialı, əlbəttə ki, digər rayonlarda yaradılacaq turizm imkanları ilə də uzlaşdırılmalıdır. İndi Zəngilan, Qubadlı, Laçın yolu ilə Şuşa şəhərinə də məsafə çox qısa olacaq, çox rahat olacaq. Yəni Zəngilan rayonunun turizm imkanları dərindən təhlil edilməlidir, təxirəsalınmaz işlərə biz dərhal başlamalıyıq. Yeni hotellər, istirahət zonaları yaradılmalı, kənd turizmi inkişaf etdirilməlidir. Bu, oraya qayıdacaq insanlar üçün də məşğulluq və gəlir mənbəyi olacaq. Yəni burada dünyada və xüsusilə Avropada mövcud olan ən mütərəqqi prinsiplər tətbiq edilməlidir, bütün sahələrdə. Mən, sadəcə olaraq, əsas sahələri qeyd edirəm. Amma bütün sahələrdə ən mütərəqqi təcrübə, ən şəffaf mexanizmlər, insanlar üçün rahatlıq təmin edilməlidir və belə olan halda biz istədiyimizə nail olacağıq. İstədiyimiz isə odur ki, keçmiş məcburi köçkünlər tezliklə öz dədə-baba torpaqlarına qayıtsınlar, orada rahat yaşasınlar və maksimum çox adam oraya qayıtsın, orada yaşasın. Biz elə şərait yaratmalıyıq ki, onlar da həvəsli olsunlar. Biz İkinci Qarabağ müharibəsindən sonra keçmiş məcburi köçkünlər arasında sorğu keçirmişik ki, biz bilək, nə qədər insan qayıtmaq istəyir, çünki görüləcək işlər, tikilən binalar buna uyğun olmalıdır. Şadam ki, keçmiş məcburi köçkünlərin mütləq əksəriyyəti qayıtmaq üçün öz fikirlərini bildirmişlər. Amma, əlbəttə ki, onlar təxminən 30 il Bakıda, Sumqayıtda, başqa yerlərdə yaşayıblar, bu yaşayışa öyrəşiblər, onların işləri var, onların uşaqlarının məktəbləri var, nəvələrinin məktəbləri var. Biz bunun hamısını başa düşürük və bir yerdən başqa yerə köçmək o qədər də asan məsələ deyil. Amma əminəm ki, Vətən sevdası onları oraya aparacaq. Biz elə etməliyik ki, onlar oraya gedən zaman orada özlərini rahat hiss eləsinlər.

Mən bir daha sizi bu yüksək vəzifəyə təyin olunmağınız münasibətilə təbrik edirəm, uğurlar arzulayıram.

* * *

Prezidentin Zəngilan rayonunda xüsusi nümayəndəsi **Vahid HACIYEV** dedi: Çox sağ olun, möhtərəm cənab Prezident.

Sizə dərin təşəkkürümü bildirirəm. İlk növbədə göstərdiyiniz etimada görə təşəkkür edirəm və fəaliyyətimə verdiyiniz qiymət mənim üçün ən böyük şərəfdir.

Bu ərazilərdə, Şərqi Zəngəzurda görüləcək işlər hər birimiz üçün çox şərəfli olacaq. Yəni Sizin rəhbərliyinizlə, Sizin tapşırdığınız prinsipləri əsas götürməklə biz sevimli Qarabağın inkişafı üçün əlimizdən gələni edəcəyik. Mən də bir qarabağlı olaraq bütün təcrübə və potensialımdan istifadə edib həmin ərazilərin inkişafı üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Cənab Prezident, Sizin kimi müdrik siyasi Liderin rəhbərliyi altında çalışmaq mənim üçün ən böyük şərəfdir. Yüksək etimadınıza görə Sizə bir daha dərin təşəkkürümü bildirmək istəyərdim. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.



### Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vahid Rasim oğlu Hacıyev "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanı ilə müəyyən edilmiş Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 may 2022-ci il*

1923 **Azərbaycanın özü qədər əbədi** 2022

***Tarix və şəxsiyyət!***
***Tarixdə şəxsiyyətin rolu...***
***Bu barədə çox deyilib və çox yazılıb, xeyli müzakirələr də aparılıb.***
***Yekun fikir isə belə olub:***
***Tarixdə şəxsiyyətlərin rolu danılmazdır!***
***Bəzən şəxsiyyətlər tarixi proseslərin gedişinə təsir göstərə, onun istiqamətini müəyyən qədər dəyişə bilirlər!***
***Azərbaycan tarixində də belə görkəmli insanlar, baş verən proseslərə təsir göstərməyi bacaran şəxsiyyətlər olub.***
***Onlardan biri də müasir Azərbaycan dövlətinin banisi və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir.***



# Heydər Əliyevin arzuladığı Azərbaycan

Heydər Əliyev öz fəaliyyəti ilə tarixin gedişinə təsir edən, tarixdə silinməz izi qalan fenomenal insanlardan olub. Onun Azərbaycan xalqı üçün etdikləri, müasir, müstəqil Azərbaycanın quruculuğuna verdiyi misilsiz töhfələr hamı tərəfindən minnətdarlıqla etiraf olunur.

Əslində, Heydər Əliyevin tərcümeyi-halı həm də doğma Azərbaycanın inkişaf mərhələləri, keçdiyi yol, qazandığı uğurlarının təsdiqi və təsviridir.

Ulu Öndər Heydər Əliyev Azərbaycana 34 il rəhbərlik etmişdir. Bu rəhbərlik illəri bir-birindən əhəmiyyətli dərəcədə fərqlənən iki dövrdən ibarət olmuşdur.

Hər bir dövrün isə öz xarakterik xüsusiyyəti, prinsipial fərqləri mövcuddur. Lakin bu fərqli dövrlərə baxmayaraq, Ümummilli Liderimiz bütün illərdə və hallarda Azərbaycana fədakarlıqla xidmət göstərmiş, mövcud imkanlar dairəsində xalqın sosial rifahının, həyat şəraitinin yaxşılaşdırılmasını, iqtisadiyyatın yüksələn xətlə inkişafını təmin edə bilmişdir.

Ulu Öndər Heydər Əliyev qeyri-adi zəka sahibi, xarizmatik şəxsiyyət olmuşdur. Yüksək təşkilatçılıq bacarığı, nəhəng iş qabiliyyəti, siyasi uzaqgörənlik, üstəlik, yorulmadan çalışması uğurlarının başlıca səbəbləri idi.

SSRİ adlı super dövlət kommunizm ideologiyasına əsaslanırdı. On beş müttəfiq respublikadan təşkil olunan bu qırmızı imperiyada hər şey mərkəzə tabe edilmişdi. Sov. İKP sözdə siyasi partiya olsa da, həqiqətdə dövləti idarə edən qurum, bütün məsələlər barədə son söz deyən, qərar verən orqan sayılırdı.

Ulu Öndər özünəməxsus müdrikliyi və yüksək təşkilatçılıq bacarığı sayəsində həmin dövrdə qeyri-millətlər üçün heç də asan olmayan bir səviyyəyə - Sov. MK Siyasi Bürosu üzvlüyünədək yüksəldi.

Azərbaycana rəhbərliyi dövründə və hələ Sov.İKP MK Siyasi Büro üzvlüyünə namizəd olarkən şəxsi nüfuzundan istifadə edərək mərkəzi büdcədən ölkəmizə daha çox vəsait ayrılmasına nail olurdu. Həmin vəsaitlər isə Azərbaycanın inkişafına yönəldilir, xalqımızın bəhrələnməsinə sərf olunurdu.

❖ ❖ ❖

1969-cu ildə Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilərkən Azərbaycan geridə qalmış aqrar respublikalardan idi.

Yeni texnika və texnologiya tətbiq edilmədiyindən neft sənayesində əsaslı geriləmə, tənəzzül yaranmışdı.

Aqrar sektorda vəziyyət daha acınacaqlı idi. Məhsuldarlıq və bütövlükdə ümumi istehsal az olduğundan kəndlinin qazancı da aşağı səviyyədəydi. Bu, insanların güzəranına mənfi təsir göstərirdi.

Ulu Öndərimiz özünəməxsus enerji və ciddiyyətlə işə başladı. Hər iki sahədə işlər paralel şəkildə aparıldı. Əvvəlcə ümumittifaq fondundan kifayət qədər vəsait ayrılmasına nail olundu. Neft sənayesinin dirçəldilməsi prosesinə start verildi. 1941-1945-ci illərdə Azərbaycan cəbhənin yanacaqla təminatında mühüm rol oynamışdı. Artan tələbatı daim ödəmək üçün neft quyuları şiddətli istismar olunmuşdu. Yeni yataqların kəşfinə, qoyulan investisiyaların artırılmasına, təzə texnologiyanın tətbiqinə isə lazımi diqqət yetirilməmişdi.

Neft sənayesindəki mövcud vəziyyəti dərindən təhlil edən Ulu Öndər Heydər Əliyev sahənin imkanlarından geniş istifadə olunması üçün zəruri addımların ardıcıllıqla atılmasına nail oldu. Azərbaycanda neft-maşınqayırma, kimya sənayesi yaradılaraq sürətlə inkişaf etdi. "Neft daşları"nda istehsalın həcmi xeyli artdı. Beləliklə, yeni, yüksək məvacibli iş yerləri açıldı, dövlət hesabına mənzillər tikilərək neft və neftmaşınqayırma sənayesi sahəsində çalışan vətəndaşların mənzil-məişət şəraiti, sosial rifahı ciddi şəkildə yüksəldildi.

Ümummilli Liderimiz şəxsi nüfuzundan istifadə edərək bir sıra əhəmiyyətli layihələrin Azərbaycana gətirilməsinə nail olurdu. Məişət kondisionerləri zavodunun, Bakı Dərin Özüllər Zavodunun və digər müəssisələrin Azərbaycanda inşası həmin dövrün əhəmiyyətli hadisələrindən sayılırdı.

❖ ❖ ❖

Azərbaycanda kənd təsərrüfatının yeni inkişaf mərhələsinə qaldırılması, bu sahədə baş verən inqilabi dəyişikliklər də Ulu Öndərimizin adı ilə bağlıdır.

Müharibədən sonra Azərbaycan kəndi özünə gələ bilmirdi. Məhsuldarlığın və bütövlükdə istehsalın aşağı olması, kolxoz və sovxozların zəif texniki bazası bu sahəni qeyri-rentabelli vəziyyətə salmışdı.

Ulu Öndər Heydər Əliyev kənd əməkçilərini səfərbərliyə almağı, ittifaq miqyasındakı yeniliklərin kənd təsərrüfatına da gətirilməsini təmin etdi. Məhsuldar toxumçuluğun təmini, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması, daha müasir kənd təsərrüfatı texnikasından istifadə tezliklə öz müsbət nəticəsini verməyə başladı.

Kolxoz və sovxozlar varlandıqca, kənddə çalışanların əməkhaqları artdıqca, Azərbaycan kəndinin də siması əsaslı şəkildə dəyişir, müasirləşirdi. İlbəil abad kəndlərin sayı artır, insanlar daha yaxşı yaşayırdılar. Köhnə, palçıq komalardan yaxasını qurtaran Azərbaycan kəndlisi özünə mişar daşından ikimərtəbəli, yaraşıqlı evlər tikir, məişət şəraitini şəhərdəkinə yaxınlaşdıra bilirdi. Ötən əsrin yetmişinci illərindən etibarən Azərbaycan kəndləri tanınmaz dərəcədə yeniləndi. Evlərdə müasir mebellərdən, kondisionerlərdən istifadə olunur, ailələr özlərinə minik maşınları alır, kəndli balaları ölkə paytaxtına gələrək ali məktəblərdə oxuyurdular. Beləliklə, həm Azərbaycan kəndi tikilərək gözəlləşir, müasirləşir, həm də kənddə yaşayanların mədəni səviyyəsi yüksəlirdi.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan kəndinə daha bir töhfəsi üzümçülüklə bağlı digər müttəfiq respublikalar üçün nəzərdə tutulan layihəni ölkəmizə gətirməsi oldu. Belə ki, "Azərbaycan SSR-də üzümçülüyün və şərabçılığın inkişafı haqqıda" Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin qərarının icrası ölkəyə böyük vəsait qoyulması ilə nəticələndi. Qərara əsasən, az müddət ərzində kəndlərdə geniş üzüm plantasiyaları salındı, emal müəssisələri tikildi, yeni qəsəbələr inşa olundu. Üzümçülüyün və şərabçılığın inkişafı Azərbaycanın iqtisadi cəhətdən xeyli varlanmasına, kəndlilərin sosial rifahının əsaslı şəkildə yüksəlməsinə şərait yaratdı.

❖ ❖ ❖

Ulu Öndər Heydər Əliyev gənclərdən də diqqət və qayğısını heç zaman əsirgəməyib. Müasir, firavan Azərbaycan quruculuğunu qarşıya məqsəd qoyan Ümummilli Liderimiz yeni nəsil kadrların hazırlanmasına xüsusi diqqət yetirirdi. Çünki yaxşı bilirdi ki, bacarıqlı, savadlı və səriştəli kadrlar olmadan qarşıya qoyulan vəzifələri uğurla həyata keçirmək mümkün deyildir. Odur ki, Azərbaycanın bu gününə və gələcəyinə xidmət göstərəcək kadrların hazırlanması və yetişdirilməsi üçün bir sıra gərəkli işlər gördü.

Ulu Öndərin rəhbərliyi dövründə ölkəmizdə bir sıra yeni təhsil ocaqları açıldı, ali və orta ixtisas təhsili məktəblərinə qəbulun həcmi artırıldı. SSRİ dövründə Rusiyada bir çox nadir ixtisaslar üzrə ali məktəblər fəaliyyət göstərirdi. Ulu Öndər Heydər Əliyev hər il yüzlərlə, bütövlükdə rəhbərliyi dövründə isə minlərlə azərbaycanlı gənci dövlət hesabına həmin institutlara göndərərək orada müxtəlif ixtisaslara yiyələnmələrinə şərait yaratdı. Həmin gənclər həm sovet, həm də müstəqillik illərində doğma vətənlərinə xidmət göstərərək ölkəmizin inkişafında fəal iştirak etdilər.

Ən mühüm məsələlərdən biri hərbi kadrların hazırlanması sahəsində görülən işlər idi. Sovet dövründə müsəlman respublikalardan olan çağırışçıları müasir silahların olduğu hərbi hissələrə deyil, inşaat batalyonlarında xidmətə salırdılar. Onların hərbi məktəblərə qəbuluna da müəyyən süni maneələr yaradılırdı. Ümummilli Liderimiz əvvəlcə Bakıda C.Naxçıvanskinin adını daşıyan hərbi təmayüllü məktəbin açılmasını təmin etdi. Sonra Bakıdakı ali hərbi məktəblərə azərbaycanlı gənclərin qəbulu üçün kvota ayırtdırdı. Eyni zamanda SSRİ məkanındakı hərbi məktəblərə təhsil almağa göndərilən azərbaycanlıların sayı da xeyli yüksəldi.

Hərbi ixtisaslara yiyələnərək SSRİ-nin müxtəlif guşələrindəki hərbi hissələrində xidmət edən azərbaycanlılar Ermənistan-Azərbaycan müharibəsi başlayanda geriyə dönərək vətənin müdafiəsində döyüşərək xüsusi şücaət göstərdilər.

❖ ❖ ❖

Ümummilli Liderimizin Azərbaycana birinci rəhbərliyi dövründə sözün həqiqi mənasında inqilabi dəyişikliklər baş verdi. Azərbaycan başdan-başa yenidən tikilib quruldu. Ölkə paytaxtı Bakı xeyli böyüdü və gözəlləşdi, yeni mikrorayonlar salındı, məktəblər, mədəniyyət ocaqları inşa edilərək öz qapılarını xalqın üzünə açdı.

Azərbaycan mədəniyyəti, elmi sürətlə inkişaf etdi. Yeni teatrlar yaradıldı, tamaşalar qoyuldu. Bəstəkarlarımızın musiqi əsərləri, yazdıqları baletlər ittifaqın, habelə dünyanın məşhur konsert salonlarında səsləndirildi, səhnələrdə qoyuldu.

Təkcə zəhmət adamları deyil, yazıçılarımız, bəstəkarlarımız yüksək dövlət mükafatlarına, Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldülər. Xalqımız daha yaxşı yaşamağa başladı, mədəni səviyyəsini yüksəltdi.

Azərbaycan on beş respublika arasındakı aşağı mövqeyindən öncül yerə çıxdı.

Ulu Öndərimiz SSRİ-nin rəhbərlərindən biri kimi Moskvaya işləməyə aparılanda abad, inkişafda olan bir ölkə qoyub getdi. Moskvada Sov.İKP Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi işlədiyi dövrdə Azərbaycanı, xalqımızı unutmadı, daim köməyini, dəstəyini göstərdi.

M.Qorbaçovun SSRİ rəhbərliyinə gəlişindən, "yenidənqurma" adlı ittifaq miqyaslı oyunbazlıqdan sonra vəziyyət büsbütün dəyişdi, qırmızı imperiyanın çöküşü başladı. Ulu Öndər Heydər Əliyevin böyük siyasətindən müvəqqəti ayrılması Azərbaycana da təsirsiz ötüşmədi.

Nəhəng imperiya çalxalanmağa, mərkəzlə müttəfiq respublikalar arasındakı bağlar qırılmağa başladı. Ölkəni mitinq və tətillər dalğası bürüdü, iqtisadiyyat pozuldu, qıtlıq, ərzaq növbələri yarandı, sabaha inam itdi...

Qarabağ probleminin yenidən meydana atılması, milli ədavətin gücləndirilməsi, belə bir dövrdə respublikaya maymaq, qorxaq və qətiyyətsiz adamların başçılıq etməsi vəziyyəti daha da mürəkkəbləşdirdi. "Cızığından çıxmış" Azərbaycanı cəzalandırmaq üçün Moskva tərəfindən 20 Yanvar faciəsi törədildi, sovet ordusu Azərbaycana gələrək dinc əhalini küçələrdə güllələbaran etdi.

Azərbaycanın faciəli günləri başladı, erməni-sovet ordusu vasitəsilə torpaqlarımız işğala məruz qaldı.

Özlərini "demokrat" adlandıran, milli-azadlıq hərəkatının dalğalarında iqtidara gələn AXC-Müsavat cütlüyü fəlakətli vəziyyəti daha da dərinləşdirdi. Heç bir idarəetmə təcrübəsi və səriştəsi olmayanlar, şəxsi maraqlarını dövlət mənafeyindən üstün tutanlar naşılıqları ucbatından Azərbaycanı bir dövlət kimi məhvolma həddinə çatdırdılar. Ölkə keçmişdəki kimi kiçik xanlıqlara bölünmə ərəfəsində idi.

Bu məqamda Azərbaycan xalqı özünün ən müdrik qərarını verdi: sınanmış oğlunu, dünya şöhrətli siyasətçisini yenidən ölkə rəhbərliyinə dəvət etdi!

Ulu Öndər xalqının çağırışına biganə qala bilmədi!

Vətən dar günündə ümidini ona bağlamışdı!

Bu müqəddəs ümidi doğrultmaq lazım idi!

Geriyə qayıtdı, topsuz, tüfəngsiz, ordusuz...

Özü ilə zəngin təcrübəsini, dərin biliyini, bir də vətən sevgisi ilə döyünən ürəyini gətirdi!

❖ ❖ ❖

1993-cü ilin 15 iyununda Ulu Öndər Heydər Əliyev faktiki olaraq ölkəyə rəhbərliyə başladı.

Lakin o, qurulu, abad Azərbaycanı qoyaraq Moskvaya getmişdi. Qayıtdığı dövrün Azərbaycanı isə ümummilli böhrana düşərək boğulan, torpaqları kəndbəkənd işğala məruz qalan, iqtisadiyyatı pozulan, dağılan, insanları isə ümidsiz bir vəziyyətdə idi.

Ümummilli Liderimiz ölkəni fəlakətdən qurtarmaq, arzuladığı yeni, müstəqil Azərbaycanı qurmaq üçün dərhal fəaliyyətə başladı. Sutkanın 18 saatını dayanmadan çalışır, bir neçə istiqamətdə fəaliyyət göstərirdi.

Əvvəlcə atəşkəs barədə razılıq əldə olundu və beləliklə, yeni ərazilərin işğalının qarşısı alındı. Ölkədəki anarxiya, qanunsuzluq və başıpozuqluq hallarının aradan qaldırılması üçün təsirli tədbirlər görüldü. Qanunsuz silahlı dəstələr ləğv edildi, əhalidəki külli miqdarda silah-sursat toplanıldı.

Ölkədə daimi və dönməz sabitlik yarandı.

Lakin Azərbaycanın düşmənlərinə xidmət edən qüvvələr bununla barışmaq istəmirdilər. İki dəfə - 4 oktyabr 1994-cü və 13-18 mart 1995-ci illərdə dövlət çevrilişi cəhdləri törədildi.

Ulu Öndər həyatını təhlükə qarşısında qoyaraq heç bir halda postunu tərk etmədi.

Xalqa müraciət edərək insanları dövləti və dövlətçiliyi qorumaq üçün meydanlara səslədi.

Bir neçə saat ərzində minlərlə insan dahi rəhbərlərinin səsinə səs verərək küçələrə axışdılar, bədxah və düşmən qüvvələrə qarşı müdafiə cəbhəsi yaratdılar.

Hər iki dövlət çevrilişi cəhdi iflasa uğradı, təşkilatçılar qanun məsuliyyətinə cəlb edilərək cəzalarını aldılar.

Quruculuq sahəsində isə görüləsi işlər hədsiz dərəcədə çox idi.

Bir milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşərək çadır şəhərciklərində, ictimai binalarda köməksiz vəziyyətdə qalmışdı. Dövlət büdcəsində ciddi vəsait çatışmazlığı vardı. Ulu Öndər Heydər Əliyev beynəlxalq təşkilatlar və dost ölkələrə müraciət edərək binəsib insanlara humanitar yardım göstərilməsinə nail oldu, sonra isə bu sahəyə sistemli dövlət yardımını təşkil etdi.

AXC-Müsavat cütlüyünün görə bilmədiyi işi, Azərbaycan neftinin dünya bazarına çıxarılması və büdcəyə neft gəlirlərinin gətirilməsi prosesinə start verdi. Neft danışıqlarının uğurlu alınması üçün bu işə o dövrdə ARDNŞ-in vitse-prezidenti vəzifəsində çalışan İlham Əliyev cəlb edildi. Neft danışıqları çətin və mürəkkəb şəraitdə keçirilsə də, nəticə uğurlu oldu. Sonradan Azərbaycanın dövlət maraqları tam təmin olunan "Əsrin müqaviləsi" adlandırılan neft kontraktı bağlandı. Bakı-Tbilisi-Ceyhan əsas neft ixracı boru kəmərinin tikintisinə başlanıldı.

❖ ❖ ❖

Azərbaycan "Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul etsə də, əslində, müstəqillik deklorativ xarakter daşıyırdı. Həqiqi müstəqilliyə nail olmaq üçün də çox iş görülməliydi.

Bazar iqtisadiyyatı münasibətlərinə keçmək, buna zəruri hüququ baza yaratmaq vacib idi. Az bir vaxtda baş müəllifi Ulu Öndər Heydər Əliyev olan yeni Konstitusiya layihəsi hazırlandı və ümumxalq səsverməsi yolu ilə qəbul olundui. Dövlət əmlakının özəlləşdirilməsi üzrə iki dövlət proqramı qəbul olunaraq icra edildi. Azərbaycan kəndinin yeni istehsal münasibətlərinə keçirilməsi də zəruri idi. Ən çətin problemlərdən biri olan aqrar islahatların aparılması da uğurla başa çatdı, torpaq əsl sahiblərinə qaytarıldı.

Ulu Öndərin ən böyük xidmətlərindən biri də Azərbaycan cəmiyyətinin demokratikləşdirilməsi yolunda atdığı qətiyyətli addımlardır. Yeni Konstitusiyanın qəbulundan sonra vətəndaş cəmiyyətinin formalaşması, insan hüquqlarının qorunması, mətbuat və söz azadlığının bərqərar olunması istiqamətində mühüm işlər görüldü, AXC-Müsavat cütlüyü özlərini "demokrat" saysalar da, mətbuata azadlıq verməyə cəsarətləri çatmadı. Əksinə, onların dövründə mətbu orqanlar dəfələrlə təzyiqlərə məruz qaldı, jurnalistlər döyüldü, təhqir olundu. Bu cəsarəti də Ulu Öndərimiz öz üzərinə götürdü. 6 avqust 1998-ci ildə mətbuata senzura nəzarətini birdəfəlik aradan qaldıran fərman imzaladı. Beləliklə, mətbuat senzura buxovundan azad edildi.

Ulu Öndər Heydər Əliyev jurnalistlərin soaial müdafiəsinin yüksəldilməsi sahəsində də gərəkli işlər gördü. Bir sıra qəzetlərin mətbəələrə olan borcları dövlət hesabına ödənildi. Mətbu orqanların təsis olunması əhəmiyyətli dərəcədə asanlaşdırıldı və sadələşdirildi. Azərbaycan jurnalistləri Ümummilli Liderimizin bu qayğılarına cavab olaraq onu "Jurnalistlərin dostu" adına layiq gördülər.

Artıq Azərbaycan müstəqil daxili və xarici siyasət yürüdən dövlətə çevrilmişdi. Əsas məsələlərdən biri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həlli idi.

Lakin ömür Ulu Öndərimizə möhtəşəm planlarını yerinə yetirməyə möhlət vermədi. O, Azərbaycanın yeni inkişaf yolunu müəyyənləşdirərək görüləcək bütün işlərin ağırlığını siyasi varisi cənab İlham Əliyevin çiyinlərinə qoyaraq əbədiyyətə qovuşdu!

Azərbaycan xalqı sevimli rəhbərinin və xilaskarının vəsiyyətinə əməl edərək cənab İlham Əliyevi dövlət başçısı seçdi.

Beləliklə, Ulu Öndərimizin arzusunda olduğu yeni Azərbaycanın quruculuğu missiyasını da Prezident İlham Əliyev yerinə yetirməli oldu.

❖ ❖ ❖

Prezident İlham Əliyev xalqın ona göstərdiyi etimadı layiqincə doğrultmaq üçün ilk günlərdən gərgin və məhsuldar fəaliyyətə başladı.

Hakimiyyətin ilk anlarından sabitliyi pozmaq üçün meydana atılanları dərhal yerində oturtdu, onlara müstəqil Azərbaycanın etibarlı əldə olduğunu anlatdı.

Həmin dövrdə Azərbaycanda iqtisadi çətinliklər hökm sürürdü. İşsizlik baş alıb gedir, kəndlər boşalır, bölgələrə elektrik enerjisi fasilələrlə verilir, qaçqın və məcburi köçkünlər çadır şəhərciklərində, ictimai binalarda ağır vəziyyətdə yaşayırdı. Əksər yaşayış məntəqələri qazlaşdırılmamışdı və Azərbaycan qonşu Rusiyadan mavi yanacaq alırdı.

Cənab İlham Əliyev seçkiqabağı təbliğatında xalqa öz vədlərini bəyan etmişdi: İşsizlik ən aşağı səviyyəyə endiriləcək, hər bir yaşayış məntəqələrində daim elektrik enerjisi olacaq, bütün kəndlər və qəsəbələr qazlaşdırılacaq, çadır şəhərciklərində bir nəfər qaçqın və məcburi köçkün qalmayacaqdır.

Dövlət büdcəsinə neft pulları daxil olduqca vəziyyət sürətlə dəyişirdi. Prezident İlham Əliyev cari işləri perspektiv problemlərin uğurlu həlli ilə məharətlə əlaqələndirirdi. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin ardınca Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin işə salınması, Azərbaycanın logistika mərkəzinə və Avropanın mavi yanacaqla təminatında etibarlı tərəfdaşa çevrilməsi ölkənin iqtisadi qüdrəti ilə yanaşı, siyasi nüfuzunu da əhəmiyyətli şəkildə yüksəltdi.

Azərbaycan ən əvvəl özünün enerji təhlükəsizliyini təmin etdi. Bu gün ölkəmiz dünya bazarına təkcə neft və təbii qaz deyil, elektrik enerjisi də çıxarır.

Cənab İlham Əliyev verdiyi bütün vədləri ləyaqətlə yerinə yetirmişdir. Ölkə üzrə qazlaşdırma 95 faizdən yüksəkdir. Artıq Azərbaycan alternativ elektrik enerjisi istehsalına başlamışdır və sürətlə yeni, bərpaolunan elektrik enerjisi istehsalı qurğuları inşa edir.

Ölkənin bütün magistral yolları yenidən qurularaq genişləndirilmiş, kəndarası yollar asfaltlanmış, gediş-gəliş xeyli asanlaşmışdır.

İndiyədək 116 məcburi köçkün qəsəbəsi salınaraq 300 mindən çox insan rahat mənzillərə köçürülmüşdür.

Paytaxt Bakı yenidən tikilib qurulmuş, təzə küçələr və parklar salınmış, dünyanın ən gözəl şəhərlərindən birinə çevrilmişdir.

Kənddə sahibkarlığın inkişafı Azərbaycan kəndinin simasını büsbütün dəyişmişdir. İnsanlar özlərinə bir-birindən yaraşıqlı, gözəl evlər tikmiş, sosial rifahlarını xeyli yaxşılaşdırmışlar.

Bu qayğıdan jurnalistlər də kənarda qalmamışlar. Dövlət öz hesabına yeni yaşayış binaları tikib təmir edərək qələm sahiblərinin ixtiyarına vermişdir.

Azərbaycan həm də turizm diyarına çevrilmişdir. Ölkəyə dünyanın hər yerindən gələn turistlərin sayı ilbəil artır. Çoxsaylı istirahət mərkəzləri, çoxulduzlu hotellər, unikal mətbəximiz gələn qonaqları hədsiz dərəcədə razı salır.

❖ ❖ ❖

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Ulu Öndərimizin ən böyük arzusunu və vəsiyyətini də şərəflə yerinə yetirdi.

44 günlük Vətən müharibəsində Ermənistan ordusunu dəmir yumruğu ilə məhv etdi, düşməni qarşısında diz çökdürərək kapitulyasiya aktını imzalatdırdı!

İndi isə Qarabağın bərpası, dirçəldilməsi prosesi sürətlə davam edir. Bu sahədə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da fəaliyyəti ürəkaçandır. Onun Şuşada Heydər Əliyev Fondunun dəstəyi ilə reallaşdırdığı layihələr qürur və sevinc doğurur.

Böyük qayıdışa ciddi hazırlıq görülür. Şəhərlərin baş planları tərtib olunur, yeni, bir-birindən maraqlı layihələr reallaşdırılır. Şuşaya, Laçına, Kəlbəcərə yeni yollar çəkilir, dəmir yolu xətləri təzədən salınır. Kənd təsərrüfatının dirçəldilməsi, sənaye parklarının tikintisi diqqət mərkəzindədir. Kəndlinin bol suvarma suyu ilə təminatı üçün yeni su anbarları yaradılır, köhnələri təmir olunur, təzə kanallar çəkilir, artezian quyuları qazılır. Müasir tipli, "ağıllı" kənd və qəsəbələrin yaradılması da diqqət mərkəzindədir.

Ulu Öndər Heydər Əliyevin məşhur kəlamı hamının dilinin əzbəridir və hər birimizin qəlbini qürur hissi ilə doldurur: *"Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam!"*

Ümummilli Liderimiz təkcə Azərbaycanlı olması ilə fəxr etmirdi. O, Azərbaycanı bütün varlığı ilə sevir, onun yüksəlişi, qüdrətlənməsi, dünyada nüfuzunun artması və müstəqilliyinin əbədiliyə çevrilməsi üçün mümkün olanları edirdi.

Ulu Öndərimiz Azərbaycanı azad və müstəqil görmək istəyirdi.

Ulu Öndərimiz Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını istəyirdi.

Ulu Öndərimiz Azərbaycanı müasir, demokratik, gözəl, abad ölkə kimi görmək istəyirdi.

Ulu Öndərimiz Azərbaycan vətəndaşlarının xoşbəxt, firəvan, alnıaçıq və üzügülər yaşamasını istəyirdi.

Müzəffər Ali Baş Komandanımız, Prezidentimiz İlham Əliyev bütün bu istək və arzuları gerçəkliyə çevirdi.

Azərbaycanı Cənubi Qafqazın ən güclü dövləti etdi.

Azərbaycanın dünyada nüfuzunu qat-qat artırdı.

Qüdrətli ordu yaratdı, ərazi bütövlüyümüzün bərpasına nail oldu.

Bu gün isə Azərbaycanı Zəfər yolu ilə dayanmadan irəli aparır!..

**Bəxtiyar SADIQOV**

1923 *Azərbaycanın özü qədər əbədi* 2022

**Bu gün Azərbaycan xalqı haqlı olaraq qalib, güclü və nüfuzlu dövləti ilə fəxr edir. Çünki hazırda Azərbaycan çoxəsrlik dövlətçilik tarixinin ən qüdrətli dövrünü yaşayır, ardıcıl və möhtəşəm nailiyyətlər qazanaraq yeni zirvələr fəth edir.**



# Dünyanın ən böyük azərbaycanlısı

Cəmiyyətdə mühüm siyasi prosesləri istiqamətləndirən, hadisələrin fövqündə dayanmaqla tarixi inkişafın gedişini əvvəlcədən müəyyənləşdirən böyük siyasi liderlər ölkəsinin ən böhranlı, dönüş anında məsuliyyəti çiyinlərinə götürərək bütöv bir xalqın, millətin xilaskarına çevrilirlər. Müəyyən zaman kəsiyində tarixi inkişafın diktə etdiyi ictimai-siyasi şərait bu şəxsiyyətlərin nəyə qadir olduğunu üzə çıxarır. Belə taleyüklü məqamlarda bir daha təsdiqlənir ki, əsl siyasi lider daim öz cəsarəti, çevik və prinsipial qərarları, ən çətin vəziyyətlərdən optimal çıxış yolu tapmaq məharəti ilə seçilən parlaq şəxsiyyətdir. Dünya tarixini, bəşər sivilizasiyasını yaradan ən mühüm amil də qədim dövrlərdən bəri öz xalqına, millətinə, ümumiyyətlə, bəşəriyyətə xidmət edən dahilərin ideyaları və əməlləri ilə bağlı olmuşdur. Çoxəsrlik dövlətçilik tarixinə malik olan Azərbaycan xalqının təcrübəsi də bu nəzəri fikri və praktik reallığı birmənalı şəkildə təsdiqləyir.

Ulu Öndər Heydər Əliyev məhz belə liderlərdən biri kimi daim ehtiramla anılır.  Xalqımız minilliklər boyu qazandığı möhtəşəm nailiyyətləri, tarixi dövlətçilik ənənələrini məhz Ümummilli Liderin hakimiyyəti dövründə təkmilləşdirərək sistem halına salmış, millət kimi mövcudluğunu, dövlət qurmaq haqqını və özünü idarə etmək bacarığını yüksək səviyyədə nümayiş etdirmişdir.

Heydər Əliyev siyasəti Azərbaycanı qurtuluşdan tərəqqiyə, tərəqqidən zəfərə aparan yol kimi möhtəşəm nailiyyətlərimizin əsasını təşkil edir. Ümummilli Liderin ideyaları və zəngin dövlətçilik irsi əsasında inkişaf yolunda inamla və qətiyyətlə addımlayan müasir Azərbaycan dövləti tarixinin ən qüdrətli dövrünü yaşayır, ölkəmizin müasir mənzərəsi, dünyanın siyasi sistemində yeri və rolu xalqımızda böyük ruh yüksəkliyi, gələcəyə böyük inam yaradır.

Azərbaycana birinci rəhbərliyi dövründə milli mənafelərə xidmət edən çoxşaxəli addımları ilə xalqın istiqlal və azadlıq duyğularının gerçəkləşməsinə real siyasi-hüquqi və iqtisadi zəmin hazırlamış Ümummilli Lider respublikamızı müstəqilliyə qovuşduran mürəkkəb ictimai-siyasi proseslərin də mərkəzində olmuşdur. 1990-cı illərin əvvəlində milli müstəqilliyimizin itirilməsi və dövlətçilik ənənələrinin milli yaddaşdan silinməsi təhlükəsi ilə üzləşdiyimiz vaxtda müdrik dövlət xadimi, dünyaşöhrətli siyasətçi Heydər Əliyevin xalqın tələbi və dəstəyi sayəsində xilaskarlıq missiyasını öz üzərinə götürməsi Azərbaycanı uçurumdan xilas edərək zirvəyə yüksəltmişdir. O, böyük öndər kimi xalqımızın milli sərvəti olan müstəqilliyin qorunmasını təmin etmiş, Azərbaycanı tənəzzüldən xilas edərək tərəqqi yoluna çıxarmışdır.

Bu gün Ulu Öndərin xalqımız qarşısındakı əvəzolunmaz xidmətlərindən bəhs edərkən onun xilaskarlıq missiyasının tarixi əhəmiyyətinə və siyasi-fəlsəfi məzmununa xüsusi diqqət yetirilir. Daha dəqiq desək, bir çox tədqiqat əsərlərində, fundamental elmi-konseptual mənbələrdə Heydər Əliyevin liderlik fenomenindən bəhs edərkən xilaskarlıq missiyası xüsusi araşdırma predmetinə çevrilir. Çünki Heydər Əliyev respublikamızın ziddiyyətlər və qarşıdurma məkanına çevrildiyi, mürəkkəb regional və beynəlxalq proseslərin cərəyan etdiyi bir şəraitdə Azərbaycan xalqını böyük fəlakətlərdən xilas etmiş, ölkəmizin formal deyil, gerçək müstəqilliyini təmin etmişdir. Tarixə xronoloji ardıcıllıqla yanaşsaq görərik ki, xalqın Ulu Öndərə olan inam və etimadı onun respublikamızın qurtuluşu naminə siyasi məsuliyyəti öz üzərinə götürməsinə zərurət yaratmışdı. Azərbaycan xalqı Ulu Öndərə ölkəmizin xilası və tərəqqisi naminə respublikamıza rəhbərlik etməsi barədə qətiyyətli çağırış etmişdi. Ümummilli Lider Heydər Əliyev bunu nəzərə alaraq Bakıya qayıtmış, Azərbaycan xalqının və dövlətçiliyimizin xilası, dövlətçilik ənənələrimizin, milli qürur və ləyaqətin bərpası naminə tarixi missiyasını yerinə yetirməyə başlamışdı.

1993-cü il oktyabr ayının 3-də Heydər Əliyevin Azərbaycan Prezidenti seçilməsi ilə ölkəmizin həyatında yeni dövrün əsası qoyulmuşdur. Ümummilli Lider ölkəmizin inkişaf istiqamətlərini dövrün xüsusiyyətlərinə və zamanın tələblərinə müvafiq olaraq dəqiq müəyyənləşdirmiş və Azərbaycanın təhlükəsizlik və inkişaf məkanına çevrilməsini təmin etmişdir.

Heydər Əliyevin prezident seçilməsindən sonra müstəqil Azərbaycan dövlətinin hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi sürətlənmişdir. Ulu Öndər ilk növbədə ölkədə ictimai-siyasi sabitliyin bərpası istiqamətində gərgin iş aparmalı olmuşdur. Qanunsuz silahlı dəstələr zərərsizləşdirilmiş, Azərbaycanın sosial-iqtisadi yüksəlişinə yol açan ən mühüm amil kimi cəmiyyətdə ictimai-siyasi sabitlik bərqərar edilmişdir.

Milli inkişaf strategiyasının nəzəri-praktik əsaslarının formalaşdırılması və praktik şəkildə tətbiqi də məhz Ulu Öndərin 1993-cü ilin iyununda xalqın təkidli istəyi ilə hakimiyyətə qayıdışından sonra mümkün olmuşdur. Ümummilli Lider mərkəzi planlaşdırma və bölgü prinsiplərinin hakim olduğu bir ictimai-iqtisadi formasiyadan azad bazar iqtisadiyyatına optimal keçid modelini irəli sürərək onun həyata keçirilməsinə nail olmuşdur. 1994-cü ildə dünyanın iri neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanı bütün dünya üçün önəmli mərkəzə çevirmişdir. Bu hadisə Azərbaycanda ictimai-siyasi sabitliyin qorunmasına, müstəqilliyimizin əbədiliyinə, respublikamızda demokratik proseslərin inkişafına əsas yaradan amilləri daha da möhkəmləndirmişdir.

Ulu Öndər uzunmüddətli hədəflər müəyyənləşdirmişdir. Bütövlükdə regionun geosiyasi xəritəsini yenidən cızmış, bura çox güclü iqtisadi amillər əlavə etmişdir. Cənubi Qafqazın Böyük İpək yolunda çox mühüm strateji məntəqə olmaq imkanını, nəinki təkcə Azərbaycanın, həm də bütövlükdə Orta Asiyanın təbii sərvətlərinin daşınmasında nəqliyyat dəhlizi rolunu oynamaq şansını reallığa çevirmişdir. Bütün bunlar öz-özünə və qısa bir zamanda baş verməmişdir. Azərbaycanın son onilliklərdə əldə etdiyi nailiyyətlərin hər biri strateji baxımdan bir-birini tamamlayır. Onların hərəsinin tarixi zəfərimizdə böyük payı var. "Əsrin müqaviləsi" də, Böyük İpək yolunun bərpası strategiyası da, Bakı-Tbilisi-Ceyhan layihəsi də, bir-birini əvəz edən neçə-neçə beynəlxalq neft-qaz müqavilələri də böyük müdrikliklə düşünülmüş və bu gün Azərbaycan Respublikası Prezidentinin əzmlə, qətiyyətlə yerinə yetirdiyi vahid strateji planın ayrı-ayrı hissələridir.

Çox mühüm məqamlardan biri də budur ki, Ümummilli Lider daim milli həmrəyliyin qorunmasına və dövlətçilik ənənələrinin yaşadılmasına xüsusi əhəmiyyət vermişdir. Həm SSRİ dövründə, həm də müstəqillik dönəmində Azərbaycana rəhbərlik etdiyi zaman milli-mənəvi dəyərlərin yaşadılması, qorunması, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi, milli-strateji hədəflərə çatmaq üçün kadr potensialının formalaşdırılması və digər istiqamətlərdə Ulu Öndər tərəfindən mühüm addımlar atılmışdır. Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə həyata keçirilən milli siyasət xalqımızın həmrəyliyini təmin etmiş və gücləndirmiş, istər ölkəmizdə, istərsə də respublikamızın hüdudlarından kənarda yaşayan soydaşlarımız vahid milli məfkurə olan azərbaycançılıq ideologiyası ətrafında sıx birləşmişdir. Özündə Vətənə sevgi, milli-mənəvi dəyərlərə hörmət, gənc nəslin vətənpərvərlik ideyası əsasında və milli ruhda yetişməsi kimi prinsipləri ehtiva edən azərbaycançılıq milli həmrəyliyimizin ideoloji əsasına çevrilmişdir. Bu ideologiyanın milli və dini mənsubiyyətindən asılı olmayaraq, ölkəmizdə yaşayan bütün xalqların mənafeyinin və hüquqlarının qorunması onun milli həmrəylik mənbəyinə çevrilməsini şərtləndirmişdir.

Heydər Əliyev qətiyyət və böyük şəxsiyyət deməkdir. O, Azərbaycan xalqını syasi, iqtisadi, mədəni və mənəvi cəhətdən daha yüksəkliyə qaldırdı. Ulu Öndərin müstəqillik dönəmində ölkəmizə rəhbərlik etdiyi dövr eyni zamanda Azərbaycanı böyük zəfərə aparan yolun başlanğıcı olmuşdur. Müdrik dövlət xadimi Heydər Əliyev o zaman işğal altında olan torpaqlarımızın azad olunması istiqamətində sistemli və məqsədyönlü fəaliyyətin əsasını qoymuş, həm ölkə daxilində, həm də beynəlxalq miqyasda ardıcıl işlərə başlanılmışdır. Böyük siyasətin sirlərinə dərindən bələd olan Ümummilli Lider bilirdi ki, torpaqların işğaldan azad olunması - tarixi ədalətin və ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi üçün güclü dövlət konsepsiyasını reallaşdırmaq lazımdır. Bunun üçün isə strateji hədəfləri dəqiq müəyyənləşdirmək, xüsusi olaraq bir neçə istiqamətdə milli məqsədləri gerçəkləşdirmək gərəkdir.

Bunlardan biri və birincisi ilk növbədə ölkə daxilində sabitlik və təhlükəsizlik mühitinin təmin olunması idi. Ümummilli Lider həm daxili siyasətdə mühüm tədbirlər həyata keçirməklə, həm də Azərbaycanın dövlətçilik mənafeyini beynəlxalq miqyasda strateji maraqlarla dəqiq uzlaşdırmaqla buna nail oldu. Paralel olaraq mütərəqqi iqtisadi inkişaf strategiyasının hazırlanması və uğurla tətbiq edilməsi də Azərbaycanın milli gücünün artırılmasında və hədəfə doğru inamla irəliləməsində mühüm rol oynadı. Bu kontekstdə "Əsrin müqaviləsi"nin imzalanması, beynəlxalq əməkdaşlıq platformasının yaradılması, xarici tərəfdaşlarla iqtisadi münasibətlərin təməlinin atılması və digər addımlar da xüsusi vurğulanmalıdır. Uğurlu ordu quruculuğunun həyata keçirilməsi də böyük zəfərə gedən yolda xüsusi əhəmiyyət kəsb edən işlərdən biridir. Digər tərəfdən, Ümummilli Liderin beynəlxalq tədbirlərdə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən və Ermənistanın işğalçılıq siyasətini pisləyən qətnamələrin və bəyanatların qəbul edilməsinə nail olması da ölkəmizin beynəlxalq mövqeyinin möhkəmlənməsinə, diplomatik müstəvidə üstünlük qazanmasına xidmət göstərdi.

Nəticə etibarilə Ulu Öndərin əsl müstəqillik qazanmaq, dövlətçilik ənənələrini bərpa etmək və milli inkişafa nail olaraq sabaha inamla addımlamaq missiyasını öz üzərinə götürməsi ilə qurtuluşdan tərəqqiyə, tərəqqidən zəfərə aparan yolun əsası qoyulmuşdur. Müstəqillik dövrünün sabitlik və inkişaf mərhələsi kimi səciyyələndirilən 1993-2003-cü illərdə Ulu Öndərin rəhbərliyi ilə görülən işlər yeni Azərbaycanın parlaq gələcəyini inşa etmişdir.

Bunlarla yanaşı, siyasi varisliyin təmin olunması Heydər Əliyev irsinin parlaq təzahürü - Azərbaycanın dövlətçilik tarixinin müstəsna siyasi hadisələrindəndir. Ulu Öndər özündən sonra Azərbaycan dövlətini müstəqil, milli maraqlara və milli-mənəvi dəyərlərə, xalqın ali iradəsinə əsaslanan siyasət həyata keçirməklə, zirvələrə daşıyacaq lider yetişdirməklə, dövlətçilik tariximizdə ən böyük xidmətlərindən birini göstərmişdir.

2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına müraciət edən Ulu Öndər Heydər Əliyev deyirdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Heydər Əliyev müdrik şəxsiyyət idi və dediyi sözlərdə nə qədər böyük həqiqətin və hikmətin olduğu 2003-cü ildən sonra Azərbaycanda gedən inkişaf proseslərində özünü göstərdi. Prezident İlham Əliyev Heydər Əliyevin müəyyən etdiyi siyasi kursu və inkişaf strategiyasını inamla, layiqincə davam etdirdi, onları dövrün çağırışlarına uyğun olaraq daha da zənginləşdirdi.

Ulu Öndərin inamı, xalqın böyük etimadı özünü tam doğrultmuşdur. Onun layiqli davamçısı olan İlham Əliyev xalqın iradəsi əsasında Prezident seçildikdən sonra ölkəmizin inkişafında yeni bir mərhələnin əsası qoyulmuşdur. Azərbaycan öz iqtisadi, siyasi gücü, hərbi qüdrəti ilə, xalqımızın mübarizə ruhu və əzmi ilə yeni zirvələri fəth etməyə doğru inamla irəliləməyə başlamışdır.

Heydər Əliyevin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən zamanın tələblərinə, dövrün ictimai və siyasi qanunauyğunluqlarına müvafiq surətdə davam etdirilməsi nəticəsində milli tərəqqinin Azərbaycan nümunəsi adlı fenomen yaranıb. Bu nümunə öz cəlbediciliyinə görə bütün dünyada maraqla öyrənilən, yüksək dəyərləndirilən strateji model kimi xarakterizə olunur. Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi son 19 il ərzində bütün sahələrdə möhtəşəm və tarixi əhəmiyyətə malik nailiyyətlər əldə olunmuş, respublikamızın sosial-iqtisadi göstəriciləri mütəmadi olaraq yüksəlmiş, beynəlxalq nüfuzu artmışdır. Dövlət başçısının müəllifi olduğu milli inkişaf modelinin uğurla tətbiq olunması nəticəsində Azərbaycanda dayanıqlı iqtisadi sistem formalaşmış, bölgələrin davamlı və tarazlı sosial-iqtisadi inkişafı təmin edilmişdir. Bununla yanaşı, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə siyasi sistemin və ictimai-siyasi münasibətlərin inkişafına xidmət edən kompleks xarakterli islahatlar kursuna start verilmişdir. Yeni siyasi konfiqurasiyanın formalaşdırılması, siyasi dialoq prosesinin dərinləşdirilməsi, vətəndaş cəmiyyəti təsisatının inkişafına xidmət edən addımların atılması həm Azərbaycanın demokratik inkişaf yolunda inamla irəliləməsinə, həm də milli həmrəyliyin gücləndirilməsinə təkan vermişdir.

Digər tərəfdən, Prezident İlham Əliyevin milli maraqlara əsaslanan çoxvektorlu xarici siyasət kursu və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ardıcıl və məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycanın dünya miqyasında nüfuzu güclənmişdir. Ölkəmiz beynəlxalq dialoq və əməkdaşlıq, multikulturalizm və tolerantlıq məkanı kimi tanınmışdır. Respublikamız ötən müddət ərzində bəşəriyyət üçün taleyüklü məsələlərin həllində mühüm rol oynamış, bu istiqamətdə əhəmiyyətli təşəbbüslər irəli sürmüş və sistemli fəaliyyət göstərmiş, regional və beynəlxalq təhlükəsizliyə mühüm töhfələr vermişdir. Bununla yanaşı, bir zamanlar xəyal kimi görünən nəhəng enerji-nəqliyyat və infrastruktur layihələri dövlətimizin təşəbbüsü və liderliyi ilə reallaşdırılmış, Azərbaycan regional güc mərkəzinə və Cənubi Qafqaz bölgəsinin aparıcı dövlətinə çevrilmişdir. Bu gün Azərbaycan dünyada təkcə davamlı və dayanıqlı inkişaf yolu tutan müasir, demokratik ölkə kimi, tolerantlıq nümunəsi və multikulturalizm diyarı olaraq tanınmır. Ötən əsrin sonunda müstəqilliyini bərpa etmiş respublikamız, eyni zamanda öz ərazi bütövlüyünü, tarixi ədaləti bərpa etmiş, müsbət beynəlxalq imicə sahib və müasir dünya siyasətinin nüfuz iyerarxiyasında mütəmadi yüksəlişə malik nümunəvi dövlət olaraq səciyyələndirilir.

Mehriban xanım Əliyevanın müxtəlif sahələri əhatə edən çoxşaxəli, səmərəli, ardıcıl və məqsədyönlü fəaliyyəti ölkəmizin dayanıqlı inkişafına, xalqımızın rifahının daha da yaxşılaşmasına, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına, respublikamızın müsbət beynəlxalq imicinin möhkəmlənməsinə və müxtəlif sahələrdə davamlı strateji nailiyyətlərin əldə olunmasına müstəsna töhfədir. Xüsusilə Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Ümummilli Liderin zəngin irsinin araşdırılmasında və bu irsin xalqımızın mənəvi sərvəti kimi gələcək nəsillərə çatdırılmasında müstəsna rol oynayır. Bu, həm Heydər Əliyev fenomeninin Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində əvəzolunmaz yerinin və rolunun daha dərindən öyrənilməsi, həm də müstəqil Azərbaycan dövlətinin keçdiyi inkişaf yolunun siyasi, iqtisadi, mədəni, humanitar, tarixi aspektlərinin fundamental səviyyədə tədqiq olunması baxımından xüsusi önəm daşıyır. Heydər Əliyev Fondunun fəaliyyəti olduqca genişmiqyaslı və dərinməzmunludur, ictimai həyatın bütün sahələrini əhatə edir, eyni zamanda Azərbaycanın inzibati-coğrafi sərhədləri ilə məhdudlaşmır. Bütövlükdə, Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən layihələr milli məqsədlərin və strateji hədəflərin gerçəkləşdirilməsini təmin edir.

Prezident İlham Əliyev yürütdüyü siyasətlə, Azərbaycanı inkişaf yoluna çıxarmaqla həm də Heydər Əliyevin ən böyük arzusunun reallaşması üçün tarixi şərait formalaşdırdı. Heydər Əliyevin ən böyük arzusu isə torpaqlarımızı azad görmək, məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması idi.

30 ilə yaxın müddət ərzində işğal altında saxlanılmış torpaqlarımızın şərəfli milli mübarizə, haqq-ədalət mücadiləsi nəticəsində əsarətdən xilas edilməsi, tarixi ədalətin bərpası və ölkəmizin ərazi bütövlüyünün təmin olunması Heydər Əliyev siyasətinin təntənəsidir. Şübhəsiz ki, 44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Vətən müharibəsində Azərbaycan xalqı Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə öz gücünü səfərbər edərək milli qürur və ləyaqətin bərpasına, tarixi ədalətsizliyin aradan qaldırılmasına nail olmuşdur.

Əlbəttə, bu zəfər salnaməsinin yaradılması, mürəkkəb geosiyasi şəraitdə, dünya siyasətində toqquşan və kəsişən strateji maraqların fonunda çox böyük hadisədir. Biz qürur duyuruq ki, torpaqlarımız döyüş meydanında Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Azərbaycan Ordusunun işğalçıları darmadağın edərək layiqincə cəzalandırması nəticəsində azad olunmuşdur. Bu, XXI əsrin müharibəsini aparan Azərbaycan Silahlı Qüvvələrinin gücünü, əzmini və peşəkarlığını göstərən çox mühüm faktdır. Eyni zamanda xüsusi qeyd etmək lazımdır ki, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi müstəqillik illərində həyata keçirilən uğurlu, milli maraqlara əsaslanan və müasir qlobal çağırışlara müvafiq strateji kursun məntiqi nəticəsidir. Ümummilli Lider Heydər Əliyevin siyasətini dövrün tələblərinə uyğun keyfiyyətcə yeni müstəvidə uğurla davam etdirən Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə atılan addımlar, həyata keçirilən tədbirlər Azərbaycanın milli gücünün artmasını, hədəflərə və qələbəyə doğru əmin addımlarla irəliləməsini təmin etmişdir.

Prezident İlham Əliyevin inkişafa, intibaha, tərəqqiyə və qələbəyə hədəflənən siyasəti sayəsində Azərbaycanın iqtisadi müstəqilliyi tam təmin edilmiş, ölkənin maliyyə imkanları genişlənmişdir. Yeni güclü iqtisadiyyat quruculuğu, iqtisadi inkişaf Azərbaycanı tarixi zəfərə aparan çox mühüm və həlledici amillərdən biri olmuşdur. İqtisadi müstəqilliyin və milli inkişafın təmin olunmasına paralel olaraq ordu quruculuğu strategiyasının müvəffəqiyyətlə icra olunması, müasir standartlar və yeni yanaşmalar əsasında Silahlı Qüvvələrin döyüş qabiliyyətinin, hərbi hazırlıq səviyyəsinin artırılması, maddi-texniki təchizatının gücləndirilməsi Azərbaycanın öz milli maraqlarını, suverenliyini döyüş meydanında-hərb səhnəsində təmin etməsini mümkünləşdirmişdir.

Nəticə etibarilə, milli maraqlara əsaslanan xarici siyasət kursunun, güclü iqtisadiyyat və ordu quruculuğunun həyata keçirilməsi, həmrəyliyin, xalq-lider birliyinin təmin olunması və Azərbaycanın imkanlarının milli hədəflər uğrunda məqsədyönlü şəkildə səfərbər olunması nəticəsində qazanılan böyük qələbə ölkəmizi yeni strateji nailiyyətlərə və zirvələrə aparır.

Bu gün Azərbaycan Vətən müharibəsindəki tarixi qələbəsi ilə regionda yeni reallıqlar yaradıb. Geniş kommunikasiya imkanları, hər kəsin faydasına olan əməkdaşlıq şəraiti bu reallıqların mühüm məqamlarıdır. Azərbaycan sülh, əməkdaşlıq prinsiplərinə sadiqlik göstərir. Bütün bunlar regionda özünü gələcəkdə əsl müstəqil dövlət kimi görmək istəyən, öz taleyinə qərar vermək barədə düşünməli olan istənilən ölkə üçün çox mühüm çağırışlardır. Azərbaycanın bu çağırışları Ulu Öndər Heydər Əliyevin ötən əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq həyata keçirdiyi dövlət quruculuğu təcrübəsinə əsaslanır. Ümummilli Liderin beynəlxalq siyasət müstəvisində atdığı bütün addımlar təkcə münaqişənin ədalətli həllinə, ölkəmizin ərazi bütövlüyünün təmin olunmasına deyil, ümumiyyətlə, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinə, onun dönməzliyinin bütün dövrlər üçün təmin olunmasına yönəldilmişdi.

Bir dövlətin müstəqilliyi təbii ki, siyasi müstəqillikdən, sərhədlərin toxunulmazlığından daha geniş məfhumdur. Azərbaycan qısa bir zamanda siyasi müstəqilliyini təmin etmiş və bunu iqtisadi müstəqilliyi ilə daha da möhkəmləndirmişdir. Bütün bunlar isə Azərbaycanın milli tərəqqisində yeni mərhələnin başlanmasıdır. Olkəmiz öz inkişaf yoluna əzmlə davam edir, müstəqil inkişaf tarixinin yeni mərhələlərini yaradır.

Bu gün Azərbaycan Qarabağ və Şərqi Zəngəzurda geniş quruculuq-bərpa işləri aparır. Bu prosesdə Ulu Öndərin adını daşıyan, böyük dövlət adamının mənəvi irsini yaşadan Heydər Əliyev Fondu da yaxından iştirak edir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə fond işğaldan azad olan yurdlarımızdakı tarixi abidələrimizi həyata qaytarır, mədəniyyət incilərimizi yenidən bəşəriyyətə bəxş edir. Heydər Əliyev ideyaları yaşayır və xalqımıza gələcəyə doğru aydın yol göstərir.

*Prezident İlham Əliyev bütün bu məsələlərin həll olunmasında güclü iradə nümayiş etdirir, qətiyyətli mövqe sərgiləyir. Reallıqlar və proseslər isə Azərbaycanın öz strateji hədəflərini addım-addım gerçəkləşdirir. Bir sözlə, Ulu Öndərin görmək istədiyi bugünkü güclü, qüdrətli, nüfuzlu və qalib Azərbaycan inkişaf yolunda möhkəm addımlarla, inamla, əzmlə və qətiyyətlə irəliləyir.*

**Asif ƏSGƏROV,**
***Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı***

# İlham Əliyevin Ramazan töhfəsi





## Şəhid ailələri və müharibə əlillərinə qayğı dövlətin prioritetidir

Dünyada çox az ölkə tapılar ki, sosial siyasətin təzahür formalarının müxtəlifliyinə görə Azərbaycanla müqayisə oluna bilsin. Sosial-iqtisadi sahədə ardıcıl şəkildə islahatlar aparan dövlətlər sırasında daim adı çəkilən Azərbaycanın iqtisadi uğurları sosial sahədə inqilabi islahatların gerçəkləşməsinə real zəmin yaradıb.

Bir tərəfdən düşünülmüş və ardıcıl həyata keçirilən islahatların nəticəsi, digər tərəfdən isə İlham Əliyevin cəsarətli, inamlı addımları əhalinin, xüsusən də şəhid ailələrinin, müharibə əlillərinin sosial müdafəsinin gücləndirilməsini təmin edib. Bütün bunlar ümumilikdə ölkə vətəndaşlarının xoş gələcəyinə hesablanmış qətiyyətli siyasətin təzahürüdür desək, yanılmarıq.

### Sosial siyasətin prioriteti

Əhalinin həssas qruplarının, xüsusilə şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi İlham Əliyevin siyasətinin ana xəttini təşkil edir.

Mayın 2-də Prezident və birinci xanım Mehriban Əliyevanın açılışını etdikləri Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün nəzərdə tutulan yeni yaşayış kompleksi də bu siyasətin tərkib hissəsi idi. Doqquzmərtəbəli 12 binadan və 576 mənzildən ibarət yeni yaşayış kompleksindəki binalarda ümumilikdə 36 birotaqlı, 144 ikiotaqlı, 360 üçotaqlı və 36 dördotaqlı mənzil var. Kompleksin ərazisində 100 yerlik uşaq bağçası və bir inzibati bina inşa olunub. Həmçinin sakinlərin və övladlarının asudə vaxtının səmərəli təşkili üçün şərait yaradılıb və kompleks bütün zəruri infrastrukturla təmin edilib.

Həmin gün dövlət başçısı bu kateqoriyadan olan vətəndaşlarımıza 200 mənzil və 50 avtomobil təqdim etdi. Xüsusi vurğulanmalıdır ki, Prezidentin şəhid ailələri və müharibə əlilləri ilə görüşü və mənzillərin, avtomobillərin verilməsi məhz müqəddəs Ramazan bayramına təsadüf etdi. Mərasimin məhz müqəddəs Ramazan bayramında gerçəkləşməsi isə təsadüfi deyil. Çünki humanizm, sosial qayğıya ehtiyacı olan ailələrə xüsusi diqqət və İslam dəyərlərinə sadiqlik İlham Əliyevin idarəçilik konsepsiyasının mühüm tərkib hissələrindəndir.

Ölkəyə rəhbərlik etdiyi 19 ildə İlham Əliyevin sosial siyasətinin mərkəzində hər zaman insan amilinin dayandığı birmənalı reallıqdır. Təkcə son 4 ildə Prezidentin sosial siyasəti, xüsusən də şəhid ailələri və müharibə qazilərinə göstərdiyi xüsusi qayğıya nəzər yetirsək, bunu aydın şəkildə görə bilərik.

Belə ki, 2018-ci ildən Azərbaycanda başlanan köklü sosial islahatlar vətəndaş rifahı və məmnunluğunun təminatı istiqamətində inqilabi addımların atılmasına, sosial müdafiə və sosial təminat, məşğulluq, əmək münasibətləri, tibbi-sosial reabilitasiya və sosial sahənin digər sektorları üzrə ötən 4 illik dönəmdə ciddi irəliləyişlərə imkan verdi.

Bu istiqamətdə Prezidentin 2018-ci ilin aprelin 19-da imzaladığı ilk fərman da məhz şəhid ailələri ilə bağlı oldu. Həmin fərmanla, həmçinin 2019-cu ilin yanvar ayında imzalanan digər fərmanla yeni mühüm sosial müdafiə proqramı icra edildi. 1997-ci il avqustun 2-dək ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş hərbi qulluqçuların, daxili işlər orqanları əməkdaşlarının - 12 min şəhidin 18 mindən çox vərəsəsi 11 min manat məbləğində birdəfəlik ödəmə ilə təmin olundu.

Dövlət başçısının 23 dekabr 2021-ci il tarixli Fərmanı isə 1997-ci il avqustun 2-dək olan xidmət dövründə ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar hərbi xidmət vəzifələrini yerinə yetirərkən və ya hərbi xidmət dövründə xəsarət alması və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçular və daxili işlər orqanları əməkdaşlarının, onlardan vəfat etmiş şəxslərin vərəsələrinin də birdəfəlik ödəmə (I dərəcə əlilliyə görə 8800 manat, II dərəcə əlilliyə görə 6600 manat, III dərəcə əlilliyə görə 4400 manat) ilə təminatını nəzərdə tutur və bu prosesə də yaxın vaxtlarda başlanacaq.

Eyni zamanda 44 günlük Vətən müharibəsində iştirak edən şəxslərə "Müharibə veteranı" adı verilərək, onlara Prezidentin aylıq təqaüdü təyin edildi ki, bu da daha bir sosial dəstək proqramı kimi ictimaiyyət tərəfindən rəğbətlə qarşılandı.

### Mənzil, fərdi ev və avtomobil təminatı

Tarixi Zəfər əldə etdiyimiz 44 günlük Vətən müharibəsindən sonra İlham Əliyevin göstərişi ilə şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı geniş istiqamətləri əhatə edən sosial dəstək proqramı icra olunur. Bu proqram üzrə mühüm sosial dəstək tədbirlərindən biri kimi şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı layihəsi Prezidentin sərəncamı ilə 2021-ci ildə 5 dəfə genişlənib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həmin kateqoriyadan olanlara 2018-ci ildə 626, 2019-cu ildə 934, 2020-ci ildə 1572, 2021-ci ildə isə 3000 mənzil və fərdi ev verilib. Bu il, yəni postmüharibə dövründə isə 3500 mənzilin verilməsi nəzərdə tutulur ki, onlardan da artıq 1500 ev təqdim edilib. Bu da 2018-ci ilə nisbətən 5 dəfə çoxdur. Ümümilikdə isə ötən dövrdə 12500-dən çox şəhid ailəsi və müharibə əlili mənzil və ya fərdi evlə təmin edilib.

Dövlət başçısının tapşırığı ilə müharibə əlillərinin avtomobillə təminatı da uğurla davam edir. Son 4 ildə də 1500-dək, ümumilikdə isə ötən dövrdə 7450 müharibə əlili minik avtomobili ilə təmin edilib.

Prezidentin 25 avqust 2021-ci il tarixli sərəncamı ilə Vətən Müharibəsi qəhrəmanlarına və onlardan şəhid olanların ailələrinə də mənzillər verilir. Digər həssas qruplardan olanların (gözdən əlilliyi olanlar, dövlət uşaq müəssisələrinin məzunları) da ardıcıl şəkildə mənzillə təminatı həyata keçirilir.

İlham Əliyevin tapşırığına əsasən, 2025-ci ilə qədər mənzillə təmin olunmayan bir nəfər şəhid ailəsi və Qarabağ qazisi qalmayacaq.

### Postmüharibə dövrünün sosial dəstək paketi

Sosial məsələlərin həlli ilə bağlı ortaya qoyulan siyasi iradə və ardıcıl praktik addımlar deməyə əsas verir ki, Azərbaycan sosialyönümlü dövlət modeli formalaşdırıb. Bu siyasət postmüharibə dövründə xüsusilə geniş vüsət alıb.

İlham Əliyevin göstərişi ilə postmüharibə dövründə icra olunan sosial dəstək paketi 100 min şəxsi əhatə edib, onlara 166 min xidmət göstərilib.

Bu dövr ərzində şəhid ailə üzvləri və müharibə iştirakçılarından ibarət 93 min nəfərə 103 min sosial ödəniş təyin olunub.

Vətən müharibəsinin 200 hərbçisi, ümumilikdə 300 müharibə əlili son nəsil protezlərlə, 1400 müharibə əlili 17 min reabilitasiya vasitəsi, 5 min ailə sosial-psixoloji, 1500 şəxs reabilitasiya xidmətləri ilə təmin edilib, 11 min şəxs aktiv məşğulluq proqramlarına cəlb olunub, vahid əlaqələndirmə mərkəzləri tərəfindən isə 30 min şəxsə xidmətlər göstərilib.

Hər bir addımını xalqın mənafeyinə uyğun atması, xalqına sədaqəti İlham Əliyevə ümumxalq sevgisi qazandırıb. Prezidentin qlobal pandemiyanın gərgin dövrlərində böyük sosial islahatlar paketi çərçivəsində imzaladığı fərman və sərəncamlar qayğıkeşliyin, səmimiliyin bariz təcəssümüdür.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Kritik informasiya infrastrukturunun təhlükəsizliyi ilə bağlı qanunvericiliyə dəyişiklik olunur

Mayın 4-də Milli Məclisin İnsan hüquqları və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc gündəliyə "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) və bununla əlaqədar olaraq İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələrinin daxil edildiyini bildirib.

Komitə sədri müasir dövrdə informasiyanın mühafizəsinin hər bir dövlət üçün mühüm həyati məsələ olmasından və kibertəhlükəsizliyin təmin edilməsinin əhəmiyyətindən danışıb. Qeyd edib ki, iclasın gündəliyinə daxil edilən hər iki qanun layihəsi bununla bağlıdır. Belə ki, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanuna yeni fəslin əlavə edilməsi təklif olunur. Bununla da qanunvericiliyimizə "kritik informasiya infrastrukturu" anlayışı gətirilir.

Zahid Oruc bildirib ki, kritik informasiya infrastrukturunun kibertəhlükəsizliyinə prioritet məsələ kimi baxılmasının zərurətini nəzərə alaraq və Azərbaycan Respublikasında kritik informasiya infrastrukturunun və onun tərkibinə daxil olan informasiya sistemlərinin, informasiya-kommunikasiya şəbəkələrinin və avtomatlaşdırılmış idarəetmə sistemlərinin təhlükəsizliyinin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən 17 aprel 2021-ci il tarixdə "Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında" fərman imzalanıb. Qeyd olunan qanun layihəsində kritik informasiya infrastrukturu, onun obyekti və subyekti, digər anlayışlar, kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində səlahiyyətli orqan, habelə kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi qaydasının hüquqi əsasları müəyyən edilir.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili kibertəhlükəsizliyin pozulmasının dünyada ən çox iqtisadi sahəyə ziyan vurduğunu diqqətə çatdırıb. Bildirib ki, il ərzində dünya iqtisadiyyatına kibertəhlükəsizliyin pozulmasına görə dəyən zərər təxminən 10 trilyon dollara yaxındır. Bu isə dünya iqtisadiyyatının illik inkişafından iki dəfə çoxdur. Bu gün dünya sürətlə rəqəmsallaşmaqdadır və bu sahənin ciddi şəkildə qorunmasına ehtiyac var. Bu baxımdan layihə ölkənin iqtisadi təhlükəsizliyinin qorunması baxımından mühüm əhəmiyyətə malikdir. Təqdirəlayiq haldır ki, qanunda kibertəhlükəsizliyin qorunması baxımından 10-a yaxın konkret sahə müəyyən olunub. Kibertəhlükəsizliyin qorunması təkcə dövlətin və hökumətin deyil, bütövlükdə cəmiyyətin funksiyasıdır.

Tahir Mirkişili bu qanunun qəbul edilməsinin ümumilikdə iqtisadiyyatımızın inkişafında öz rolunu oynayacağına inamını ifadə edib.

Sonra iclasda çıxış edən Dövlət Təhlükəsizliyi Xidmətinin rəis müavini İlqar Musayev ölkəmizdə informasiya təhlükəsizliyinin qorunması istiqamətində görülən işlərdən danışıb, kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsinin əhəmiyyətini qeyd edib. Rəis müavini kibercinayətkarlığa qarşı mübarizə, bu sahədə görülmüş qabaqlayıcı tədbirlər barədə məlumat verib və müzakirəyə çıxarılan qanun layihəsini yüksək qiymətləndirib.

Müzakirələr zamanı çıxış edən deputatlar Razi Nurullayev, Əli Məsimli, Tural Gəncəliyev, Tahir Kərimli, Vahid Əhmədov və Aydın Hüseynov Azərbaycanda informasiya təhlükəsizliyinin qorunmasında əldə edilmiş uğurlardan danışıblar, müzakirə olunan qanun layihəsinin əhəmiyyətini qeyd ediblər.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli gündəliyin ikinci məsələsi - İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. Bildirib ki, bu dəyişiklik "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunun tələblərinin pozulması zamanı yaranan inzibati məsuliyyəti özündə ehtiva edir və buna görə məcəllədə cərimələr nəzərdə tutulur. Hüquq siyasəti və dövlət quruculuğu komitəsi qanun layihəsinə müsbət rəy verib.

Müzakirələrdən sonra hər iki qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

İclasda Milli Məclisin deputatları Ziyad Səmədzadə, Jalə Əhmədova, Məzahir Əfəndiyev, İqbal Məmmədov, Rüfət Quliyev, Naqif Həmzəyev, Elşad Mirbəşir oğlu, Bəhruz Məhərrəmov, Məşhur Məmmədov, Elnur Allahverdiyev, Anar Məmmədov, Mahir Abbaszadə və digər rəsmi şəxslər iştirak ediblər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Mədəni irsin arxivləşdirilməsində Amerika təcrübəsindən faydalanılacaq

Mədəniyyət naziri Anar Kərimov ABŞ-ın Smitsonian İnstitutunda muzeylər və mədəniyyət katibinin müşaviri Kevin Qover və Folklor və Mədəni İrs Mərkəzinin direktoru vəzifəsini icra edən Riçard Kurinlə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə ikitərəfli uğurlu əlaqələrin qurulması, araşdırmalar və sərgilərin təşkili, eksponatların restavrasiyası mövzusunda danışıqlar aparılıb. Söhbət zamanı nazirə məlumat verilib ki, Smitsonian İnstitutu hər il birbirindən zəngin folklor festivalları təşkil edir. Eləcə də Azərbaycanın növbəti festivallara qatılması təklif olunub.

Həmçinin institutda müxtəlif sahələr üzrə təcrübə proqramlarının keçirilməsindən, bu proqramlara ölkəmizdən olan mütəxəssislərin də qoşulmaq imkanlarından bəhs olunub.

Görüş zamanı sıx əməkdaşlığa təkan verəcək anlaşma memorandumu da imzalanacağı ilə bağlı razılığa gəlinib. Qeyd olunub ki, bu memorandum gələcək çoxşaxəli əməkdaşlıq üçün olduqca vacibdir.

Sonda tərəflər bir-birinə tarixi və mədəni baxımdan böyük önəm daşıyan kitablar hədiyyə ediblər.

Mədəniyyət naziri həmçinin ABŞ-ın Arxiv İdarəsinin rəhbəri vəzifəsini icra edən Debra Voll ilə də görüşüb.

Görüş zamanı bir sıra əhəmiyyətli mövzular müzakirə olunub. Həmçinin azərbaycanlı mütəxəssislərin yaxın gələcəkdə treninq proqramlarına qoşulması barədə razılıq əldə olunub. Mədəni irsin arxivləşdirilməsində, eləcə də arxiv sənədlərinin rəqəmsallaşdırılmasında Amerika təcrübəsindən faydalanmağın önəmindən bəhs olunub.

Anar Kərimovun rəsmi görüşləri davam edir. Nazir Dövlət Departamentində ABŞ Dövlət katibinin təhsil və mədəniyyət məsələləri üzrə köməkçisi Li Satterfildlə görüşüb. Görüş zamanı ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olunub. Anar Kərimov "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal təşəbbüsü barədə danışıb. Həmçinin ölkəmizin mədəni irsinin qorunması yolunda aparılan işlər barədə məlumat verib.

Tərəflər bir sıra məsələlər haqda da fikir mübadiləsi aparıblar.

# Maarifçilik məşəli

## Heydər Əliyev Fondu ölkədə aparılan təhsil islahatlarına böyük dəstək verir

İnkişaf dəyişiklikdir. Mütərəqqi ənənələr üzərində yeni dəyərlərin yaradılmasıdır. Həyatımızdakı ən böyük dəyişikliklər isə məhz təhsillə, məktəblə başlanır.

Son illər elmimiz, təhsilimiz daha geniş inteqrasiya proseslərinə cəlb olunur. Həyata keçirilən tədbirlər sayəsində həm infrastruktur yenilənir, həm də kadr potensialı müasir dünyanın tələblərinə uyğun tərzdə formalaşdırılır. Ölkəmizin iqtisadi qüdrəti yeniyetmələrimizin, gənclərimizin yeni bilik, bacarıq, informasiya və texnologiyaları mənimsəmə qabiliyyəti ilə bilavasitə bağlıdır. Ona görə də Prezident İlham Əliyev intellektual potensialın zənginləşdirilməsini, elm və təhsil ocaqlarımızın iqtisadi islahatlarla həmahəng inkişafını öz çıxışlarında dönə-dönə qeyd edir. Aparılan köklü islahatlar bu sahənin müasir standartlara cavab verən yeni bir mərhələyə keçidini təmin edir.

Ölkə təhsilinin inkişafında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın gördüyü işlər isə maarifçilik tariximizin böyük səhifəsini təşkil edir. Fondun yarandığı gündən aparıcı bir fəaliyyət sahəsi mövcuddur: bu, təhsil və geniş mənada sosial tərbiyə məsələləridir. Həmin məsələlər, əslində, xalqımızın gələcəyini qurmağın mühüm yollarıdır. "Bu gün, hər bir dövlətin, hər bir cəmiyyətin bundan önəmli hədəfi yoxdur", - deyir Mehriban xanım Əliyeva.

### Təhsil strateji hədəfimizdir

Heydər Əliyev Fondu 2005-ci ildən "Yeniləşən Azərbaycana yeni məktəb" çağırışını irəli sürməklə cəmiyyət həyatında böyük bir dəyişikliyin əsasını qoydu. Bu təşəbbüs çox böyük ictimai dəstək qazandı. Təhsilə insanlarımızın marağını artırdı. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinin məqsədi təhsil sahəsindəki mövcud problemlərin həllinə kömək göstərmək, ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaq, cəmiyyətin müxtəlif təbəqələrinin, yerli və xarici şirkətlərin, beynəlxalq təşkilatların bu sahədə birgə əməkdaşlıq imkanlarını müəyyənləşdirərək ümumi işin xeyrinə yönəltməkdir.

Proqram çərçivəsində ölkənin müxtəlif bölgələrində yüzlərlə məktəb binası inşa olundu və yenidən quruldu. Bu məktəblərin hər birində müasir laboratoriya, kitabxana, yeməkxana, ən son avadanlıqla təchiz edilmiş kompüter otaqları, emalatxana, idman zalları, geniş meydançalar və ayrıca istilik sistemi yaradıldı. Bununla tam fərqli, müasir, müsbət dəyişikliklərlə zəngin təhsil mühitinin qapıları gənc nəslin üzünə açıldı.

Heydər Əliyev Fondu "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinin uğurları ilə göstərdi ki, təhsil kimi strateji, cəmiyyət üçün həyati vacib sahələrdəki mövcud problemlərin yoluna qoyulmasına hər kəs bacardığı dəstəyi göstərməlidir. Çünki təhsil adına görülən hər kiçik bir işin nəticəsi müəyyən müddətdən sonra çox böyük faydalarla geri dönür.

"Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinin xoş bəhrələrini artıq gündəlik həyatımızda hiss etməkdəyik. Bu layihə çərçivəsində 3 mindən çox tikilmiş və ya yenidən qurulmuş məktəb fəaliyyət göstərir. Təhsilini müəyyən siniflərdən sonra məhz həmin yenilənmiş məktəblərdə davam etdirmiş gənclərimizin bir qismi artıq ali məktəbləri də başa vurublar. Onlar bu məktəblərlə dövlətimizin diqqət və qayğısını, gücünü, ali məqsədlərini görüb hiss ediblər. Layihə yenə də davam etdirilir. Mərkəzi şəhərlərimizdə və ucqarlarda inşa edilən, yaxud yenidən qurulan təhsil ocaqları ilə maarif nurunu insanlara yetirir.

Bu günlərdə isə "Yeniləşən Azərbaycana yeni məktəb layihəsi" çərçivəsində Bakının Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində inşa olunan 304 nömrəli tam orta məktəb istifadəyə verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva təhsil ocağının açılışında iştirak edib, məktəb binasında yaradılan şəraitlə tanış olublar.

Heydər Əliyev Fondunun icraçı direktoru, Prezidentin köməkçisi Anar Ələkbərov məktəb haqqında geniş məlumat verib. Qeyd olunub ki, yeni təhsil müəssisəsində sinif, əmək, hərbi və kompüter otaqları, laboratoriya, kitabxanalar, yeməkxana və idman zalı yüksək səviyyədə, müasir standartlara uyğun şəkildə qurulub. Məktəb zəruri mebel və avadanlıqlarla, əyani vəsaitlərlə tam təchiz edilib.

Birinci vitse-prezident Mehriban Əliyeva 2019-cu ildə Kürdəxanı qəsəbəsindəki 113 nömrəli məktəbdə yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olarkən, sakinlərin müraciəti əsasında şagird sıxlığı nəzərə alınaraq, yeni məktəb binasının tikilməsi üçün göstəriş verib. 2020-ci ildə qəsəbədə yeni təhsil ocağının tikintisinə başlanılıb. İndi isə 960 şagird yerlik 304 nömrəli məktəb artıq şagirdlərin istifadəsinə verilib. Bütün bu işlərin hətta pandemiya dövründə həyata keçirilməsi isə bir daha göstərir ki, dövlətimizin əzmkarlığı, elmə, təhsilə qayğısı qarşıya çıxan bütün maneələrdən daha güclüdür. Heç bir çətinlik bizi tutduğumuz inkişaf yolundan çəkindirə bilməz.

Onu da qeyd edək ki, son dörd il yarımda Sabunçu rayonu üzrə yeni inşa edilən, əsaslı təmir olunan və əlavə korpuslar tikilən məktəblərin sayı 13-dür. Heydər Əliyev Fondunun uğurla icra olunan layihəsi çərçivəsində inşa edilən Kürdəxanı qəsəbəsindəki 304 saylı tam orta məktəb isə sayca 14-cüdür.

Kürdəxanı qəsəbəsinin 15 min 120 nəfər əhalisi var. Burada əhali sayının artması yeni iş yerlərinin, tibb, təhsil ocaqlarının tikilməsini və digər infrastruktur layihələrinin həyata keçirilməsini zəruri edir. Qəsəbədə inşa edilən yeni məktəb binası Bakı şəhərinin, ətraf kənd və qəsəbələrin sosial iqtisadi inkişafı ilə bağlı görülən işlərin davamıdır. Ölkəmizdə təhsil müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və ya yenilərinin inşası, onların zəruri tədris avadanlığı ilə təchizi gənc nəslin daha savadlı və bilikli yetişməsinə hesablanıb. Yeni məktəb binalarının və tədris korpuslarının inşası şagird sıxlığını aradan qaldırmaqla, həm də onların daha keyfiyyətli təhsil almasına şərait yaradır.

### Fondun xətti ilə həyata keçirilən təhsil layihələri

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondunun təhsil sahəsində reallaşdırdığı möhtəşəm layihələrdən biri də "Təhsilə dəstək"dir. Bu layihə qısa zamandan sonra hüdudlarını daha da genişləndirdi. Gürcüstanın azərbaycanlılar yaşayan bölgələrindəki təhsil ocaqlarına, həmçinin Azərbaycanın Qax, Zaqatala və Balakən rayonlarında tədrisin gürcü dilində aparıldığı məktəblərə mütəmadi olaraq yeni dərslik və tədris ləvazimatları göndərilməyə başlandı.

"Təhsilə dəstək" layihəsi çərçivəsində indiyə qədər Gürcüstan, Misir, Rumıniya, Rusiya Federasiyası, Pakistan, Hollandiya, Vyetnamda bir sıra məktəblər yenidən qurulub və əsaslı təmir olunub. Pakistanın Müzəffərabad şəhərinin Rara ərazisində zəlzələdən sonra dağılmış orta məktəb binasının inşası bu baxımdan Heydər Əliyev Fondunun ən uğurlu və rəğbət doğuran layihələrindən biridir. Yada salaq ki, həmin məktəb qızlar üçündür. Bu da bütün dünyada qızların təhsilinin, ictimai fəallığının, iqtisadi müstəqilliyinin təmin olunmasının Heydər Əliyev Fondu üçün nə qədər böyük önəm kəsb etdiyini göstərir.

Fondun uğurla reallaşdırdığı işlərdən biri də "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" layihəsidir. Layihə çərçivəsində Bakıda və ucqarlarda 100-ə yaxın məktəbəqədər təhsil müəssisələri inşa edilmiş, yaxud yenidən qurularaq körpələrin istifadəsinə verilmişdir. Bu proses indi də davam etdirilməkdədir.

Təhsil sahəsində beynəlxalq əməkdaşlıq istiqamətində də çoxsaylı tədbirlər həyata keçirilir. UNESCO-nun diqqətinin ölkənin təhsil problemlərinə cəlb olunması nüfuzlu təşkilatlarla münasibətləri daha da dərinləşdirmiş, bir neçə istiqamətdə əməkdaşlıq əlaqələri qurulmuşdur. Bu əlaqələr, əsasən, "Təhsil hamı üçün" proqramını, texniki peşə sahəsində əməkdaşlıq, inklüziv təhsil layihəsi, ali məktəblərdə UNESCO kafedralarının yaradılması və digər sahələri əhatə etmişdir.

Fondun təhsil sferasında illərdən bəridir ki, reallaşdırdığı layihələrdən biri də "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı"dır. Azərbaycanda kimsəsiz uşaqlar üçün nəzərdə tutulmuş müəssisələrə sığınan körpələrin problemlərinin həlli hər zaman qurumun qarşıya qoyduğu əsas vəzifələrdən olmuşdur. Bu proqram bilavasitə Fondun prezidentinin təşəbbüsü ilə hazırlanmışdır. Layihə çərçivəsində görülən tədbirlər də Mehriban xanım Əliyevanın təşkilatçılığı, daimi nəzarəti ilə həyata keçirilməkdədir. Proqramı uğurlu edən onun ciddi bir təhlil əsasında hazırlanması və icrası gedişində hər bir sahənin dəqiqliklə nəzərə alınmasıdır. Bakıda, ətraf qəsəbələrdə yerləşən uşaq evlərində və internat məktəblərində mövcud problemlər öyrənilmiş, onların aradan qaldırılması üçün konkret işlər görülmüşdür.

"Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində respublika üzrə 50-dən çox uşaq müəssisəsi əsaslı şəkildə təmir edilmiş, yeni avadanlıqlarla təchiz olunmuş, əlavə yardımçı binalar tikilmiş, kommunal şərait yaxşılaşdırılmışdır. Müəssisələrdə kitabxanalar yaradılmışdır. Onlar müvafiq tədris vəsaiti və bədii ədəbiyyatla təmin olunmuşdurlar. Əksər uşaq evləri və internat məktəblərində kompüter avadanlığı quraşdırılmışdır. Sinif otaqları interaktiv təhsil üçün uyğunlaşdırılmışdır. Uşaqların hərtərəfli inkişafına müvafiq şəraitin yaradılması məqsədilə müəssisələrdə mütəmadi olaraq treninqlər davam etdirilməkdədir.

2009-cu ildən başlayaraq Mehriban xanım Əliyevanın təşəbbüsü əsasında bu müəssisələrlə bağlı daha bir xeyirxah iş həyata keçirilir. Uşaq evlərində tərbiyə almış, yaşı 18-ə çatandan sonra isə müstəqil həyata atılan gənclər üçün Bakıda və bölgələrdə yaşayış binaları tikilir. Onlar mənzillərlə, öz peşə bacarıqlarına uyğun iş yerləri ilə təmin olunurlar.

### Heydər Əliyev Fondu layihələri ilə hər zaman gəncliyin yanındadır

Heydər Əliyev irsində gənclər siyasəti hər zaman xüsusi yer tuturdu. Ulu Öndər gənclərə xüsusi qayğı göstərir, onların müstəqil Azərbaycanın gələcəyinin təmin olunmasındakı roluna diqqət çəkərək deyirdi: "Gənclərimizə arzu edirəm ki, onlar həmişə sağlam olsunlar, yaxşı təhsil alsınlar, yaxşı tərbiyə alsınlar, cəmiyyətdə öz yerlərini tuta bilsinlər, cəmiyyət üçün faydalı ola bilsinlər, bizim milli ənənələrimizi həmişə yaşatsınlar, valideynlərinə sadiq olsunlar... məktəbdə, ictimai yerlərdə yüksək mədəniyyət nümayiş etdirsinlər".

Mehriban xanım Əliyeva da Heydər Əliyev Fondunun layihələri ilə hər zaman Azərbaycan gəncliyinin yanındadır. Bu layihələrdə gənclərimiz fəal iştirak edirlər. Onlara öz potensiallarını reallaşdırmaq, öyrəndiklərini həyatda tətbiq etmək, zəngin təcrübə, faydalı bacarıqlar qazanmaq, sosial çevrə formalaşdırmaq imkanı yaradılır. Fondun prezidenti gəncləri bu layihələrə cəlb etməklə ölkəmizdə gənc könüllülər hərəkatını formalaşdırıb. Xalqımızın tarixi keçmişindən gələn əlbir iş ənənələrinə, el-oba naminə təmənnasız xidmətlərə müasir dövrdə yeni məzmun qazandırıb. Bu, Azərbaycan gəncliyinin vətənpərvərlik ruhunun daha da yüksəlməsinə, onların fərdi inkişafına, öz gələcəklərini arzularındakı kimi qura bilmələrinə çox böyük dəstəkdir. Bütün bunlar, Heydər Əliyev irsinin ana xəttini təşkil edən Vətənə, xalqa təmənnasız xidmət ideyasının gənc nəslə aşılanması baxımından misilsiz əhəmiyyətə malikdir.

İşğal altındakı torpaqlarımız da məhz bu gəncliyin gücü, əzmkarlığı, vətənpərvərliyi, döyüş ruhu sayəsində azadlığa çıxdı. Vətən müharibəsindəki zəfərimizdə bütün nəsillərin böyük əməyi, zəhməti var. Amma bu zəfəri, bu qalibiyyəti qazananlar cərgəsində Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə yetişən, formalaşan gəncliyin xüsusi rolu oldu. Bu gənclik dövlət başçısı İlham Əliyevin yetişdirdiyi gənclikdir: Qəlbi Vətən sevgisi ilə dolu, qürurlu, yüksək ruhlu, milli-mənəvi dəyərlərə yiyələnmiş, dövlətinə, torpağına, xalqına bağlı gənclik. Başqa cür ola da bilməzdi.

Heydər Əliyev Fondunun xətti ilə həyata keçirilən bütün təhsil layihələri də məhz gənc nəslin firavan gələcəyinin təminatına yönəlmiş böyük işlərdir. Bu layihələr həm də dünyaya yeni bir Azərbaycan təqdim edir. Ölkəmizi dünyaya elm, təhsil, mədəniyyət işığında tanıdır. Bizə rəğbət bəsləyənlərin, bizimlə həmrəy olanların sırasını genişləndirir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***




# Peşəkarlığın, fədakarlığın və vətəni sevməyin təcəssümü

## Heydər Əliyevin yaratdığı, İlham Əliyevin daha da gücləndirdiyi Xüsusi Təyinatlı Qüvvələr qəhrəmanlığın ən mükəmməl nümunələrini göstərirlər

Azərbaycan xalqının qəhrəmanlıq salnaməsinə çevrilən İkinci Qarabağ müharibəsi barədə tarix boyu çox deyiləcək, çox yazılacaq. Çünki bu savaş beynəlxalq hüquq normalarının tapdalandığı, ayrı-ayrı dövlətlərin hüquqlarının pozulduğu dünya nizamında haqsızlığa məruz qalmış bir xalqın güc yolu ilə ədaləti bərpa etməsinin nümunəsinə çevrildi. Bu savaş göstərdi ki, qüdrətli və müdrik lideri, milli həmrəyliyi olan xalqın qarşısında dayanmaq mümkün deyil.

### Ordumuz hər birimizə məğrurluq hissi yaşatdı

Torpaqlarımızın azad olunması ilə başa çatan bu müharibə nəticəsində həm də bütün dünya gördü ki, Azərbaycan güclü, ən müasir döyüş imkanlarını mənimsəmiş orduya malikdir. Hansı ki, bu ordu işğalçı qoşunların 30 ilə yaxın müddətdə yaratdığı və möhkəmləndirdiyi bir neçə mərhələli mühəndis-istehkam qurğularını ilk həmlədəcə keçmiş və düşməni darmadağın etmişdi. Hərbi əməliyyatların davam etdiyi 44 günün hər biri ordumuzun uğurlu əməliyyatları ilə əlamətdar oldu, hər gün cəbhədən qələbə xəbərləri gəldi.

Bu müharibədə İlham Əliyevin Ali Baş Komandanlığı ilə ordumuz yüksək döyüş peşəkarlığı və müasir hərbi əməliyyatların aparılması ilə yanaşı, ləyaqətlə döyüşməyin və vətənpərvərliyin ən gözəl nümunələrini yaratdı. Düşməni döyüş meydanında diz çökdürən ordumuz hər bir azərbaycanlıya tarixi və əvəzolunmaz məğrurluq hissi yaşatdı, bütün dünyaya bizi müzəffər xalq kimi tanıtdı.

Prezident İlham Əliyevin Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" saylı hərbi hissəsində çıxışı zamanı dediyi kimi, bu sevinci bizə bəxş edən əsgər və zabitlərimizdir: "Azərbaycan Silahlı Qüvvələrinin tarixi Zəfəri bizim tariximizdə əbədi qalacaq. Biz müzəffər xalq kimi, qalib dövlət kimi bundan sonra əbədi yaşayacağıq. Bu sevinci bizə bəxş edən bizim övladlarımız, əsgər və zabitlərimiz olub. Bütün Silahlı Qüvvələr bu qələbənin əldə olunmasında öz dəyərli töhfəsini vermişdir və cəmi 44 gün ərzində tarixi Zəfər əldə olundu, düşmən bizim qabağımızda diz çökdü və məcbur oldu öz əli ilə kapitulyasiya aktına imza atdı".

### Ən güclü, ən hazırlıqlı və ən çevik…

Qeyd edək ki, aprelin 30-da Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin yaradılmasının 23-cü ildönümü tamam oldu. Ali Baş Komandan İlham Əliyevin XTQ-nin "N" saylı hərbi hissəsinə gəlməsi də bununla bağlı idi. 1999-cu ildə Xüsusi Təyinatlı Qüvvələrin əsasının qoyulması Ulu Öndər Heydər Əliyevin uğurlu ordu quruculuğunun nümunələrindən biridir. Azərbaycan Ordusunun ən çevik və yüksək döyüş qabiliyyətinə malik bölmələrindən olan Xüsusi Təyinatlı Qüvvələrin formalaşmasında Birinci Qarabağ müharibəsinin iştirakçıları olan zabit və gizirlər fəal iştirak ediblər.

Heydər Əliyevin yaratdığı bu nümunəvi hərbi birlik döyüş qabiliyyətini durmadan təkmilləşdirib. Onun sıralarına düşmək hərbçidən fiziki güclə yanaşı, psixoloji iradəli olmaq, ekstremal şəraitlərdə düzgün qərarlar qəbul edə bilmək kimi keyfiyyətlər və bacarıqlar tələb edir. Yalnız ən çətin imtahan və sınaqlardan çıxmağı bacaranlar xüsusi təyinatlıların sıralarına qoşula bilirlər. Ötən illər ərzində xüsusi təyinatlıların şəxsi heyəti respublikamızda, Türkiyədə və başqa ölkələrdə keçirilən müxtəlif hərbi təlimlərdə ən ekstremal şəraitlərdə döyüş aparmaq baxımından peşəkarlığını sürətlə artırıb.

Azərbaycan ictimaiyyəti Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyətini əvvəlcə hərbi paradlarda görmüşdü. 2016-cı ilin aprel döyüşləri isə XTQ-nin ən yüksək döyüş qabiliyyətinə malik peşəkar hərbi birlik olduğunu yaxından nümayiş etdirmişdi. Aprel döyüşlərində düşmənin hərbi təxribatının qarşısını alan XTQ bölmələri onun çoxsaylı canlı qüvvəsini və hərbi texnikasını məhv etmişdilər.

### 44 gündə daim öndə

Vətən müharibəsində XTQ Azərbaycanın hərb tarixinə yeni qəhrəmanlıq səhifələri yazdı. XTQ bölmələri bu müharibədə döyüşdükləri bütün istiqamətlərdə öndə idilər. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bizim bütün əsas həlledici əməliyyatlarımızda xüsusi təyinatlılar ön sırada idilər.

Ümumiyyətlə, Vətən müharibəsində xüsusi təyinatlılarımızın hər bir əməliyyatı uğurla həyata keçirilib. Ən çətin yerlərdə düşmənin müdafiəsini məhz XTQ yarıb. Bunların arasında Hadrutun və Şuşanın azad olunmasını xüsusi qeyd etməliyik. Məhz Hadrutun azad edilməsi ilə hərbçilərimiz Şuşaya doğru istiqamət götürüblər. Şuşanın azad edilməsi əməliyyatı isə müasir hərb tarixinin ən maraqla qarşılanan hadisələrindən biridir. Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri Şuşanı azad edərkən elə bir hərbi peşəkarlıq ortaya qoyublar ki, ona bənzər nümunə tapmaq mümkün deyil.

Xüsusi Təyinatlı Qüvvələrin mənsubları döyüş tapşırıqlarını uğurla yerinə yetirdiklərinə görə dövlət başçısının müvafiq sərəncamları ilə "Azərbaycanın Milli Qəhrəmanı", "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adlarına layiq görülüblər, eləcə də müxtəlif orden və medallarla təltif olunublar. Ona görə Azərbaycan xalqı haqlı olaraq öz ordusu və Xüsusi Təyinatlı Qüvvələri ilə fəxr edir. "Mən sizinlə fəxr edirəm. Bütün Azərbaycan xalqı sizinlə fəxr edir. Ermənistan, Ermənistan silahlı qüvvələri Azərbaycan xüsusi təyinatlılarının adı gələndə titrəməyə başlayırlar. Onların canlarında olan bu xof bu günə qədər çıxmayıb və çıxmayacaq", - deyə Prezident İlham Əliyev bildirib.

Vətən müharibəsində Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin keçdiyi döyüş yolu yüksək hərbi peşəkarlığın, fədakarlığın və vətəni sevməyin təcəssümüdür. Ulu Öndər Heydər Əliyevin yaratdığı, İlham Əliyevin daha da gücləndirdiyi bu hərbi birliyin göstərdiyi nümunələr başqa cür ola da bilməzdi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Tarixi zəfər Heydər Əliyev siyasətinin təntənəsidir

Mayın 4-də Milli Məclisin Regional məsələlər komitəsi və Azərbaycan Şəhər, Qəsəbə və Kənd Bələdiyyələrinin Milli Assosiasiyalarının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş "Tarix yazan imza" mövzusunda videokonfrans keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, konfransda Milli Məclisin Regional məsələlər komitəsinin üzvləri, Ədliyyə Nazirliyi Bələdiyyələrlə iş Mərkəzinin, "Bələdiyyələrin Fəaliyyətinin Təbliği" İctimai Birliyinin, Azərbaycan Şəhər, Qəsəbə və Kənd Bələdiyyələrinin Milli Assosiasiyalarının nümayəndələri, həmçinin 59 şəhər, qəsəbə və kənd bələdiyyəsinin sədrləri iştirak ediblər.

Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov qüdrətli Azərbaycan dövlətinin qurucusu olan Ulu Öndərimizin əziz xatirəsinin qədirbilən xalqımız tərəfindən daima böyük ehtiramla yad edildiyini bildirib. Müasir Azərbaycan tarixində misilsiz xidmətlər göstərmiş əbədiyaşar liderimizin anadan olmasının növbəti ildönümünün 44 günlük Vətən müharibəsindən sonra ərazi bütövlüyümüzün təmin olunduğu dövrdə qeyd edildiyini konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Siyavuş Novruzov Ümummilli Lider Heydər Əliyevin əzəli torpaqlarımızın düşmən işğalından azad olunması istiqamətində apardığı ədalətli mübarizəsinin onun layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən qalibiyyətlə başa çatdırılmasından bəhs edib. Komitə sədri qazanılan tarixi zəfərin Heydər Əliyev siyasətinin təntənəsi olduğunu bildirib. Ötən əsrin 70-ci illərindən başlayaraq, Azərbaycanın müasir tarixinin bütün mərhələləri, ölkəmizdə uğurla həyata keçirilən sosial-iqtisadi və demokratik hüquqi islahatlar məhz dahi Öndərin adı ilə bağlıdır.

Tədbirdə Milli Məclisin Regional məsələlər komitəsinin sədr müavini Elşən Musayev Ümummilli Lider Heydər Əliyevin həyatı və fəaliyyəti barədə geniş məruzə ilə, komitənin üzvləri Emin Hacıyev, Məzahir Əfəndiyev "Tarix yazan imza" mövzusunda çıxış ediblər.

Videokonfransda Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi Rəhman Məmmədov, Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyasının sədri Təmraz Tağıyev, Quba bələdiyyəsinin sədri Humayə Məmmədova, Xəzər rayonunun Binə bələdiyyəsinin sədri Habil Həmidov Ümummilli Liderin rəhbərliyi ilə Azərbaycanda yerli özünüidarəetmə sisteminin yaradılmasından və bələdiyyələrə dövlət qayğısından söhbət açıblar.

Sonra onlayn konfransda mövzu ətrafında müzakirələr aparılıb.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# "Ən yaxşı təqdimat" müsabiqəsinin qalibləri mükafatlandırılıb





Mayın 4-də Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə təşkil edilmiş "Ən yaxşı təqdimat" müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbir Azərbaycan Milli Konservatoriyasının tərkibində Respublika İncəsənət Gimnaziyasının xor kollektivinin ifasında Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Tədbirdə Baş nazirin müavini Əli Əhmədov çıxış edərək bildirib ki, Ulu Öndər Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan dövləti dünyanın ən dinamik və gənc dövlətlərindən biri olmaqla yanaşı, əmin-amanlıq, vətəndaş təhlükəsizliyinin təmin olunduğu azsaylı ölkələrdən biridir. Vurğulanıb ki, Ulu Öndər Heydər Əliyevin gənclərlə bağlı həyata keçirdiyi siyasət hazırda ölkə başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ulu Öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə keçirilən tədbirlər sırasında "Ən yaxşı təqdimat" müsabiqəsinin rolunu vurğulayan Əli Əhmədov artıq ənənəyə çevrilən bu müsabiqənin gənclərin vətənpərvər ruhunda yetişməsində xüsusi rol oynadığını qeyd edib.

Baş nazirin müavini çıxışının sonunda müsabiqənin təşkilində əməyi olan bütün təhsil işçilərinə minnətdarlığını bildirib, qalib şagirdləri təbrik edib.

Təhsil naziri Emin Əmrullayev Ümummilli Lider Heydər Əliyevin təhsil sahəsinə göstərdiyi diqqət və qayğıdan danışıb. Təhsil naziri bildirib ki, Azərbaycan təhsilinin və elminin son 50 ildəki istiqaməti Heydər Əliyevin adı ilə bağlıdır. 1970-ci illərdə Heydər Əliyevin səyi nəticəsində Azərbaycanın məktəb şəbəkəsi genişləndirilib. Belə ki, hazırda Azərbaycanda 4 400 ümumi təhsil müəssisəsi fəaliyyət göstərir, ötən əsrin 70-ci illərinin əvvəllərində isə bu rəqəm 765 olub. 1970-ci illərin sonuna qədər 2117-yə çatıb.

Nazir bildirib ki, əsası Ümummilli Liderimiz tərəfindən qoyulmuş xaricdə təhsil ənənəsi ölkəmiz müstəqillik qazandıqdan sonra da uğurla davam etdirilib.

Çıxışının sonunda təhsil naziri qalibləri təbrik edərək onlara uğurlar arzulayıb.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev isə bu müsabiqənin əhəmiyyətini, gənclərin bilik və bacarıqlarının artırılmasına töhfə verdiyini qeyd edib.

Mərasimdə I yerə layiq görülmüş şagirdlərdən birinin - Bakı şəhəri 83 nömrəli məktəb-liseyin XI sinif şagirdi Altay Əlinin təqdimatı nümayiş etdirilib.

Daha sonra müsabiqə qaliblərinə diplom və qiymətli hədiyyələr təqdim edilib. "Ən yaxşı təqdimat" müsabiqəsinin nəticələrinə əsasən, 5 nəfər I, 10 nəfər II, 15 nəfər III dərəcəli diplomla, 20 nəfər isə tərifnamə ilə təltif olunub.

Tədbir bədii hissə ilə davam etdirilib.

Qeyd edək ki, müsabiqə ümumi təhsil müəssisələrinin IX-XI sinif şagirdləri arasında Təhsil Nazirliyi, Heydər Əliyev Fondu, Yeni Azərbaycan Partiyası, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi tərəfindən təşkil olunub.

# Azərbaycan xarici işlər naziri Fransa XİN-in Şərq Tərəfdaşlığı üzrə səfiri ilə görüşüb

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov mayın 3-də Fransa Respublikasının Xarici İşlər Nazirliyinin Şərq Tərəfdaşlığı üzrə səfiri Bris Rokföy ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Ermənistan arasında dövlətlərarası münasibətlərin normallaşdırılması prosesi və bu istiqamətdə atılan addımlar müzakirə edilib. Xüsusilə Brüssel görüşündən sonra əldə edilmiş razılaşmaların icra vəziyyəti barədə fikir mübadiləsi aparılıb.

Görüşdə eyni zamanda regiondakı cari vəziyyət və beynəlxalq gündəlikdə duran digər məsələlər müzakirə olunub.

# Fransa Xarici İşlər Nazirliyinin nümayəndəsi Azərbaycan ombudsmanının fəaliyyəti barədə məlumatlandırılıb

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Fransa Respublikasının Xarici İşlər Nazirliyinin Şərq Tərəfdaşlığı üzrə səfiri Bris Rokföy və Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zakari Qross ilə görüşüb.



Ombudsman Aparatından AZƏRTAC-a bildiriblər ki, S.Əliyeva qonaqlara Azərbaycan ombudsman təsisatının mandatı, insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirdiyi çoxşaxəli fəaliyyət barədə məlumat verib.

Müharibə və postmüharibə dövründə Azərbaycan ombudsmanı tərəfindən həyata keçirilən fəaliyyət, faktaraşdırıcı missiyalar, İkinci Qarabağ müharibəsi zamanı Ermənistan tərəfindən insan hüquqları və beynəlxalq humanitar hüququn norma və prinsiplərinin kobud şəkildə pozulması halları barədə danışılıb.

Görüşdə azərbaycanlı məcburi köçkünlərin Ermənistanın işğalından azad edilmiş doğma yurdlarına qayıdışı üçün dövlət tərəfindən kompleks tədbirlərin həyata keçirildiyi, bununla yanaşı, azad edilmiş ərazilərimizdə mövcud olan mina təhlükəsinin, habelə yaşayış evlərinin tamamilə dağıdılmış vəziyyətdə olmasının bir milyona yaxın məcburi köçkün əhalinin öz yurdlarına qayıtmasına əngəl yaratdığı vurğulanıb. Birinci Qarabağ müharibəsi dövründə əsir və itkin düşmüş, girov götürülmüş dörd minə yaxın soydaşımızın taleyi barədə narahatlıq qonaqların diqqətinə çatdırılıb.

Görüşdə həmçinin regionda sülhün təmin olunmasında milli insan hüquqları institutlarının rolu, mövcud vəziyyətin normallaşdırılması istiqamətində birgə əməkdaşlığın əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb.

# Şeyxülislam Allahşükür Paşazadə Avropa Şurasının "Din və sülh, din və insan hüquqları üzrə dinlərarası dialoq" mövzusunda keçirdiyi beynəlxalq konfransda iştirak edib

Avropa İttifaqının üç paytaxtından biri olan Strasburqda İtaliyanın Avropa Şurası Nazirlər Komitəsinə sədrliyi çərçivəsində dinlərarası dialoqa həsr edilmiş "Din və sülh, din və insan hüquqları üzrə dinlərarası dialoq" adlı konfrans keçirilib.



AZƏRTAC xəbər verir ki, tolerantlıq məkanı kimi tanınmış Azərbaycan konfransda Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub.



Avropa Şurası Baş katibinin müavini Byorn Berqenin moderatorluğu ilə keçirilən konfransda Avropa Şurasına üzv dövlətlərin dini rəhbərləri, eləcə də bir çox Avropa universitetlərinin din azadlığı üzrə professorları iştirak ediblər.

Tədbirdə əvvəlcə birgə foto çəkdirilib. Konfransda Avropa Şurası çərçivəsində dinlərarası dialoqun Strasburq prinsipləri ətrafında müzakirələr aparılıb, dini rəhbərlərin fikirləri dinlənilib.

Tədbirdə çıxış edən Şeyxülislam Allahşükür Paşazadə Azərbaycanın dostluq və qardaşlıq mühitində dinlərarası birgəyaşayış ənənələrinin bütün dünya üçün örnək ola biləcəyini vurğulayıb. Qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü olan "Bakı Prosesi" sivilizasiyalararası dialoqun davamlı inkişafına və multikulturalizm ideyalarının təşviqinə böyük töhfələr verir. Azərbaycanda din və məzhəb ayrı-seçkiliyinə yol verilmədən bütün dini icmalar bərabər hüquqlarla təmin olunur, dövlətin qayğı və himayəsi ilə öz ibadətlərini sərbəst şəkildə icra edirlər. Məscidlər, kilsələr, sinaqoqlar fəaliyyət göstərir, yeni məbədlər inşa edilir, ibadət ocaqlarında bərpa işləri həyata keçirilir.

Azərbaycanın dini rəhbəri bildirib ki, müqəddəs "Qurani-Kərim" yaxşılığa çağıran, xeyirli işlər görməyi buyuran və pis əməllərdən çəkindirən bir camaat olmağı bizə tövsiyə edir. Uca Rəbbin yaratdığı ən böyük dəyər olan insan həyatının xilası qanunların, mənəviyyatın və ədalətin aliliyi ilə mümkündür. Bəşəriyyətə təhdid olan amillərin reallaşmasına və böhranların dərinləşməsinə, beynəlxalq hüquq normalarına riayət olunmamasına, insan hüquqlarının pozulmasına, ikili standartların tətbiqinə, qəbul edilən qərarların yerinə yetirilməməsinə təəssüfünü bildirərək, bütün bunların dünyada sülhün təmin olunmasında BMT-nin həlledici rolunun azalması ilə əlaqədar olduğunu deyib. Vurğulayıb ki, dünya ictimaiyyəti milli, irqi, dini zəmində dözümsüzlüyə yox deməli, tolerantlığı həyat tərzi kimi qəbul etməlidir.

Azərbaycanda din və məzhəb ayrı-seçkiliyinə yol verilmədən bütün dini icmalar bərabər hüquqlarla təmin olunur, dövlətin qayğı və himayəsi ilə öz ibadətlərini sərbəst şəkildə icra edirlər. Məscidlər, kilsələr, sinaqoqlar sərbəst fəaliyyət göstərir, yeni məbədlər inşa edilir, ibadət ocaqlarında bərpa işləri həyata keçirilir", - deyə Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri ölkəmizdəki tolerantlıq mühitindən, müxtəlif xalqların mehriban birgə yaşayışından söz açıb. 30 ilə yaxın müharibə dəhşətləri və qaçqın fəlakətləri yaşamış Azərbaycanın Ermənistanla uzun sürmüş münaqişəyə artıq son qoyduğunu diqqətə çatdıraraq, iki ölkə və xalq arasında davamlı sülhün və birgəyaşayışın bərqərar olması istəyimizdən danışıb. Qeyd edib ki, Azərbaycan bu istiqamətdə öz güclü iradəsini nümayiş etdirir. Ölkəmizdəki müxtəlif dini konfessiyaların liderlərinin adından bildirib ki, "nəcib məqsədlərə xidmət edən bu prosesi tam şəkildə dəstəkləyir və ona öz töhfəmizi verməyə hər zaman hazırıq", - deyə Şeyxülislam qeyd edib.

Bu il üç səmavi dinin müqəddəs bayramlarının - xristianların Pasxası, yəhudilərin Pesaxı, müsəlmanların isə müqəddəs Ramazan ayının aprel ayına təsadüf etdiyini deyən Şeyxülislam Allahşükür Paşazadə vurğulayıb ki, bu, Uca Yaradanın bütün iman gətirənlərə böyük lütfüdür, xalqlara və insanlara göndərdiyi sülh və həmrəyliyə dəvətdir.

Dünyada baş verən münaqişələrə toxunan Qafqaz Müsəlmanlar İdarəsinin sədri Ukraynada yaşanan humanitar fəlakətin hər kəsi narahat etdiyini bildirərək deyib ki, müasir dövrümüzdə təcavüzə və zorakılığa təhrik edən nifrət çağırışları bəşəri təhlükəyə çevrilərək ağır cinayətlərə gətirib çıxarmaqdadır. Dini zəmində qarşıdurmaya təşviq edən nifrət çağırışlarının əyani sübutu son günlərdə İsveç və Danimarkada müqəddəs "Qurani-Kərim" kitabının yandırılması cəhdləridir. "Biz bunu çirkin əməl kimi qınayır, söz azadlığı və din pərdəsi altında hər hansı radikalizm təzahürlərini, eləcə də ksenofobiya, antisemitizm, islamofobiya və xristianofobiyanı, xüsusilə də dinlərin müqəddəs məkanları, dəyərləri və atributlarının təhqir olunması hallarını qətiyyətlə pisləyirik. Bu mövqenin beynəlxalq təşkilatların kürsüsündən, Avropa Şurası platformasından təbliği vacibdir. Qəbul edilməlidir ki, təhlükə dindən deyil, dinin siyasiləşdirilməsi, din adından siyasi məqsədlər üçün sui-istifadə olunmasından gəlir. Din və siyasət xadimlərinin sülh naminə beynəlxalq platformalarda birgə əməkdaşlığı zamanın tələbidir. Zati-Müqəddəsləri Roma Papası Fransiskin bununla əlaqədar dünya birliyinə etdiyi çağırışına hamımız qoşulmalıyıq: "...bəsdir, dayanın, silahlar sussun, sülh işi ilə məşğul olaq!" Ümidvaram ki, bu təşəbbüslər beynəlxalq müstəvidə qarşılıqlı anlaşma mühitinin möhkəmlənməsinə xidmət edəcəkdir, İnşallah!", - deyə QMİ sədri vurğulayıb.

Çıxışını Allahın kəlamı ilə bitirən Şeyxülislam deyib: "Həqiqətən, iman gətirənlər qardaşdırlar!" (Hucurat, 10). Qardaşların məqsədi isə İlahi Nurun ardınca getmək və İlahi Sözü təbliğ etməkdir". Uca Yaradan bəşəriyyətə sülh bəxş etsin! AMİN!

Şeyxülislam Allahşükür Paşazadə dinlərarası dialoqa dair növbəti konfransın tolerantlıq məkanı olan Azərbaycanda keçirilməsini təklif edib.

Qeyd edək ki, konfransda dünyanın 15 ölkəsindən 20 dini rəhbər və dinlərarası dialoq üzrə 60-dan çox iştirakçı olub.

Konfransda Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü olan "Bakı Prosesi" haqqında məlumat verilib, eləcə də ölkəmizdə tolerantlıq mühitindən bəhs edilib. Azərbaycanın dostluq və qardaşlıq mühitində dinlərarası birgə yaşayış ənənələrindən söz açılıb. Vurğulanıb ki, Azərbaycanda din və məzhəb ayrı-seçkiliyinə yol verilmədən bütün dini icmalar bərabər hüquqlarla təmin olunur, dövlətin qayğı və himayəsi ilə öz ibadətlərini sərbəst şəkildə icra edirlər.

Həmçinin konfransda xristian, yəhudi dinlərinin dini rəhbərləri, eləcə də din və vicdan azadlığı üzrə professorlar dinlərarası dialoqun əhəmiyyətinə toxunaraq, bugünkü təlatümlü dünyada həmişəkindən daha çox dinlərarası dialoqun inkişafına və təşviqinə ehtiyac olduğunu bildiriblər.

Sonda konfrans iştirakçıları dinlərarası dialoq üzrə Strasburq prinsiplərinə dəstəklərini ifadə etdilər.

Dinlərarası dialoq üzrə növbəti konfransın Azərbaycanda keçirilməsi təklifi irəli sürülüb.

# Müdafiə Nazirliyi Xəzər dənizinin Azərbaycan sektorunda aşkarlanmış obyektlər barədə məlumat yayıb

"Umıd babek operatıng company" əməliyyat şirkətinin Azərbaycan Respublikasındakı filialı tərəfindən Xəzər dənizinin Azərbaycan sektorunda aparılan ərazi kəşfiyyatı zamanı suyun 60 metrədək dərinliyində naməlum obyektlər aşkar edilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dənizin keçmiş SSRİ dövründə tral gəmilər birləşmələrinin poliqonu kimi istifadə edilən akvatoriyasına cəlb olunan Hərbi Dəniz Qüvvələrinin aidiyyəti üzrə gəmiləri və ixtisaslaşdırılmış mütəxəssisləri tərəfindən keçirilən baxış zamanı aşkarlanmış obyektlərin keçmiş SSRİ dövründə minalanma standartlarına tam əməl edilmədən suya atılmış altı ədəd böyük gəmi minası (KB-1) olması müəyyən edilib.

Aşkarlanmış minaların bu il mayın 9-dan etibarən hava şəraitindən asılı olaraq təhlükəsizlik tədbirlərinə əməl edilməklə digər dövlət qurumları ilə qarşılıqlı əlaqədə zərərsizləşdirilməsi və axtarış tədbirlərinin davam etdirilməsi planlaşdırılıb.

Minaların aşkarlandığı ərazi təhlükəsizlik məqsədilə gəmi sürücülüyü üçün müvəqqəti bağlanılıb. Xəzər dənizinin Azərbaycan sektorunda mülki təyinatlı işlər adi qaydada davam etdirilir.

# İŞİMİZ, GÜZƏRANIMIZ




**Qədim neft diyarı Azərbaycan artıq dünyada özünü qaz hasilatçısı və ixracatçısı kimi də təsdiq edib. Həm də Azərbaycan qazına tələbat getdikcə artır. İxracın mənbəyi əsasən "Şahdəniz" olsa da, hazırda işlənən digər yataqların da yaxın illərdə istismara daxil ediləcəyi bu sahədə ölkəmizin qarşısında yeni perspektivlər açır.**

# Avropanın Azərbaycan qazına tələbatı artır

## Bu tələbatı ödəməyin yollarından biri TAP-ın genişləndirilməsidir

Qısaca desək, Azərbaycan qazının bu gününə və sabahına maraq böyükdür. Təsadüfi deyil ki, cari il aprelin 29-da ADA Universitetində keçirilən "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda Prezident İlham Əliyevə həmçinin bu mövzu ilə bağlı bir sıra suallar ünvanlandırılıb. Dövlət başçısı qaz məsələsinə dair mövqeyimizi ifadə edərək deyib: "Biz bütün öhdəliklərimizi yerinə yetirmişik. İstehlakçılarla imzalanan müqavilələr üzrə işlər yüz faiz yerinə yetirilir. Bu gün Azərbaycan qazı Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan və İtaliyaya ixrac olunur. Keçən il İtaliya Türkiyə ilə birlikdə Azərbaycan qazını ən böyük həcmdə alan ölkə olub. Bu, 9 milyard kubmetrdən artıq idi. Biz, əlbəttə ki, mövcud müqavilələr əsasında qaz inkişafı layihələrimizi planlaşdırırıq. Hazırkı müqavilələrdə bu qədər həcm nəzərdə tutulub."

Lakin alıcı, yəni tələbat olarsa, ilk növbədə mənbələrə baxılmalıdır. Çünki hazırda ölkəmizin qaz istehsalının həcmi daxili bazar və ixrac üçün hesablanıb. Prezident İlham Əliyev Azərbaycana təkcə İtaliyadan deyil, digər Avropa ölkələrindən də təchizatın artırılmasına dair müraciətlər daxil olduğunu qeyd edərək bildirib:" İlk növbədə bizə mənbələri tapmaq lazımdır. Bu qismən daxildə qaz itkilərinin optimallaşdırılması hesabına olacaq. Bir hissəsi təbii qazın günəş və külək enerjisi ilə əvəz edilməsi olacaq, digər hissəsi isə yeni hasilat hesabına olacaq. Biz yeni yataqlardan hasilatı gələn il üçün gözləyirik. Artıq "Abşeron" yatağında 1,5 milyard kubmetr əlavə qaz var. Digər yataqlardan da gözləntilərimiz var. Əlbəttə, bunun tərkib hissəsi olan qaz kəmərlərinin ötürücülük qabiliyyəti də önəmlidir. "Cənub qaz dəhlizi" qaz kəmərləri sisteminə inteqrasiya olunub."

Belə ki, TANAP-ın (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) diametrlərinin ölçüləri bir-birindən fərqlənir. TANAP 30 milyard kubmetr, TAP isə 10 milyard kubmetr illik ötürücülük gücünə malikdir. Bu, bazara görə müəyyənləşib. Yəni Azərbaycan İtaliyaya 8 milyard kubmetr qaz ixrac etməli idi. Yaxın vaxtlarda əlavə qazın gələcəyi gözlənilmədiyindən TAP-ın layihəsi fərqli olub.

Bəs TAP-ın imkanlarını genişləndirmək olarmı? Bəli, nasos stansiyalarının sayını artırmaqla, bu mümkündür. Kəmərin ötürücülük gücü 20 milyard kubmetrə çatdırıla bilər. Beləliklə, İtaliyanın bu gün aldığından iki dəfə çox mavi yanacaq alması mümkündür. Bu məqsədlə TAP komandası bir araya gəlməlidir. Kəmərin səhmdarları onu necə genişləndirməyə dair əlavə sərmayə proqramına razılıq verməli və texniki cəhətdən buna baxılmalıdır. Lakin bu təcili, məsələn, bir ay ərzində görülə biləcək bir iş deyil.

Eyni zamanda başqa bir yol da birləşdirici şəbəkələrə sahib olmaqdır. Buna misal kimi, hazırda tikintisi son mərhələdə olan Bolqarıstanla Yunanıstan arasındakı interkonnektor göstərilə bilər. Avropanın qaz tədarükü şəbəkəsini birləşdirəcək digər layihələr də mövcuddur və bunların hamısı proqramda var.

Sözügedən konfransda iştirak edən romalı tədqiqatçının:"İtaliyanın qazdan asılılığı məsələsində Azərbaycan ən azından müəyyən qədər də olsa, qaz tədarükündə Rusiyanı əvəz edə bilərmi? Ukrayna məsələsindəki qanuni mövqeyimizə görə biz güclü şəkildə Rusiya qazından canımızı qurtarmağı çox istəyirik. Əgər bu, baş verərsə, Azərbaycan-Rusiya münasibətlərinə necə təsir edə bilər?" suallarının cavabında isə Azərbaycan Prezidenti deyib: "Biz heç bir zaman Rusiya qazını əvəz etməyi planlaşdırmamışıq. Bu, həcmlərin fərqinə görə mümkün deyil. Bizim Avropa bazarları uğrunda yarışmaq niyyətimiz yoxdur. Biz, sadəcə, Avropa bazarına çıxış istəmişik. Çünki o ən yaxşısıdır. O, qaydalarla tənzimlənir. O sabitdir və ən yüksək qiymət olan bazardır. Bu gün biz müxtəlif istehlakçılara qaz tədarük edirik. Ən yaxşı qiymət Avropadadır. Bu kommersiyadır. Biz heç vaxt Rusiya ilə yarışmaq niyyətində olmamışıq. Bizim enerji siyasətimiz heç bir zaman Rusiya tərəfindən sual doğurmayıb. Bizim heç vaxt heç bir formada sualımız, müzakirəmiz olmayıb. Əminəm ki, bu, bizim Rusiya ilə münasibətlərimizə mənfi təsir göstərməyəcək."

Konfrans iştirakçılarından birinin sualı isə belə idi:"Sülhün bərqərar olması mexanizmi kimi Ermənistana və Qarabağa neft və qazın nəqli məsələsi gündəmdədirmi?"

Məlum olduğu kimi, Qarabağa neft və qazın nəqlinə hələ başlanmayıb. Əlbəttə, Qarabağın hazırda yenidənqurma işləri apardığımız hissəsində qaz xətlərinin inşası plandadır. İndi orada elektrik stansiyaları inşa edilir.

Sualın cavabında o da bildirildi ki, Ermənistandan Xankəndiyə gedən qaz xətti bizim nəzarətimizdə olan ərazidən keçir. Bu yaxınlarda orada qəza baş vermişdi və bir neçə gün ərzində qazın nəqlində fasilə yaranmışdı. Təəssüf ki, Azərbaycanı dərhal orada humanitar fəlakətə səbəb olmaqda ittiham etdilər. Yeri gəlmişkən, qeyd edək ki, bu, daha bir ikili standartdır. Çünki Birinci Qarabağ müharibəsi başlayanda ermənilər Azərbaycanın əsas ərazisindən Naxçıvana gedən qaz xəttini kəsdilər və 15 il ərzində o zaman 400 min əhalisi olan Naxçıvan təbii qazsız yaşadı.

Dövlətimizin başçısı sözügedən suala cavabın yekununda deyib: "Mən bilmirəm, gələcəkdə necə olacaq? Bizim enerji ehtiyatımızdan istifadəyə ehtiyac yaranarsa, bu, daha rahat ola bilər. Çünki Ağdamdan Xankəndiyə qazın nəqli daha ucuz başa gələr, nəinki həmin qazın Rusiyadan Gürcüstana, oradan Ermənistana və daha sonra isə Azərbaycana, Xankəndiyə nəqli. Yəni belə bir müraciət olsa, biz onu nəzərdən keçirərik."

Konfransda 10 il müddətində regionun hansı hal ala biləcəyi və Azərbaycanın Cənubi Qafqaza töhfəsi ilə bağlı söhbət gedəndə də nəhəng neft-qaz kəmərlərimizin adı çəkildi. Belə ki, ölkəmiz regional enerji və nəqliyyat layihələrinin müəllifi olaraq artıq Azərbaycan, Türkiyə və Gürcüstan arasında üçtərəfli əməkdaşlıqda mühüm rol oynayıb. Bu da o öz növbəsində geniş Avropa əməkdaşlığı üçün təməl olub. Məsələn, əgər 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri istifadəyə verilməsəydi, bu gün Avropanın enerji təhlükəsizliyi qat-qat zəif olardı. Çünki BTC olmasa, qaz kəməri inşa edilməyəcəkdi.

İndi ölkəmiz yenə də mühüm layihələr reallaşdırmaqdadır. Odur ki, Prezident İlham Əliyev deyib: "Azərbaycana gəldikdə, hesab edirəm ki, 10 il müddətində, əlbəttə ki, biz qat-qat güclü olacağıq. Mən ümid edirəm ki, o vaxta kimi və bəlkə, hətta ondan da əvvəl Ermənistanla olan bütün bu anlaşılmazlıqlar və problemlər öz həllini tapacaqdır. Cənubi Qafqaz regionu möhkəm şəkildə inteqrasiya edəcək və üç Cənubi Qafqaz ölkəsi arasında sıx əməkdaşlıq olacaqdır. Bunun üçün imkanlar mövcuddur. Beləliklə, layihələrin müəllifi və əlbəttə ki, Cənubi Qafqazda artmaq üçün böyük potensialı olan, böyük iqtisadiyyatı olan ölkə kimi".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Vətən müharibəsi əlillərinə daha 50 avtomobil təqdim edilib

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə mayın 2-də Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün yeni yaşayış kompleksinin açılışı tədbirində Vətən müharibəsi əlilləri üçün nəzərdə tutulan "Xəzər" markalı 50 avtomobil artıq müharibə əlillərinə təqdim olunub.

Avtomobillərin təqdim edilməsi zamanı Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində əldə etdiyi Zəfərimizdən bəhs olunub.

Dövlət başçısının göstərişi ilə şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı geniş sosial dəstək proqramının icra olunduğu bildirilib. O cümlədən postmüharibə dövründə 3500, ötən dövrdə 12500-dən çox şəhid ailəsi və müharibə əlilinin mənzillə təmin olunduğu diqqətə çatdırılıb.

Vətən müharibəsinin 200 hərbçisinin, ümumilikdə 300 müharibə əlilinin son nəsil protezlərlə, 1400 müharibə əlilinin 17 min reabilitasiya vasitəsi ilə təmin olunduqları qeyd olunub. Həmçinin 5 min ailəyə sosial-psixoloji, 1500 şəxsə reabilitasiya xidmətləri göstərildiyi, 11 min şəxsin aktiv məşğulluq proqramlarına cəlb edildiyi bildirilib.

Vətən müharibəsi əlillərinin avtomobillə təminatı işlərinin davamı kimi, onlardan daha 50 nəfəri avtomobillə təmin edilib. Ümumilikdə nazirlik tərəfindən ötən dövrdə müharibə əlillərinə 7400 minik avtomobili verilib.

Müharibə əlilləri onların sosial müdafiəsinin gücləndirilməsi üçün aparılan işlərdən razılıqlarını bildirib və yüksək qayğı ilə əhatə olunduqlarına, yeni avtomobillərlə təmin edildiklərinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

## Sumqayıt Kimya Sənaye Parkında yeni istehsal sahəsi yaradılır

İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkında yeni rezident - "Çinar-Servis" İKF qeydiyyata alınıb. Sənaye parkının rezidentlərinin sayı 28-ə çatıb.

"Çinar-Servis" İKF Sənaye parkının 1,5 hektar ərazisində sıxılmış azot, oksigen, arqon və maye helium qaz məhsullarının istehsalı ilə məşğul olacaq.

İnvestisiya həcmi 13,3 mln. manat olan layihə çərçivəsində 70 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur.

İstehsal olunan məhsulların daxili bazara satılmaqla yanaşı, xarici ölkələrə də ixracı planlaşdırılır.

## Bakı-Quba yolunda əsaslı təmir-bərpa işlərinə başlanılıb

Vətəndaşların rahat gediş-gəlişinin təmin olunması məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunda əsaslı təmir-bərpa işlərinə başlanılıb.

Təmir-bərpa işləri magistral yolun 88-ci kilometrliyindən başlayaraq Bakı şəhəri istiqamətində aparılır. Aparılan işlər zamanı yolun hərəkət hissəsinin deformasiyaya uğramış və dağılmış hissələri, həmçinin yol əsasının yararsız qruntu qazılaraq çıxarılır. Daha sonra isə yeni yol əsasının tikintisi aparılacaq. Bu işlər yekunlaşdıqdan sonra yola yeni asfalt-beton örtüyü döşənəcək.

Təmir-bərpa işləri ilə sözügedən yolboyu avtonəqliyyat vasitələrinin rahat və təhlükəsiz hərəkətinə maneə yaradan problemlər tam olaraq aradan qaldırılacaq.

Avtomobil yolunda hərəkət intensivliyi nəzərə alınaraq işlər hissə-hissə aparılır. İşlərin aparıldığı ərazidə avtonəqliyyat vasitələrinin hərəkəti tam olaraq məhdudlaşdırılıb. Təmir-bərpa işləri aparılan müddət ərzində əks istiqamət üzrə avtonəqliyyat vasitələrinin ikitərəfli hərəkəti təmin edilib.

## Repatriasiya edilmiş şəxslərə fərdi sosial-psixoloji yardım xidməti göstərilir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi İraq və Suriyadan repatriasiya olunmuş hər bir şəxslə bağlı qiymətləndirmə əsasında sosial reabilitasiya planı hazırlayıb.

Səyyar formada həyata keçirilən psixoloji konsultasiyalar zamanı travma sonrası müşahidə olunan əlamətlərin kəskinliyi qiymətləndirilir. Nəticəsinə uyğun olaraq həm repatriasiya edilmiş uşaqlar, həm də ailə üzvləri ilə psixoloji və sosial-psixoloji dəstək işləri aparılır.

Aprel ayı ərzində artıq 20 ailəyə səfərlər edilib və 46 nəfəri uşaq olmaqla ümumilikdə 57 repatriantla 62 seans həyata keçirilib.

2018-ci ilin avqust ayından etibarən Azərbaycan vətəndaşları mərhələli şəkildə repatriasiya edilirlər. Həmin şəxslərin reabilitasiya və reinteqrasiyası aidiyyəti dövlət qurumları ilə birgə həyata keçirilir.

# Azərbaycanda investisiya üçün yeni imkanlar yaranıb

**Azərbaycan dünyada münbit investisiya mühitinə malik olan ölkələrdən sayılır. Bunun əsas səbəbi ölkəmizdə xarici sərmayənin qanunla qorunmasının mükəmməl hüquqi bazasının olmasıdır. Odur ki, yabançı sərmayədarlar Azərbaycana vəsait qoyulmasına xüsusi maraq göstərirlər.**

Məlum olduğu kimi, dünya iqtisadiyyatına böyük zərbə vuran koronavirus pandemiyası ucbatından hər yerdə kapital qoyuluşu kəskin şəkildə azalıb. Rusiya-Ukrayna müharibəsi də dünyada sərmayə qoyuluşuna mənfi təsir göstərən faktorlardandır.

Azərbaycan dövlətinin investisiya siyasəti davam edir və bu, iki əsas istiqamətdə özünü göstərir. Birincisi, ölkəyə daha çox xarici sərmayə cəlb edilməsi, ikincisi isə, daxili mənbələr hesabına iqtisadiyyatın kapitallaşdırılmasıdır. İndiki çətin şəraitdə iqtisadiyyatımızın investisiyalaşdırılması üçün daxili mənbələrə daha çox üstünlük verilir. Dövlət Statistika Komitəsinin verdiyi məlumat da bunu təsdiqləyir. Belə ki, cari ilin yanvar-mart aylarında daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin dəyəri ümumi sərmayənin 68,7 faizini təşkil etmişdir. Hesabat dövründə yatırılan ümumi sərmayənin 37,5 faizi dövlət, 62,5 faizi qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulmuşdur.

Dövlət Statistika Komitəsindən verilən məlumatda həmçinin qeyd edilir ki, cari ilin ilk 3 ayında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün mənbələrindən əsas kapitala 2 milyard 440,7 milyon manat və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,5 faiz az vəsait yönəldilmişdir. Bu dövrdə neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 28 faiz azalsa da, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 10,1 faiz artmışdır. Yatırılan ümumi sərmayənin 1 milyard 524,7 milyon manatı məhsul istehsalı sahələrinin, 743,2 milyon manatı xidmət sahələrinin, 172,8 milyon manatı isə yaşayış evlərinin tikintisinin payına düşmüşdür.

Hesabat dövründə əsas kapitala yönəldilmiş vəsaitdə müəssisə və təşkilatların vəsaitləri 1 milyard 508,9 milyon, büdcə vəsaitləri 599,7 milyon, bank kreditləri 42 milyon, əhalinin şəxsi vəsaitləri 198,6 milyon, sair vəsaitlər 91,5 milyon manat təşkil etmişdir.

Cari ilin yanvar-mart aylarında ölkə iqtisadiyyatının əsas sahəsi olan neft-qaz sektoruna 998,2 milyon manat vəsait yönəldilmişdir. Qeyri neft-qaz sektorunun inkişafına sərf edilmiş 1 milyard 442,5 milyon manat vəsaitin 195,7 milyon manatından qeyri neft-qaz sənayesində istifadə edilmişdir. Həmin dövrdə əsas kapitala yönəldilmiş ümumi vəsaitin ən çoxu sənaye, nəqliyyat, tikinti, kənd təsərrüfatı və s. sahələrdə istifadə olunmuşdur.




Azərbaycanda xarici sərmayənin qorunması sayəsində ölkəyə xarici sərmayə qoyuluşu fasiləsiz şəkildə davam edir. Cari ilin birinci rübündə xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 764 milyon manat vəsait yönəldilmişdir. Xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilmiş sərmayənin 747,5 milyon manatı Birləşmiş Krallıq, ABŞ, Yaponiya, İsveçrə, Türkiyə, Norveç, Malayziya, Hindistan, Rusiya və İran biznesmenlərinə məxsusdur.

Azərbaycanda yerli və xarici sərmayədarlar üçün yeni imkanlar açılıb. Belə ki, dövlət işğaldan azad edilən ərazilərdə fəaliyyət göstərmək istəyən sahibkarlara böyük güzəştlər edir. Bunun nəticəsidir ki, hazırda bu yerlərdə işləmək istəyən mindən çox sahibkar tərəfindən dövlət qurumlarına müraciət olunub. Müraciət edən şirkətlərin 300-dən çoxu xarici sahibkarlara məxsusdur.

İşğaldan azad edilən ərazilərdə investisiya qoyuluşunda cəlbedici sahələrdən biri də enerji sektorudur və bu istiqamətdə də dövlət qurumlarına çoxlu müraciətlər olur. Prezident İlham Əliyev birinci rübün yekunlarına həsr olunmuş müşavirədə bu barədə demişdir: "Yaxşı olar ki, bu məsələ ilə maraqlanan sahibkarlar üçün qalan stansiyaların yerləri ilə bağlı xüsusi bir təqdimat keçirilsin, təkcə ermənilər tərəfindən dağıdılmış stansiyalardan söhbət getmir. Hazırda, xüsusilə Kəlbəcər, Laçın rayonlarında külək-elektrik stansiyalarının tikintisi ilə bağlı xarici şirkətlər bizə müraciət edirlər. Əgər xarici şirkətlər üçün bu maraqlıdırsa, deməli, burada mənfəət olacaq. Yerli şirkətləri də cəlb etməliyik, ya xarici şirkətlə birlikdə, ya da ayrı-ayrılıqda. Cəbrayıl, Zəngilan rayonlarında günək-elektrik stansiyalarının potensialı həddindən artıq böyükdür. Yəni bütün bunlardan biz səmərəli şəkildə istifadə etməliyik".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***









## 5 May Əlillərin Hüquqlarının Müdafiəsi Günüdür

# Həyata dönüşün ünvanı

Sağlam doğulmaq, sağlam yaşamaq hər birimizin arzusudur. Lakin bu istək bizdən asılı olan və olmayan səbəblər ucbatından heç də həmişə reallaşmır. Fiziki məhdudiyyət bəzən doğuşdan, əksər hallarda isə sosial, iqtisadi problemlərdən və ya qəzalardan yaranır. Əlillik insan üçün normal hesab edilən bir sıra fəaliyyətləri yerinə yetirmək qabiliyyətinin olmaması və ya hər hansı bir məhdudiyyətin olmasıdır. Həyatın bu acı sınağı ilə üzləşmiş insanlara isə diqqət və qayğı göstərilməli, cəmiyyətə uğurlu inteqrasiyaları üçün işlər görülməlidir. Bu zaman təkcə ayrı-ayrı fərdlərin təşəbbüsləri, xeyirxah əməlləri kifayət etmir, dövlətin, onun qurumlarının dəstəyi əvəzolunmazdır. Nə xoş ki, bir çox sahələrdə olduğu kimi, Azərbaycan burada da nümunədir.



Dövlətimiz xüsusi qayğıya ehtiyacı olan insanların həmişə yanında olub, onlara ən yüksək səviyyədə diqqət və qayğı göstərilib, problemlərinin həlli üçün bütün gərəkli addımlar atılıb.

2019-2021-ci illərdə Yevlax, Naftalan, Lənkəran, Şəki, Xaçmaz, Şirvan, Sumqayıt şəhər və rayonlarında reabilitasiya mərkəzləri, Mərdəkanda Reabilitasiya Pansionatı, Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi, Şağan Reabilitasiya Pansionatı, Qəbələ Uşaq Reabilitasiya Mərkəzi istifadəyə verilib. Bu il isə Şəmkir rayonunda Uşaq Reabilitasiya Mərkəzinin açılması nəzərdə tutulur. Son illərdə, xüsusilə də İkinci Qarabağ müharibəsindən sonra qazilərimiz üçün müasir tələblərə cavab verən reabilitasiya infrastrukturunun yaradılması bu kompleks yanaşmanın növbəti təzahürüdür.

Yeni reabilitasiya müəssisələrinin açılması nəticəsində hər il reabilitasiya xidmətləri ilə təmin edilənlərin sayı üç dəfə artaraq 30 minə çatıb. Ötən il 8716 şəxs reabilitasiya vasitələri ilə təmin olunub ki, onlardan 1200 nəfəri ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərdir. Bu dövrdə reabilitasiya müəssisələrində 9325 nəfərə müxtəlif xidmətlər göstərilib. Postmüharibə dövründə 187 qazi 197 yüksəktexnologiyalı protez ilə təmin edilib.

Fiziki məhdudiyyətli şəxslərə yardım edən mərkəzlərdən biri də Şağan Reabilitasiya Pansionatıdır. Bu mərkəz Ulu Öndər Heydər Əliyevin himayəsi ilə 2003-cü ildə istifadəyə verilib. Abşeronun iqliminə xas olan klimoterapiya bu müalicə ocağının əsas özəlliklərindən biridir. Mərkəzdə pasiyentlər mövsümə uyğun iqlimlə müalicə imkanları ilə yanaşı, fizioterapiyanın bütün sahələri ilə təmin ediliblər. Mərkəzdə ötən il əsaslı təmir işləri görülüb. Dövlət başçısının iştirakı ilə 2021-ci il fevralın 25-də açılışı olan Şağan Reabilitasiya Pansionatında ən müasir tələblərə uyğun şərait yaradılıb.

Pansionatda Vətən müharibəsi zamanı yaralanan döyüşçülərə yüksək səviyyədə xidmət göstərilir. Bu il ərzində 100-ə yaxın Vətən müharibəsi iştirakçısına peşəkar reabilitasiya və sosial-psixoloji xidmətlər göstərilib. Bu insanların normal həyata bərpası, sosiallaşması və sağlamlıqlarına qovuşmaları üçün bütün tibbi personal səfərbərdir.

Digər kateqoriyadan olan insanlar, 18 yaşdan yuxarı yaşdakı əlillərə kompleks halda tibbi, sosial-bərpa müalicəsi göstərilir, hər biri həm stasionar, həm də ambulator şəkildə müalicə kursu alır. Ən yeni avadanlıqlarla təchiz edilmiş mərkəzdə elektroterapiya, termoterapiya, hidroterapiya, su hovuzu, masaj, parafin otaqları, müalicəvi bədən tərbiyəsi zalı onların ixtiyarındadır. Otaqlarda traksiya aparatı, çiyin, dirsək, diz oynaqları üçün lakomatlar, kombinə olunmuş elektroterapiya, maqnitoterapiya, limfadrenaj aparatları yerləşdirilmişdir.









Pansionatın rəhbəri Təranə Quliyeva bildirdi ki, müəssisədə 11 həkim, 3 fizioterapevt, 26 tibb bacısı fəaliyyət göstərir. Ümumilikdə, 128 palatası olan 250 çarpayılıq pansionat ildə 5 minə yaxın əlilliyi olan şəxsə effektiv təsirə malik fizioterapevtik müalicə prosedurları tətbiq etməklə reabilitasiya xidmətləri göstərir. Bu ilin ilk rübündə 561 nəfər əlilliyi olan şəxs reabilitasiya xidmətləri, 146 nəfər icma, 179 nəfər onlayn, 66 nəfər isə sosial-psixoloji xidmətlərlə təmin edilib. Ölkədə ən iri reabilitasiya müəssisəsi olan Şağan Reabilitasiya Pansionatında funksional diaqnostika, fizioterapiya müalicəsi, tibbi vannalar, müalicəvi bədən tərbiyəsi, sosial-psixoloji reabilitasiya xidmətləri göstərilsə də, burada, həmçinin ürək, qan-damar, oynaq-hərəkət, əsəb sistemi, endokrin xəstəliklərdən əziyyət çəkənlər üçün də müvafiq müalicələr nəzərdə tutulub. Müalicə alanların reabilitasiyasında müasir metodika, ən qabaqcıl texnologiyanın tətbiqi ilə paralel təşkil olunur. Müalicə müddəti 14-21 gündür. Xəstələr ehtiyac duyduqda 3 ay fasilədən sonra yenidən müraciət edə bilərlər. Stasionar müalicə bitdikdən sonra 14 gün də ambulator müalicə dövrü başlayır.

Müəssisənin tibbi reabilitasiya şöbəsinin müdiri və terapevti Məlahət Cəfərova deyir ki, sonuncu yenidənqurmadan sonra hər şeyin yüksək səviyyədə olmasından hər kəs, xəstələr də, tibb heyəti də məmnundur: "Palatalar, həkim otaqları yenilənib. Təmir zamanı hər məqam nəzərə alınıb. Hər xəstəliyin özünəməxsus müalicə yolları və üsulları var. Hər xəstə burada bəlli müddət qala bilir. Onlarla sonrakı dövrdə də əlaqə kəsilmir, mütəxəssislər qarşılıqlı, birlik şəklində fəaliyyət göstərir və üstəlik, hər bir həkim digərinin müalicə prosesində iştirak edir. Burada ambulator xidmət də göstərilir".

Elə terapevt kabinetində Tamamyaralı Cəfərova ilə söhbət etdik. 1997-ci ilin yayında Tovuzun Qoşa kəndində inək otaranda minaya düşüb və sol ayağını itirib. İndi protez taxır. İllər keçsə də, buradakı müalicələr, prosedurlar sayəsində ayağa qalxıb yerisə də, yaddaş yarası sağalmır. Amma bu xanım həyatdan küsməyib. Qədim sənətlərimizdən olan tikməyə meyil salıb, dərdini onunla ovudur. Hətta sərgilərdə iştirak edir, kitablar yazır. Deməli ki, həyata tutunmağın bir yolunu bunda tapıb.











Mərkəzdə pasiyentlərə fizioterapiya və preparat müalicəsi ilə yanaşı, sosial-psixoloji reabilitasiya dəstəyi də göstərilir. Bu, xüsusilə gənclər üçün çox önəmlidir. Pansionata daxil olan hər şəxs ilkin psixoloji diaqnostikadan keçirilir, müvafiq seanslar təyin edilir. Hərbçilərin, qazilərin əmin-amanlıq dövrünə adaptasiyası üçün bu çox önəmlidir. Bu cür şəxslərdə, adətən, posttravmatik əsəb pozuntusu yaranır ki, problemin həlli səriştəli mütəxəssis köməyi, xüsusi enerji və vaxt tələb edir.

Vətən müharibəsi əlili 32 yaşlı Ülvi Məmmədov topçu olub, Ağdamda xidmət edib. Qapalı beyin-kəllə travması, sol diz, qol və sağ bel nahiyəsindən ciddi yaralar alıb. Deyir ki, dövlətimizin qayğısı, həkimlərimizin səyləri ilə sağalıb, normal həyatına qayıtmaq istəyir. Yaradılmış şəraitdən, tibb işçilərinin qayğısından razılıq edir.

Vətən müharibəsi əlili 20 yaşlı Kainat Qurbanov isə əmək terapiyası ilə də müalicə alır. O, Kəlbəcər uğrunda gedən döyüşlərdə iştirak edib. 2020-ci ilin oktyabrında yaralanıb. Həmin günü belə xatırlayır: "Mən də topçu idim. Ətrafdakı dəhşətli gurultuya artıq alışmışdıq. Birdən yanımızda gurultu qopdu. Döyüş yoldaşım Sadiq Məmmədov şəhid oldu. Mən və digər üç silahdaşım ağır yaralandıq. Xəstəxanada özümə gəldim. Sol gözümə protez qoyulub. Hazırda başımda və boynumda qəlpələr qalıb. III qrup əliləm. Fizioterapiya, əmək terapiyası, tok masajı və dərman müalicəsi alıram. Bura ikinci gəlişimdir, səhhətimdə irəliləyiş olduğunu görürəm".

Qum terapiyası zamanı söhbətləşdiyimiz Fatimə Əliyeva Birinci Qarabağ müharibəsində Füzulidə, Kəlbəcərdə, Laçında, Ağdamda tibb bacısı kimi çalışıb. Pansionata beşinci gəlişidir. İlk dəfə qoltuq ağacıyla gəlibmiş, indi artıq əsaya keçib. İnanır ki, terapiyalardan sonra əsanı da atacaq.

İdman zalı növbəti baş çəkdiyimiz otaq oldu. Burada fiziki məhdudiyyətli şəxslərlə həmsöhbət olduq. 48 yaşlı Mahir Səfərəliyev Birinci Qarabağ müharibəsi əlilidir. 1993-cü il Laçında düşmənin tank hücumu nəticəsində yaralanıb. Fəqərələrində qəlpələrlə yaşayır. II qrup əlildir.

Şağan Reabilitasiya Pansionatında şəhid ailələrinin üzvlərinə də xidmət göstərilir, onlar da nəzərdən kənarda qalmırlar. Gülbəniz Qarayeva şəhid xanımıdır. Ekzema, əsəb və müxtəlif sümük xəstəliklərindən əziyyət çəkən bu xanım fərqli yerlərdə müalicə alsa da, dərdinə dərmanı burada tapa bilib.

Pansionatda elə xəstələr olur ki, onlar mütləq müşayiətçi ilə qalmalıdırlar. Onlara burada icma əsaslı xidmətlər verilir. Belə xəstə yaxınları da psixoloji dəstəkdən yararlanır, xəstə baxımı ilə bağlı xüsusi məlumatlandırma kursu keçirlər.

Bura pənah gətirənlərin istirahəti də yaddan çıxmayıb. Tez-tez konsertlər və digər mədəni tədbirlər təşkil edilir. Hətta musiqi qabiliyyəti olan pasiyentlər öz alətlərini də gətirib kiçik konsertlər verirlər. Maştağa Qəsəbə Mədəniyyət Evinin kollektivi mərkəzin ən istəkli qonaqlarındandır.

Əlillik qüsur deyil... Fiziki məhdudiyyət qüsur deyil... Əsl qüsur başqasının dərdinə etinasızlıq, qayğıya möhtac insanlara laqeyd münasibətdir.

Şağan Reabilitasiya Pansionatında gördüklərimiz bir daha təsdiq edir ki, fiziki məhdudiyyətli insanlara qayğı, diqqət, onların sosial problemlərinin həlli Azərbaycan dövlətinin prioritetidir. Onların həyata bağlanmaları üçün hər cür imkan və şərait yaradılır.

*Ülkər XASPOLADOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Şuşaya səfərləri turizm şirkətləri bazara çeviriblər

Rəsmi qurumların səfər bileti bir ay öncə bir saata satılıb bitir, işbazlar isə istənilən gün üçün bileti üçqat baha satışa çıxarırlar...

Prezident İlham Əliyevin Azərbaycan xalqının ümumi arzusunun ifadəsi olan "Şuşa hər birimizi özünə çəkir" fikrində olduğu kimi, hansı bölgədə doğulmağımızdan asılı olmayaraq, hamımız bu müqəddəs şəhərə getmək, əzəli yurdumuz Qarabağa bu pak ucalıqdan tamaşa etmək istəyirik...



Nəhayət, ölümdən betər bu ayrılıq sona yetib...

Düz 30 il ərzində səsimiz, ünümüz yetməyən, Yer üzündə yaşayan bütün azərbaycanlıların Vətən qibləsi Şuşa azadlığına qovuşub. Ruhumuzun pərvəriş ünvanı yenidən öz əvvəlki şanşöhrətli günlərinə dönüb, Azərbaycanın və azərbaycanlıların mədəniyyət paytaxtı olmaq kimi fəxarətli statusu ilə adına, qədim tarixinə, əsrarəngiz təbiətinə yaraşır bir şəkildə mənəviyyat abidəmizə çevrilib...

İndi isə könlü Qarabağdan keçən bizlərin illərdir ürəyimizdə gəzdirdiyimiz, heç olmasa ömrümüzdə bir dəfə də olsa Şuşaya səfər edərək, bu qürur zirvəmizin qarşısında səcdəyə durmaq, daşını, torpağını öpmək, məscidlərində dua edərək Tanrıya şükranlarımızı bildirmək kimi müqəddəs arzularımızın gerçəkləşmə məqamıdır, amma...

## Kimlər Şuşanı bizim üçün əlçatmaz şəhərə çevirib?

Əmması isə odur ki, bir çoxlarımız bu arzumuzu yerinə yetirə bilmirik, Şuşa bizim üçün əlçatmaz, uzaq şəhərə çevrilib. Çünki Dövlət Avtomobil Nəqliyyatı Xidməti tərəfindən Şuşaya təşkil olunan avtobus reyslərinin sayı az olduğuna görə vətəndaşlar bilet tapa bilmirlər. "Yolumuz Qarabağa" portalında biletlər satışa çıxarılandan cəmi bir neçə saat sonra tükənir. Yəni bu yolla Şuşaya getmək planı bir neçə ay sonraya qədər təxirə düşür...

Amma əhvalı pozmağa dəyməz, alternativ yollar da var. Şuşaya tur təşkil edən özəl şirkətlər vasitəsilə də mədəniyyət paytaxtımıza səyahət etmək olar. Hətta dövlət xətti ilə Şuşaya səfər etmək istəyənlər qarşıdakı aylar üçün bilet tapmaqdan əl üzsələr də, sözügedən turizm şirkətlərindən ən yaxın ikiüç gün üçün bilet tapmaq mümkün olur. Sevindiricidir deyilmi?! Əlbəttə, əgər bu tur şirkətlərinin Şuşaya səfər etmək üçün biletə qoyduğu baha qiymət olmasa...

Yaşlılar, xəstələr, illərdir vətən həsrəti ilə yanan vətəndaşlarımız var ki, tezliklə o torpaqları görmək istəyirlər. Bunun üçün əl qaldırıb Allahdan ömür payı uman o qədər həmvətənimizin saf duasına qulaq şahidliyi etmişik ki... Ümumiyyətlə, hamı Şuşaya getmək istəyir, bunu özünün mənəvi borcu sayır.

Və o insanların heç birinin günahı deyil ki, internetə çıxışı yoxdur, kompüterdə, telefonda müasir tətbiqlərdən istifadə edə bilmir, yaxud hansısa digər səbəblər üzündən gecikir və dövlətin Şuşaya təşkil etdiyi səfərlərə bilet ala bilmir. Buna görə də iki seçim qarşısında qalır, ya yenidən oturub aylarla növbəti bilet satışını gözləməli olur, ya da turizm şirkətlərinin baha qiymətə təşkil etdiyi turlarla Şuşaya getmək məcburiyyətində qalır.

O başqa reallıqdır ki, Şuşa qəlbimizdə elə yüksək bir zirvədədir ki, onu görmək üçün yola istənilən məbləği ödəməyə razıyıq...

Görünür, elə işbazlar da vətəndaşlarımızın tükənməz Şuşa sevgisindən sui-istifadə edərək bu cür bazar açıblar.

## Şuşa möhtəkirlərin "işğalı" altına düşməli deyil

Amma Müzəffər Ali Baş Komandan İlham Əliyev və onun qəhrəman əsgəri Şuşanı ona görə azad eləməyib ki, bir qrup möhtəkirin gəlir mənbəyinə çevrilsin...

Azərbaycanın mərd oğulları öz canları, qanları bahasına Zəfər cığırını ona görə açmayıblar ki, o yolları fürsətcillər şəxsi qazanc yerlərinə döndərsinlər...

Şuşaya gedən yola Zəfər yolu deyirik, müqəddəs yol sayırıq! Elə Müzəffər Ali Baş Komandanımız İlham Əliyev də Xüsusi Təyinatlılarla görüşəndə qeyd etdi ki, "Bu gün Şuşaya gələn hər bir insan, sadəcə olaraq, məəttəl qalır - bu alınmaz qalanı Azərbaycan övladları necə aldılar. Hər dəfə Şuşaya Zəfər yolu ilə gedəndə hər bir insan bu haqda fikirləşir. Son vaxtlar artıq Zəfər yolu ilə Şuşaya gedən insanların sayı həddindən artıq çoxdur, həm Azərbaycan vətəndaşları, həm xarici vətəndaşlar. Ondan sonra mənimlə təmaslar əsnasında qeyd edirlər ki, siz Azərbaycanda belə qısa müddətdə bu yolu necə çəkmisiniz? Mən isə deyirəm, əsas məsələ bu deyil, siz fikirləşin bizim əsgər və zabitlərimiz o meşələrdən necə keçiblər, o yolu onlar açıblar və bu yola mənim tərəfimdən Zəfər adı verilməklə biz bu şanlı Zəfərimizi bir daha tariximizdə həkk etdik".

İlham Əliyev və onun əsgərinin açdığı bu şanlı Zəfər yolu təkcə hansısa ünvana yetmək üçün olan dünyadakı milyonlarla adi yoldan biri deyil. Bu, hər qarışına Azərbaycanın vətənsevər övladlarının qanı ilə imza atdığı zəfərə, azadlığa, vətənin bütövlüyünə uzanan pak, müqəddəs yoldur.

Bu yolla səyahət edən hər bir kəs Qarabağımızın necə ağır, iztirablı, çətin və elə o qədər də şücaətlə, əzmkarlıqla azadlığına qovuşdurulduğunun canlı şahidi olur. Bir daha qəhrəman oğulları ilə fəxr edir, qürur duyur, şəhidlərini minnətdarlıq və ehtiramla anır...

Şuşa işğaldan azad olunub, möhtəkirlərin işğalına girməli deyil! Şuşa adının keçdiyi hər bir iş böyük paklıq, ən ümdəsi mənəvi məsuliyyət tələb edir.

Hətta Şuşa adından istifadənin özü belə qanunla tənzimlənəcək. Qanuna əsasən, hüquqi şəxslərin, o cümlədən media subyektlərinin adlarında, mükafatların və təltiflərin adlarında, yerli, ölkə və ya beynəlxalq səviyyəli tədbirlərin, o cümlədən idman və digər yarışların, konsertlərin, festivalların, sərgilərin, konfransların, seminarların adlarında, kommersiya və reklam məqsədilə əmtəə nişanlarında və coğrafi göstəricilərdə Şuşa sözündən istifadəyə yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun razılığı ilə yol veriləcək. Olduqca vacib qanundur!

Elə Şuşaya təşkil edilən səfərlərin özü də həssas, kövrək məsələdir. Heç Şuşaya səfərlə, Azərbaycanın hansısa, tutaq ki, Qubaya, Xaçmaza, Lənkərana, Lerikə, Şəkiyə və digər bölgələrə edilən istirahət turlarını bir gözdə görmək, onları eyni tərəzinin gözünə qoymaq mümkündürmü?!

Azərbaycan xalqı Şuşaya gəzməyə, dincəlməyə yox, mənəvi borcu sayaraq müqəddəs məkanı ziyarətə gedir.

Olmazmı ki, dövlət xətti ilə Şuşaya təşkil olunan reyslərin, avtobusların sayı artırılsın? Şuşaya getmək istəyən vətəndaşlar da bilet yoxluğu səbəbindən aylarla gözləməyə məcbur qalmasınlar.

## Üç dəfə baha qiymətə təklif olunan Şuşa turları

Müəyyən müddətdə Şuşaya və digər rayonlara səfərlər müxtəlif qurumlar tərəfindən təşkil olunsa da, artıq bu ilin yanvar ayının 24-dən Şuşa və Ağdama avtobus reysləri istifadəyə verilib. Növbəti mərhələdə azad olunmuş digər rayonlara da reyslərin açılacağı nəzərdə tutulur. Şuşa və Ağdama səfər üçün bilet satışını həyata keçirmək məqsədilə "yolumuzqarabaga.az" saytı yaradıldı. Həmin rayonlara səfər etmək istəyənlər sistemə daxil olaraq "ASAN login" vasitəsilə qeydiyyatdan keçməli, istiqamət seçimi edib, səfər tarixini və səfərdə neçə nəfərin iştirak edəcəyini qeyd etməlidir. Daha sonra reyslərdən biri seçilərək növbəti səhifədə e-mail ünvanı, şəxsiyyət vəsiqəsinin seriyası, fərdi identifikasiya nömrəsi və mobil nömrə daxil edilir. Şəxsin məlumatları müvafiq informasiya sistemlərindən yoxlanılır.

Aprel ayının son günlərində may üçün Şuşaya bilet satışı ilə bağlı sistem aktiv edilsə də, artıq bir neçə saat ərzində satış başa çatıb və növbəti günlər üçün bilet tapmaq mümkün olmayıb. Nəinki Bakıdan, hətta Əhmədbəyli-Şuşa reyslərinə də biletlərin bitdiyi məlum olub. Məlumat üçün bildirək ki, bilet alarkən gediş və dönüş bir yerdə alınır. Bakıdan Şuşaya gediş-dönüş biletinin qiyməti 20.80 manat, Əhmədbəyli-Şuşa-Əhmədli reysi üzrə isə 14 manatdır.

Sistemdə biletlər bitsə də, tur şirkətləri tərəfindən Şuşaya bir günlük tur paketlər təklif olunur. Müxtəlif şüarlar altında Şuşaya səfər təklif edən tur şirkətlərinin bir günlük qiymətləri 55-60 manat arasında dəyişir. Standart paket üçün qiymətlər 60, ekonom paket üçün isə 55 manat təşkil edir.

Araşdırdığımız zaman məlum olur ki, qiymətə fotosesiya və "gülərüz tur rəhbəri" daxildir. Qiymətə tur rəhbərinin "gülərüzlülüyünün" salınması isə tam başqa söhbətdir. Maraqlıdır, kim turlarla maraqlananda tur rəhbərinin "gülərüzlülüyünü" soruşur və ya tur rəhbəri onsuz da səbirli və komanda ilə işləmə bacarığı olanlar arasından seçilmirmi?

Rəsmi qurumlar əhalinin tələbatını nəzərə almır və əlavə avtobuslar ayırmır, işbazlar isə nə yollarlasa istədikləri vaxt səfər təşkil edə bilirlər. 3 dəfə baha qiymətə bilet satan turizm şirkətlərinin açdığı bu bazar gündən-günə böyüyür.

Bu işlə məşğul olan "KMG" turizm şirkətindən məlumat alarkən bəlli oldu ki, 55-60 manata satılan bilet şəxsin öz adına alınır və bunun üçün şəxsiyyət vəsiqəsi və COVID-19 pasportunun olması kifayətdir. Biz biletlərin ancaq bir sistem üzərindən satıldığını söylədikdə "Biletlər Dövlət Turizm Agentliyi tərəfindən satılır, amma onlar şənbə və bazar günü apara bilirlər, biz sadəcə həftəiçi turlar təşkil edirik", - deyə bildirdilər.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin məlumatına görə, Şuşa və Ağdam şəhərlərinə təşkil edilən müntəzəm avtobus reyslərinə may ayı üzrə biletlər aprelin 26-da satışa çıxarılıb. Bakı-Şuşa-Bakı istiqaməti üzrə biletlər ilk 3-4 saat ərzində tam satılıb. Ümumilikdə bu marşrut üzrə 564 bilet vətəndaşlar tərəfindən alınıb.

Əhmədbəyli-Şuşa-Əhmədbəyli istiqaməti üzrə 650-dən çox bilet satılıb. Beləliklə, may ayında 1222 vətəndaşın Şuşaya səfəri təmin olunacaq. Bu günədək isə ümumilikdə 5000-dən çox şəxs Şuşa və Ağdam şəhərlərini ziyarət edib.

Məlumata əsasən, marşrutların təhlili, həmçinin tələbat və bilet satışı dinamikası, eləcə də vətəndaşların istəkləri nəzərə alınaraq avtobusların hərəkət cədvəllərində müəyyən dəyişikliklər edilib. Təhlillər nəticəsində Bakı-Şuşa-Bakı istiqamətində əlavə cəmi 1 reysin açılması qərara alınıb. Yeri gəlmişkən, turizm şirkətləri tələbatı nəzərə alaraq, əlavə reyslərin sayını daha çox artırıb.

## Vətəndaşın "dərisini soyub" qeyri-qanuni hərəkətlərə yol vermək olmaz

Cəmiyyət arasında narazılığa, geniş müzakirələrə səbəb olan bu problemlə bağlı qəzetimizə danışan Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Elman Məmmədov bildirib ki, tur şirkətlərinin Şuşaya səfərlə bağlı təklif etdikləri qiymətlər ciddi narazılıq yaradan məsələdir: "Vətəndaşlarımız doğma Şuşamızı görmək, gəzmək istəyirlər. Bu, çox yaxşıdır, amma müəyyən fürsətcil şəxslər bu haldan istifadə edib pul qazanmaq istəyirlər. Bu məsələni araşdırmaq müvafiq qurumların, o cümlədən hüquq-mühafizə orqanlarının işidir. Bizdə belə bir tendensiya yaranıb ki, hər hansı bayram, əlamətdar günlərdə qiymətlər qalxır, yəni fürsətcillər hər şeydən istifadə edirlər. Bazar iqtisadiyyatıdır, hamı müəyyən qədər gəlir əldə etmək istəyir, ancaq bu məqsədlə vətəndaşın "dərisini soyub", qeyri-qanuni hərəkətlərə yol vermək olmaz".

Deputat qeyd edib ki, Şuşaya gedişgəliş biletlərinin qiyməti rəsmi qaydada məlumdursa, bundan 3-4 dəfə artıq paket təklif edilirsə, demək qanun pozulur: "Deyə bilərlər ki, özəl şirkətik, amma dəxli yoxdur. Özəl şirkət Amerikadan gəlməyib, Azərbaycanın turizm şirkətidir, o qədər özbaşına deyil ki, ağlına gələn qiyməti qoysun".

## Qiymətlərə dövlət nəzarəti olmalı, Şuşaya avtobus reysləri artırılmalıdır

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Aqil Abbas da tur şirkətlərinin Şuşaya səfərlə bağlı təklif etdiyi qiymətlərin baha olduğunu deyir: "Tur şirkətləri pul qazanmaq istəyirlər, bazar iqtisadiyyatı olduğu üçün heç nə demək olmur. Ancaq hökumət tərəfindən qiymətlərə nəzarət olunmalıdır. Qiymətlər aşağı salınmalıdır. Dövlət tərəfindən Şuşaya gedən avtobusların sayı artırılsa, özəl şirkətlər məcbur qalıb qiyməti endirəcəklər. Eyni zamanda işğaldan azad olunmuş rayonlara səfərlə bağlı özəl şirkətlərə dövlət tərəfindən nəzarət olunmalıdır. Hər kəs istədiyi qiyməti qoya bilməz. İnsanlar yurdlarını gedib görmək istəyir, bu haldan suiistifadə etmək olmaz".

## Açıq qalan suallar

Dövlət Turizm Agentliyindən turizm şirkətlərinin qiymət siyasəti ilə bağlı qəzetimizə bildirilib ki, agentlik dövlət qurumudur, bazar iqtisadiyyatı olduğu üçün qiymət tənzimlənməsində iştirak etmir.

Amma ölkəmizdə mütləq ki, qiymət tənzimlənməsində iştirak edən qurum və ya qurumlar var və tezliklə bu məsələdə də qiymət tənzimlənməsinə bir əncam çəkməlidirlər. Bu, vətəndaş olaraq ən azından bizim arzuladığımız və gözlədiyimiz vacib məsələlərdən biridir.

Burada haqlı suallar da ortaya çıxır: əgər Şuşa və Ağdama səfərlər yalnız bir sistemdən tənzimlənirsə, bəs özəl turizm şirkəti biletləri haradan alır?

Biletdən ancaq sistemə şəxsi məlumatları daxil edilənlər istifadə edə bilirsə, sözügedən şirkət biletləri əvvəlcədən haradan və hansı şəkildə bron edir?

Təbii ki, bu suallarımız hələ də cavablanmamış qalır.

## Şuşanın adı, özü ilə bağlı bir işə əl atanda min dəfə düşünün...

Azərbaycan Prezidenti Şuşanı mədəniyyət paytaxtımız elan edib və bu şəhərlə bağlı həyata keçirilən bütün işlər, layihələr həmin yüksək statusa uyğun, qədim qalamızın adına xələl gətirməyəcək şəkildə olmalıdır.

Dövlət başçısı hər kəsə xəbərdarlıq edib ki, "Mən Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar paytaxtı elan etməmişəm! Ona görə hər kəs otursun yerində, öz işi ilə məşğul olsun, məni də əsəbləşdirməsin".

Bəli, Şuşa ölkəmizin ali şəxsindən tutmuş, ən sıravi vətəndaşına qədər hər kəs üçün böyük həssaslığa malik, ələhiddə məqamda olan dəyərdir. Necə deyərlər, bizim üçün dünya bir yanadır, Şuşa bir yana...

Odur ki, kimliyindən, hansı mənsəb sahibindən asılı olmayaraq, Şuşanın adı, özü ilə bağlı bir işə əl atanda papağınızı qarşınıza qoyub min dəfə düşünün...

Özəl şirkətə Şuşaya turizm səfəri təşkilinə icazə verənlər, onlara qiymət şərti də qoya bilərlər! Təbii ki, avtobus qiymətləri şərti!

***Əsmər QARDAŞXANOVA,***
***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***




# Yeni metod, yüksək xidmət

İcbari tibbi sığorta fəaliyyətində köklü dəyişikliklər başlayır

Sanki Tanrı həm insanları, həm də dövlətləri bəşəri bəla, COVID-19-la sınağa çəkirdi. Heç kimə sirr deyil ki, dünyanın bir sıra nəhəng dövlətləri bu sınaqdan uğursuz çıxdılar.

Hansı dövlətlərin iqtisadiyyatı qüdrətli, səhiyyəsi güclü, dövlətin vətəndaşına olan münasibəti ciddi oldusa, bu bəlanı az itki ilə adlaya bildi. Nə xoş ki, müstəqillik yoluna yeni qədəm qoyan dövlətimiz bu sınaqdan da layiqincə çıxa bildi. Dünyanın həsəd apardığı bəzi dövlətlərlə müqayisədə pandemiya dövründə ölkəmizdəki itki əhalinin sayı nisbətinə görə olduqca az, sağalıb sağlam həyata dönənlərin sayı isə çox oldu. Heç şübhəsiz ki, bu da dövlətimizin səhiyyə sahəsində apardığı uğurlu islahatların, Prezident İlham Əliyevin insanların sağlamlığına və sosial rifah halının yaxşılaşdırılması üçün göstərdiyi təxirəsalınmaz tədbirlər nəticəsində mümkün olmuşdur.

## Yenidən qurulmuş səhiyyə sistemi yeni metodlara keçdi

İllərdir ki, ölkənin səhiyyə sistemində köklü dəyişikliklər edilir, islahatlar aparılır, səhiyyə sistemi tamamilə yenidən qurulur. Paytaxt Bakıdan tutmuş ölkənin ən ucqar dağ kəndlərinə kimi xəstəxanalar ya müasir tələblərə cavab verən, Avropa standartlarına uyğun binalarla əvəzlənərək, ən müasir elektron sistemlə təmin edilir, yeni sağlamlıq mərkəzləri salınır, müasir tələblərə cavab verən modern tibb müəssisələri tikilib əhalinin istifadəsinə verilir, yaxud da xəstəxana binaları əsaslı təmir olunur.

Bir sözlə, bu gün ucqar dağ kəndində yaşayan hər bir Azərbaycan vətəndaşının müayinə-müalicə üçün paytaxt Bakıya gəlməsinə lüzum yoxdur. Elə yaşadığı rayonda və yaxud qonşu rayonlarda fəaliyyət göstərən diaqnostika mərkəzlərinin birində müalicə ala bilər. Aparılan islahatlar, təkcə modern xəstəxanaların tikintisi, müasir müalicə-müayinə və diaqnostika aparatlarının alınması ilə bitməyib. Eyni zamanda ixtisaslı tibbi kadrların hazırlanması sahəsində də xüsusi addımlar atılıb. Gənc kadrların inkişaf etmiş Avropa ölkələrinə ixtisasartırma kurslarına göndərilərək təcrübə mübadiləsi keçmələri, biliklərinin daha da artırılması, ixtisaslı kadrların hazırlanması üçün həm Heydər Əliyev Fondu, həm də dövlətimiz tərəfindən xüsusi diqqət və qayğı göstərilir.

Əhaliyə göstərilən tibbi xidmətin daha da yaxşılaşdırılması, səhiyyə xidmətinin əlçatan olması məqsədilə dünya təcrübəsi öyrənilərək ölkəmizdə uğurla tətbiq edilməkdədir. İslahatlar nəticəsində əhaliyə göstərilən tibbi xidmətin məzmununda da ciddi və uğurlu dəyişikliklər edilmişdir. Fərəhlə vurğulaya bilərik ki, əhaliyə göstərilən tibbi xidmətin daha əlçatan olması məqsədilə yaradılmış icbari tibbi sığortanın imkanlarından ölkə əhalisi səmərəli istifadə edir. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi də əhaliyə göstərilən xidmətin səviyyəsini və növlərini artırmaq üçün daim axtarışları davam etdirərək təxirəsalınmaz tədbirlər görür.

## Əhaliyə göstərilən tibbi xidmətdə kəmiyyət və keyfiyyət dəyişikliyi

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən əhaliyə göstərilən tibbi xidmətin səviyyəsini daha da yaxşılaşdırmaq məqsədilə yeni təkliflər zərfi hazırlanaraq aidiyyəti qurumlara təqdim olunub. Yeni təkliflər zərfinə 700 yeni tibbi xidməti daxil edilərək, ümumilikdə 3000-dən çox tibbi xidmətin icbari tibbi sığorta çərçivəsində fəaliyyət göstərməsi nəzərdə tutulub.

Koxlear implantasiya əməliyyatının sayı 300-dən 400-ə, endoprotezləşdirmə əməliyyatının sayının isə 300-dən 1200-ə qaldırılması təklif olunub. İlkin səhiyyə xidməti, TTTYX, laborator, ambulator və stasionar tibb xidmətlər üzrə agentlik tərəfindən tibb müəssisələrinə ödənilən 1000-dən çox xidmətin tarifi artırılıb.

Əhaliyə xidmət göstərən həkimlərin maddi rifah halının yaxşılaşdırılması da nəzərdən qaçmayıb. Tibbi Ərazi Bölmələri İdarəetmə Birliyi publik hüquqi şəxsin tabeliyində fəaliyyət göstərən tibb müəssisələrində çalışan səhiyyə işçilərinin "Əməyin Ödənilməsi Qaydasına" dəyişikliklər edilməklə həkimlərin aylıq əməkhaqları bütün məcburi tutulmalardan sonra məbləğin 1000 manata çatdırılması nəzərdə tutulub. Xatırladaq ki, bu artım 31 ixtisas üzrə çalışan 8000-ə yaxın həkimə şamil ediləcək. 17 ixtisas üzrə çalışan həkimlərin maaşındakı artım isə 2 dəfəyədək təşkil edəcəkdir.

Eyni zamanda həkimlərimizin güzəştli ipoteka kreditləri almaları üçün İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ipoteka krediti və sosial mənzil almaq hüququ verilən şəxslərin siyahısına dövlət tibb müəssisələrində çalışan tibb işçilərinin əlavə edilməsi ilə bağlı təklif hazırlayıb.

## Tezliklə işğaldan azad olunmuş ərazilərdə əhaliyə tibbi xidmət göstəriləcək

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi İdarə Heyətinin sədri Zaur Əliyev vurğulayıb ki, "Bu il ölkəmizdə "Şuşa ili" elan edilib. Artıq Şuşada da tibbi xidmətin göstərilməsi zərurəti yaranıb. Şuşada modul tipli xəstəxanaya 1200-dən çox müraciət olub, əməliyyatlar həyata keçirilib. Eləcə də Ağdam, Kəlbəcər, Hadrut, Zəngilan və Qubadlıda da modul tipli xəstəxanaların quraşdırılması planlaşdırılır".

Tibb işçilərinin maaşlarının artırılması haqqında söz açan İdarə Heyətinin sədri bildirdi ki, "Maaş artımı üzrə illik əlavə maliyyə xərci təqribən 100 milyon manat təşkil edir. Qaydaya dəyişikliklərin 2022-ci ilin 1 iyun tarixədək qüvvəyə minməsi nəzərdə tutulur. İnanırıq ki, tibbi personalın maddi vəziyyətinin yaxşılaşdırılması xidmətin keyfiyyətinə də öz müsbət təsirini göstərəcəkdir".

Bütün bunlar dövlətin vətəndaşına qayğısının, vətəndaşların sosial vəziyyətinin daha da yaxşılaşdırılmasının parlaq nümunəsidir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Sərnişinlər daha çox avtomobilə üstünlük verirlər

Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-mart aylarında ölkə nəqliyyatçıları 345,1 milyon sərnişinə xidmət göstəriblər.

Məlumatda həmçinin bildirilir ki, sərnişinlərin 86,4 faizi avtomobil nəqliyyatı, 13,2 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınıb.

Sözügedən dövrdə nəqliyyat sektorunda daşımalarda xüsusi çəkisi ən böyük olan avtomobil nəqliyyatı ilə 298,1 milyon sərnişin daşınıb və 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 18 faiz artım qeydə alınıb. Sərnişinlərin 95 faizi avtobus, 5 faizi minik taksilərinin xidmətlərindən istifadə edib. Sərnişin dövriyyəsi 19 faiz artıb.

Yanvar-mart aylarında hava nəqliyyatı ilə daşınan sərnişinlərin sayı 364,4 min olub. Bu, keçən ilin eyni dövrünə nisbətən 3 dəfə çoxdur. Dəmir yolu nəqliyyatı ilə bu dövrdə 944,2 min sərnişin daşınıb. 2021-ci ilin eyni dövrünə nisbətən sərnişin daşınmasında 98,3 faiz artım olub. Rüb ərzində dəniz nəqliyyatından isə 2 min 600 sərnişin istifadə edib.

***"Azərbaycan"***

5 May Xalçaçı Günüdür

# İlmələrin rəqsi

## Hər naxış bir əsərin iplərə həkk edilmiş bənzərsiz mənzərəsidir



**İlmələrin atıldığı aləmdəyik...**
**Elə bir aləm ki, görünən hər naxış onu toxuyan əllərin sehrindən çıxır.**
**Burada duyğular ilmə-ilmə çiçəklənib sənətə çevrilir. İlmələrin yaratdığı çinlərin fərqli füsunkarlıqla bir arada birləşdiyi bu məkanda milli ornamentlərimizi özündə əks etdirməklə yaradılan sənət əsərləri tariximizin qədimliyindən xəbər verir.**
**Həmin sehrli əllərin sahibləri ilə görüşüb işlədikləri çətin, amma çox maraqlı prosesə şahidlik etmək, bu sənətə daha yaxından bələd olmaq üçün yolumuzu "Azərxalça"nın İsmayıllı filialının xalça emalatxanasından salmışıq...**

















### Rənglərin, naxışların, süjetlərin ahəngi

Dəzgahların qarşısında oturan xanımlar diqqətlərini toxuduqları xalçaya cəmləyib, yalnız arabir başlarını qaldıraraq çeşnilərə nəzər salırdılar. İşlərini hədsiz sevgi və ustalıqla gördükləri o qədər bəlli idi ki, sanki ətrafda dünya dağılsa belə, xəbərləri olmayacaqdı. Sürətlə toxuyan əllər bir göz qırpımında qığılcımtək itir, hər ilmə xalçanın yaradılması üçün tələsib öz yerini tuturdu.

Bir dəzgahın önündən keçəndə isə rəng, naxış və süjetlərin ahəngi insanı sanki fərqli diyarların kandarından alıb uzaqlara - səfalı bağlara, atların çapıldığı düzlərə, yamyaşıl örpəyə bürünmüş dağlara, dərələrə aparırdı. Səhərin ən gözəl çağında işə başlayan toxucuların xoş ovqatı gülüş səslərindən duyulurdu.

Müəssisənin direktoru Dilşad Hüseynova deyir ki, xalçaçılıq milli, mədəni tariximizin ən qədim və bənzərsiz məşğuliyyət sahəsi olub, bizi beynəlxalq aləmdə əfsanəvi əsərlərin yaradıcılarına çevirib. Yazılı mənbələrdə qeyd edilir ki, xalqımıza bu sənət eramızdan əvvəlki tarixdən yadigardır. Bu sahədəki bacarığımızı da elə əcdadlarımız iliklərimizə "toxuyub". Rənglərin harmoniyası, müxtəlif çalarlı naxışların toplusundan meydana gələn təxəyyül nümunələrinin üzərində gəzməklə zamanda səyahəti reallaşdırmaq olar. Hər xalça bir kompozisiyanın iplərə həkk edilmiş əbədi mənzərəsidir.

### İlmələrin fərqi, xalçaların uzunömürlülüyünün sirri

Müəssisədə İsmayıllının ən təcrübəli toxucuları işləyir. Hazırda kollektiv 92 nəfər toxucu qadın, 13 nəfər texniki işçi olmaqla, 105 nəfərdən ibarətdir. Hər bir işçiyə rahat və əlverişli mühitdə çalışmaq üçün şərait yaradılıb. Müəssisənin yeməkxanası və işçiləri daşıyan xüsusi nəqliyyatı da var. Nahardan əlavə müəyyən saatlardakı çay fasiləsi də onların ehtiyaclarına ən uyğun formada təyin edilib.

Direktor bildirir ki, 2019-cu ildən fəaliyyətə başlayan İsmayıllı filialı bölgələr üzrə fəaliyyətdə olan emalatxanalar içərisində öz keyfiyyətli işləri ilə seçilir. Çünki burada müxtəlif növ xalçalar toxunur. Yəni müəssisədə xalçaların toxunma texnikası nisbətən fərqlidir: "Biz birinci ilməni arxadan götürüb daha sonra ara ipləri əlavə edirik. Şimal zonasında isə bu fərqlidir. Onlar ilki öndən götürərək ilmələri atırlar. Arxadan götürülən ilmə isə xalçanın möhkəmliyinin, uzunömürlü olmasının əsasını təşkil edir".

Emalatxanada başda Şirvan xalçaları olmaqla, Bakı, Qarabağ, Naxçıvan və s. kimi çox çeşidli xalçaların sifarişləri qəbul edilərək hazırlanır. Onlar həmçinin yeni eksperimental işlərinə ipək xalçaları toxumaqla başlayıblar. Hələlik 2 dəzgahda açılan qiymətli ipək xalçaların toxunmasına gələcək vaxtlarda daha çox işçinin cəlb edilməsi planlaşdırılır.

Dilşad Hüseynova bazar tələbatına da nəzər salaraq deyir ki, indiki dövrdə allı-güllü milli xalçalara maraq azdır. Buna görə də, dövrlə ayaqlaşaraq müasir zövqlərə uyğun nümunələr dizayn edib toxuyurlar: "Ən son toxuduğumuz iki xalçaya baxsanız görərsiniz ki, sanki onların kompozisiyasındakı qədim ornamentlər köhnəlmiş, dağınıq haldadır. Belə üslubda hazırlanması isə onun xəbərçisidir ki, xalça köhnəlsə də, dəyərini itirmir, qədim tarixini öz üzərində əks etdirir".







Xalçaların qiymətini yüksəldən daha çox iplərin təbii boya ilə rənglənməsidir. Direktorun fikrincə, bəzən xalçaların baha qiymətə olmasından gileylənənlər olur. Ancaq onlar düşünmürlər ki, bir xalçanın hazırlanması üçün nə qədər əl əməyi və təbii xammaldan istifadə edilir. Emalatxanadakı bütün xammallar təbii boya ilə rənglənir. Digər bir məqam isə xalçanın toxunma müddətidir. Belə ki, bir toxucu 8 iş saatı müddətində 45x45 ölçüdə olan xalçanın yalnız 1 kvadratmetrini toxumaq gücünə malikdir.

### Ulu nənələrdən qalan yadigar

Emalatxananın əsas dayaq sütunları, əlləri ilə möhtəşəm əsərlər ərsəyə gətirən qoçaq xalçaçı xanımlarla söhbətimiz də çox maraqlı alındı. Yeri gəlmişkən, sexdə hər yaş qrupundan olan toxucuya rast gəlmək mümkündür.

Dəzgahların arası ilə irəliləyirik. Kimisi ilmələri vurub sırasını tamamlayır, kimisi həvə ilə tarazlayır, kimisi isə tamamlanan çinləri qayçı ilə kəsirdi.

4 yaşından xalça toxumaqla məşğul olan Kəmalə Abbasova söyləyir ki, bu sənətkarlıq ona ulu nənəsindən yadigardır. Peşəkar toxumağı isə anasından öyrənib: "Yadıma gəlir, çox balaca idim, ancaq dəzgahı görən kimi sevincimin hədd-hüdudu yerəgöyə sığmırdı. Elə qaçıb önündə oturaraq balaca ipi güclə tutan əllərimlə xalça toxumaq istəyirdim. Xalçaçılığa olan vurğunluğum da bu gün məni buralara gətirib çıxardı".

Kəmalə xanım onu da qeyd edir ki, ən sevdiyi xalça növü Quba xalçaçılıq məktəbinə aid olan "Qollu-çiçi" xalçalarıdır. Bu xalçaları toxumaq çox çətin olsa da, hər ilmənin verdiyi zövq tamam başqa olur.

50 illik toxuculuq təcrübəsinə malik Reyhan xanım isə bildirir ki, bu sahəyə marağı rəsm sayəsində yaranıb. Uşaqlıqdan rəngləri, naxışları, ümumiyyətlə, rəsmləri çox sevirmiş və tale elə gətirib ki, yolu rəssamlıqla yox, xalçaçılıqla kəsişib: "Hazırda toxuduğum bu xalçanın eskizini mən çəkmiş olsaydım, yəqin ki, adını "Yaz çiçəkləri" qoyardım. Könüloxşayan xalçaları tapmaq çətindir. İndi sanki öz rəsmimin xalçasını toxuyuram".

### Sənətinin vurğunları

Dəzgahların arası ilə getdikcə müxtəlif növ xalçaların toxunduğunu görürük. Onların fərqini isə yalnız üzərlərində asılan eskizlərdən və saplardan aydınlaşdırmaq olur. Xalçalar hazır olduqdan sonra süjet və ornamentlərinə görə necə bir-birilərindən fərqlənirsə, dəzgahdakı nümunələr də rəngarəng saplarından seçilir. Bir tərəfdə daha soyuq rənglər hakimlik edərkən, digər tərəfdə əlvan çalarlara bürünəcək xalçalar göz oxşayırdı. Boydan-boya Qarabağ xalçaları dəzgahları bəzəyir, üzərlərindəki süjetlərdə təsvir edilən şahanə, əzəmətli atlar isə sözün əsl mənasında ipə-sapa sığdırılmışdı.

Buradakı bir çox toxucunun təcrübəsi uşaqlıq illərindən başlasa da, emalatxananın həyatlarında məktəb rolunu oynadığı toxuculara da rast gəldik. Ayşən Musayevə emalatxana açılan vaxt ilk dəfə burada ilmə vurmağı öyrənən xanımlardandır. Deyir ki, xalçaçılığa böyük marağı olsa da, daha öncə hər hansısa bir yerdə öyrənmək fürsəti olmayıb. Buraya gələndən sonra elə əyləşdiyi dəzgahın toxucuları ona əsl müəllim olublar. İndi isə Ayşən xanımla birgə xalça toxuyan yoldaşları bildirirlər ki, gənc toxucu onlardan da peşəkardır.

Dəzgahları gəzdikcə fərqli hekayəli toxucularla rastlaşırıq. Müəssisənin təzəcə ipək xalça toxunmağa başlanılan dəzgahında Sevda xanım və qızı Yeganə ilə də tanış oluruq. Sevda xanım söyləyir ki, ipək xalça toxumağın texnikası da yunda olduğu kimidir. Lakin bu xalça növünün xammalı olduqca incə və sürüşkən olduğundan üzərində səbir, diqqət və ehtiyatla işləmək lazımdır. Sapların hamarlığı isə hər toxunuşda xüsusi hüzur bəxş edir. Sevda xanım qızına ilmə vurmağı özü öyrətsə də, təvazökarlıqla onun indi özündən yaxşı toxuduğunu da dilə gətirir.

Xalçaçılarla həmsöhbət olduqca məlum oldu ki, emalatxananın ən gənc toxucusu 20 yaşlı Nərmindir. Nərmin deyir ki, bura gəlməyinə səbəbkar müəssisədə işləyən xalası olub. Lakin bir müddət sonra xalası buradan ayrılsa da, o, emalatxanada qalaraq sənəti öyrənməyə davam edib: "Öyrəndiyim müddətdə bir çox peşəkar toxucularımızdan dərs almışam. Onların əlinə baxıb üsulları mənimsəməyə çalışdıqca mənə elə gəlirdi ki, heç vaxt öyrənə bilməyəcəm. Elə ki, özüm ilk dəfə dəzgahın arxasına keçdim, onda anladım ki, bu işi bilməyin ən uğurlu yolu toxumağa başlamaqdır. Hazırda sərbəst şəkildə xalça toxumanın bir çox sirlərinə yiyələnmişəm".

65 yaşlı Rəfiqə xanım isə müəssisənin ən qocaman xalçaçısıdır. O bildirir ki, fəaliyyətdə olduğu uzun illər ərzində hər toxuduğu xalçanın özəl yeri olub. Bəzən ona elə gəlir ki, toxuduğu xalçaları digərləri onun gördüyü kimi görmür. Onlar Rəfiqə xanım üçün daha əziz, daha doğmadır.

Gülərüz, mehriban kollektivin hər bir üzvü xüsusi diqqətlə öz peşələri ilə bağlı məqamları işlərinin başındaca bizimlə bölüşürdülər. Onların sənətlərinə duyduqları sonsuz sevgi isə hər hallarından bəlli idi.

Sənətkarlarla söhbətləşdikdən sonra emalatxanadakı Qarabağ xalçalarından birinin toxunduğu dəzgahın arxsında əyləşib Dilşad Hüseynovanın müşayiəti ilə vətənimizi dünyada təmsil edəcək xalçaya bir neçə ilmə də biz atırıq. İlmə atdığımız xalçanın daha uzaqlara daşınacağı, diyar-diyar gəzəcəyi sevincini daxilən yaşayaraq fərəhlənirik və tarixmizi, mədəniyyətimizi xalçalara köçürən sənətkarların peşə bayramlarını təbrik edib xoş təəssüratlarla müəssisədən ayrılırıq.

Bir xalça bir neçə nəslə yadigardır deyirlər. İşləndikcə tarixə çevrilir, misilsizliyə yetişir. Londondakı Viktoriya və Albert muzeyinin ən qiymətli eksponatlarından olan 1539-cu ilə aid "Şeyxi Səfi" xalçamızın qürurlu taleyi isə hər xalqa nəsib olmur.

Hazırda ölkəmizdə xalçaçılıq işində yaradıcılığı ilə seçilən mərkəzlərdən biri olan "Azərxalça" Prezident İlham Əliyevin 5 may 2016-cı il tarixli sərəncamı ilə yaradılıb. Mərkəzin yaradıldığı gün eyni zamanda təqvimə Azərbaycan xalçaçılarının peşə bayramı, yəni Xalçaçı günü kimi düşüb. Dünyanın bir çox ölkələrində xalçaçılıq sənəti mövcud olsa da, ilk dəfə belə bir bayramın qeyd olunması məhz ölkəmizdə həyata keçirilib və bu gün Azərbaycan xalçaçıları qədim tariximizin izlərini naxışlarla yun, ipəklər üzərində yaşadırlar.

Bizlərə isə duyğuların ilmə-ilmə çiçəkləndiyi sənətin sahiblərini təbrik etmək düşür.

Gününüz mübarək olsun!

***Aydan XƏLİLOVA, "Azərbaycan"***

*Bakı-İsmayıllı-Bakı*

# Azərbaycan diasporu çoxmillətli və xoşməramlıdır

Bu il aprelin 22-də Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər qurultayı həm tarixi, həm də siyasi baxımdan xalqımız üçün xüsusi önəm daşıyır. 44 günlük Vətən müharibəsindəki qələbəmizdən sonra bu tədbirin Şuşa şəhərində keçirilməsinin rəmzi mənası var.

Şuşa tarixən Qarabağın paytaxtı olub və onun təməli də azərbaycanlı Pənahəli xan tərəfindən qoyulub. Bir sözlə, bu ərazinin ermənilərlə heç bir tarixi bağlılığı yoxdur. Sadəcə onlar buraya çar Rusiyası tərəfindən Cənubi Qafqazın xristianlaşdırılması üçün İran və Türkiyədən köçürülüb. Odur ki, qurultayın Şuşada keçirilməsi dünya ermənilərinə və onların havadarlarına bir mesaj idi. Azərbaycan dövləti bir daha bəyan etdi ki, bu ərazilər bizə məxsusdur və bununla bağlı heç bir müzakirə aparılmayacaq. Üstəlik, illərlə ermənipərəst dairələr və Minsk qrupu tərəfindən qaldırılan status məsələsi də Prezidentimizin təbirincə desək, gorbagor oldu.

Azərbaycanın uzun illər bu münaqişəni sülh yolu ilə həll etmək istəməsi ermənipərəst dairələr tərəfindən düzgün qiymətləndirilmədi. Onlar bunu Azərbaycan xalqının acizliyi kimi başa düşdülər. Lakin 44 günlük Vətən müharibəsində xalqımız bütün dünyaya qəhrəmanlıq dərsi keçdi. Təsəvvür edin ki, 1941-1945-ci illərin Böyük Vətən müharibəsində də fərarilik edənlər olmuşdu. Azərbaycanın 44 günlük müharibəsində isə tarixi qələbəmizi təmin edən döyüşlərdə bircə fərarilik faktı qeydə alınmamışdır. Dünya hərb tarixində bu, nadir hadisələrdən sayılır. Bütün dünya gördü ki, Azərbaycan əsgəri canından qorxmur, fərarilik etmir, şərəflə şəhid olmağa üstünlük verir.

Qələbəni bizə yaşadan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev, Azərbaycan xalqının əzmi və gücü, Azərbaycan əsgərinin Vətən sevgisi və şücaəti oldu. Ermənilər uzun illər ərzində bu torpaqları azad etməyimizə mane olmaq üçün beş, bəzi yerlərdə altı müdafiə xətti, istehkamlar qurmuş, tikanlı məftillər çəkmişdilər. Öyünürdülər, elə bilirdilər ki, bu müdafiə qurğularını yarıb keçə bilmərik. Qəhrəman Azərbaycan əsgəri bu müdafiə xətlərini cəsarətlə keçərək düşməni işğal etdikləri ərazilərimizdən qovmağa başladı.

Prezident İlham Əliyev Şuşada Zəfər qurultayında Azərbaycan əsgərinin müharibədə göstərdiyi qəhrəmanlıq barəsində demişdir: "İkinci Qarabağ müharibəsində həlak olanların böyük əksəriyyəti gənc nəslin nümayəndələri idi. Onların heç biri Qarabağda olmamışdı, bu diyarı görməmişdilər, amma onların qəlbində yaşayam milli ruh, ədalət və Vətən sevgisi onları ölümə apardı. Biz bütün dünyaya sübut etdik ki, XXI əsrdə necə müharibə aparmaq lazımdır, ləyaqətlə müharibə aparmaq lazımdır, müasir üsullarla müharibə aparmaq lazımdır və cəmi 44 gün ərzində Ermənistan ordusu tamamilə məhv edilmişdir".

Bununla dövlət başçısı dünyanın diqqətinə çatdırmaq istəyir ki, ermənilər Birinci Qarabağ müharibəsində bütün müharibə qaydalarını pozan tərəf olmuşlar. Onlar mülki əhaliyə qarşı divan tutmuş və Xocalıda soyqırımı törətmişlər. Azərbaycan əsgəri isə qisası dinc əhalidən yox, döyüş meydanında əli silahlı erməni döyüşçülərindən almışdır. Bu fakt bir daha Azərbaycan xalqının nə qədər yüksək əxlaqi dəyərlərə sahib olduğunu göstərdi.

Azərbaycan diasporu ilə erməni diasporu da köklü şəkildə fərqlənirlər. Erməni diasporu yalnız ermənilərdən, bir də onların pulla ələ aldıqları xaricdəki siyasətçilər və KİV nümayəndələrindən ibarətdir. Yəni ermənilərin mənafeyini müdafiə edənlər onların muzdlularından başqa bir kimsə deyil. Azərbaycan diasporu isə çoxmillətlidir. Diasporumuzun tərkibində azərbaycanlılarla yanaşı, digər xalqların övladları da var. Onlar heç bir maddi təmənna güdmədən öz tarixi vətənlərini müdafiə edərək Azərbaycan həqiqətlərini dünyaya yayırlar. Səbəbi çox sadədir - onlar ölkəmizdə yaşadıqları dövrdə heç bir ayrı-seçkiliyə məruz qalmamışlar. Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər qurultayında ölkəmizdə yaşamış müxtəlif xalqların nümayəndələrinin iştirak etməsi də bunu sübut edir.

Məlumdur ki, erməni diasporunun formalaşmasının tarixi yüz ildən çoxdur. Azərbaycan diasporu isə ölkəmiz müstəqillik qazandıqdan sonra formalaşmağa başlamışdır, ancaq buna baxmayaraq, dünyada ciddi bir qüvvəyə çevrilə bilmişdir. İkinci Qarabağ müharibəsi zamanı bunun şahid olduq. Ermənilər bizim diasporun gücünü gördükdə çaşqınlığa uğrayaraq cinayətə əl atmağa başladılar. Dünyada özlərini məzlum xalq kimi təqdim edənlərin iç üzünü hamı gördü. Onlar bu qanunazidd hərəkətlərinə görə yaşadıqları ölkədə hətta cinayət məsuliyyətinə də cəlb olundular.

Dövlət başçısı qurultayda dünya azərbaycanlılarını daha fəal olmağa çağırdı. Bildirdi ki, onların fəallığı Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, ölkəmizin maraqlarının qorunması üçün əhəmiyyətlidir. Həmçinin vurğuladı ki, dövlətlərarası münasibətlər müstəvisində bu, önəmli amildir.

Prezident İlham Əliyev qurultayda dünya azərbaycanlılarına postmüharibə dövründə baş verən siyasi proseslər və sülh danışıqları barədə ərtaflı məlumat verdi. Dövlət başçısı bildirdi ki, Ermənistan tərəfi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində danışıqlar aparmağa razılıq verib. Qalib ölkə kimi sülh danışıqlarının aparılması üçün beş prinsipdən ibarət təklifləri biz vermişik: "Beləliklə, Ermənistan rəhbərliyi rəsmən bəyan etdi ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Azərbaycana qarşı hər hansı bir ərazi iddiası yoxdur və gələcəkdə də olmayacaq". Bu, Ermənistan dövlətinin rəsmi mövqeyidir. Ancaq bu ölkədəki müxalif və revanşist qüvvələr hələ də sərsəmcəsinə ölkəmizə qarşı ərazi iddiası irəli sürməkdə davam edir. Bir həqiqət isə ağlı başında olan erməni siyasətçilərinə, elə revanşistlərə də, onların havadarlarına da aydındır, yenidən müharibə olsa, Ermənistanın bir dövlət kimi mövcudluğu sual altında olacaq. Bunu dövlət başçımız dəfələrlə açıq və kəskin şəkildə bəyan etmişdir.

Prezident İlham Əliyev Zəfər qurultayında Ermənistandakı revanşist qüvvələrə və onların havadarlarına xəbərdarlıq edərək demişdir: "Ancaq hər kəs bilməlidir, bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər. Həm döyüş qabiliyyəti, həm milli ruh, həm mənəvi ruh, silah-sursat, texnika, yeni döyüşkən hərbi birləşmələrin yaradılması - bütün bunları biz məhz ona görə edirik ki, erməni faşizminin hələ də təzahürləri var və biz hər an erməni faşizmini, - əgər bir daha baş qaldırsa, - əzməyə hazır olmalıyıq və hazırıq. Ermənistan bunu yaxşı başa düşür və heç vaxt bunu unutmamalıdır".

***Rüstəm KAMAL, "Azərbaycan"***



# "QARABAĞ"ın 9-cu ZƏFƏRİ

## Ağdam klubu ölkə çempionluğunu erkən qazandı

Azərbaycan Premyer Liqası
25-ci tur

"Qarabağ" - "Sabah" - 1:1
**Qol:** Kadi Borges, 47 - Kristian da Silva, 60
**Qırmızı vərəqə:** Patrik Andrade, 59
**Hakimlər:** Rauf Cabarov, Namiq Hüseynov, Cavanşir Yusifov, Nicat İsmayıllı





**Futbol üzrə Azərbaycan Premyer Liqasında 2021-2022-ci il mövsümündə Ağdamın "Qarabağ" komandası tarixində 9-cu dəfə çempionluğa yiyələnib. "Sabah" komandası ilə qarşılaşan ağdamlılar 47-ci dəqiqədə Kadi Borgeslə hesabı açsa da, qonaqların heyətində Kristian da Silva bərabərlik qoluna imza atıb. Bir xal Qurban Qurbanovun komandasına qızıl medalları təmin etmək imkanı verib.**

Xal hesabını 59-a çatdıran ağdamlılar finişə üç tur qalmış qələbəni bayram ediblər. Bu eyni zamanda "Qarabağ"ın təmsil etdiyi Ağdam şəhərinin işğaldan azad olunduqdan sonra ilk çempionluğudur.

Ağdam klubunun baş məşqçisi Qurban Qurbanov isə səkkizqat ölkə çempionu olmaqla bu göstəricidə mütləq rekordçudur. Həqiqətən "Qarabağ" klubu və onun baş məşqçisi, sözün əsl mənasında, Azərbaycan idmanında, onun dünyada öz sözünü deməsində fövqəladə işlərə imza atmaqdadır. Bu gün "Qarabağ" Azərbaycanın ən populyar, sevilən futbol klubudur. Elə Azərbaycanın sərhədlərindən kənarda da ən çox tanınan futbol komandası məhz "Qarabağ"dır. Şübhəsiz ki, bu uğurda bir baş məşqçi kimi Qurban Qurbanovun əməyi yüksəkdir. Qurban Qurbanov "Qarabağ"a baş məşqçi təyin edildikdən sonra ardıcıl bir neçə mövsüm komanda çempionluq üzü görmədi. Lakin klub rəhbərliyi gənc mütəxəssisə inandı, onunla işbirliyini davam etdirdi. Nəticədə çempionluqlar və avrokuboklardakı uğurlar bir-birini əvəzləməyə başladı: 9 dəfə ölkə çempionluğu, 6 dəfə UEFA Avropa Liqasının, bir dəfə isə Çempionlar Liqasının və Konfrans Liqasının qrup mərhələsinə və pley-off-una vəsiqə...

Ən önəmli məqamlardan biri isə budur ki, məhz Qurban Qurbanovun sayəsində "Qarabağ" təkcə futbol oynamadı, eyni zamanda getdiyi hər ölkədə Qarabağ həqiqətlərini dünyaya çatdırdı. İşğal altında olan şəhəri - Ağdamı təmsil etdiyini hamı bildi. Yüz milyonların qarşısında nümayiş etdirdiyi oyunlarla döyüşkən və cəsarətli komanda olduğunu, döyüşkənliyin hər bir azərbaycanlının ruhunda yer aldığını nümayiş etdirdi.

Əlbəttə, bunun əsas səbəbi uzunmüddətli fəaliyyət proqramı, iş icraçılarının peşəkarlığı, işinə sevgi və hörmətdən qaynaqlanırdı. Məhz bunun sayəsində cari mövsüm "Qarabağ" UEFA Konfrans Liqasının pley-off mərhələsinə vəsiqə qazanmaqla Azərbaycan futbol tarixinə adını qızıl hərflərlə yazdırdı. Təbii ki, bütün bu uğurlarda klub rəhbərliyinin və baş məşqçi kimi Qurban Qurbanovun uzun illər ərzində apardığı məqsədyönlü fəaliyyət strategiyası ön planda yer alır.

Qarşıda isə komandanı UEFA Çempionlar Liqasına qrup mərhələsinə qatılmaq üçün gərgin qarşılaşmalar gözləyir. İnanırıq ki, Ağdam klubu 5 il bundan əvvəl imza atdığı uğuru ən azı təkrarlayacaq və azarkeşləri yeni-yeni qələbələrlə sevindirəcək.

Qeyd edək ki, "Neftçi" və "Qarabağ"dan başqa, "Kəpəz" 3, "Şəmkir", "Bakı", "İnter" (indiki "Şamaxı") hərəyə 2, "Turan" və "Xəzər-Lənkəran" hərəyə 1 çempionluq qazanıb. Yarımçıq qalan 2001-2002-ci il mövsümünün qalibi isə müəyyənləşməyib.

### Azərbaycan çempionları:

- 1992. "Neftçi" (Bakı)
- 1993. "Qarabağ" (Ağdam)
- 1993-1994. "Turan" (Tovuz)
- 1994-1995. "Kəpəz" (Gəncə)
- 1995-1996. "Neftçi" (Bakı)
- 1996-1997. "Neftçi" (Bakı)
- 1997-1998. "Kəpəz" (Gəncə)
- 1998-1999. "Kəpəz" (Gəncə)
- 1999- 2000. "Şəmkir"
- 2000 -2001. "Şəmkir"
- 2003-2004. "Neftçi" (Bakı)
- 2004-2005. "Neftçi" (Bakı)
- 2005-2006. "Bakı"
- 2006-2007. "Xəzər-Lənkəran"
- 2007-2008. "İnter" (Bakı)
- 2008-2009. "Bakı"
- 2009-2010. "İnter" (Bakı)
- 2010-2011. "Neftçi" (Bakı)
- 2011-2012. "Neftçi" (Bakı)
- 2012-2013. "Neftçi" (Bakı)
- 2013-2014. "Qarabağ" (Ağdam)
- 2014-2015. "Qarabağ" (Ağdam)
- 2015-2016. "Qarabağ" (Ağdam)
- 2016-2017. "Qarabağ" (Ağdam)
- 2017-2018. "Qarabağ" (Ağdam)
- 2018-2019. "Qarabağ" (Ağdam)
- 2019-2020. "Qarabağ" (Ağdam)
- 2020-2021. "Neftçi" (Bakı)
- 2021-2022. "Qarabağ" (Ağdam)

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# ANAMA: Ötən ay 1701 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən minatəmizləmə əməliyyatları barədə aylıq məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, aprelin 1-dən 30-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 341, tank əleyhinə 482 mina və 673 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həftə ərzində 1701,5 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

2020-ci il noyabrın 10-dan bu il aprelin 30-dək isə piyada əleyhinə 11 min 9, tank əleyhinə 5444 mina və 15 min 20 ədəd partlamamış hərbi sursat aşkarlanıb.

Bu müddət ərzində 9568,1 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.




# Yəmən uzunmüddətli sülh istəyir

## Ölkənin Prezident Şurası BMT-nin təşəbbüsünü dəstəkləyir

BMT-nin təşəbbüsü ilə aprel ayında Yəməndə elan edilən 2 aylıq atəşkəs rejimi uzadıla bilər. Çünki ölkənin Prezident Şurası uzunmüddətli atəşkəsin tərəfdarıdır. Bu barədə Prezident Şurasının sədr müavini Tarık Salih məlumat verib.



"SABA" agentliyinin məlumatına görə, Tarık Salih deyib ki, Hövsilər mövqelərindən əl çəkməsələr də, onlar qardaş və dost ölkələrin atəşkəsə nail olmaq və onun daimi möhkəmləndirməsi yolunda səylərini dəstəkləyirlər. O, "Ənsər Allah" (Hövsilər) hərəkatından olan qiyamçıları atəşkəsi pozmaqda ittiham edib.

Salih hövsilərin Maribin cənub cəbhələrinə ağır silah və nəqliyyat vasitələrini səfərbərliyə almaq və Taizin ağır mühasirəsini qorumaq məqsədilə atəşkəsdən istifadə etdiyini bildirib.

Hövsilər hələ ki, bu barədə şərh verməyiblər.

Xatırladaq ki, bir müddət əvvəl BMT-nin Yəmən üzrə xüsusi elçisi Hans Qrundberq ramazan ayının daxil olması münasibətilə aprelin ilk günlərində Yəmən hökuməti ilə Hövsilər arasında iki aylıq atəşkəs elan edildiyini bildirmişdi. Münaqişə tərəfləri Yəmən ərazisində hava, yerüstü və dəniz əməliyyatlarını dayandırmağa razılaşmışlar. Bundan başqa, onlar Hodeyda limanlarına yanacaq daşıyan gəmilərin girişinə və Səna aeroportuna kommersiya reyslərinə razılıq vermişlər.

Grundberq həmçinin qeyd edib ki, yaxın zamanlarda tərəflər Taizdə və Yəmənin digər əyalətlərində yolların açılmasını müzakirə edəcəklər.

Bəyanatda qeyd olunub ki, barışıq iki ay müddəti bitdikdən sonra tərəflərin razılığı ilə uzadıla bilər. İranın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Səid Xatibzadə Yəmən Ali Siyasi Şurasının sülh təşəbbüsünü alqışlayıb. Bu barədə İranın "Mehr" xəbərlər agentliyi xəbər yayıb. Səid Xatibzadə qeyd edib ki, bu təşəbbüsün reallaşmasına ciddi yanaşma qəbul olunacağı təqdirdə Yəmən müharibənin dayandırılmasına yol aça biləcək.

"Ümid edirik ki, biz Yəməndə münaqişənin dayandırılmasını və milli barışığı görəcəyik, humanitar məsələlərə prioritet diqqət yetirərək əsirlərin dəyişdirilməsinə kömək edəcəyik", - deyə iranlı diplomat bildirib.

Xatırladaq ki, Səudiyyə Ərəbistanının əsas rol oynadığı Yəməndə sülhün bərpası üzrə beynəlxalq koalisiya da atəşkəs rejiminin tətbiq olunduğunu bəyan etmişdi. Bu barədə koalisiyanın rəsmi nümayəndəsi Türki Malikinin bəyanatına istinadən "Al-Hadath" agentliyi xəbər vermişdi.

Maliki bildirmişdi ki, atəşkəs rejimi ölkədə vəziyyətin tənzimlənməsinə və münaqişə tərəfləri arasında danışıqlar üçün əlverişli zəmin yaradılmasına yönəlib. "Biz məsləhətləşmələri uğurlu etmək və sülhməramlılıq üçün əlverişli mühit yaratmaq üçün Yəmən daxilində hərbi əməliyyatların dayandırılmasını elan edirik", - deyə o vurğulamışdı.

Xatırladaq ki, Yəməndə 2014-cü ildən silahlı münaqişə davam edir. Bu qarşıdurmada bir tərəfdən şiələrin "Ənsər Allah" hərəkatının qiyamçıları və Yəmənin devrilmiş prezidenti Əli Abdullah Salehin tərəfdarları, digər tərəfdən isə Prezident Əbdürəbb Mənsur Hadiyə sadiq olan hökumət qoşunları iştirak edirlər. Bundan əlavə, 9 ərəb ölkəsindən ibarət qrupa rəhbərlik edən Səudiyyə Ərəbistanı Yəmənə ölkənin keçmiş prezidentinə hakimiyyəti geri qaytarmaq və inqilabçı qüvvələrin hakimiyyətə gəlməsinə mane olmaq üçün hərbi əməliyyatlar keçirir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

## Bölgə xəbərləri

### Abşeronda şəhid Vüsal Tahirovun doğum günü qeyd edilib



Abşeronda Xüsusi Təyinatlı Qüvvələrin giziri Vüsal Tahirovun doğum günü qeyd edilib. Rayon ictimaiyyətinin nümayəndələri, şəhid ailələri və qazilər İkinci Fəxri xiyabanda uyuyan şəhidin məzarını ziyarət edərək vətənimizin bütövlüyü uğrunda canından keçmiş bütün şəhidlərimizin ruhlarına dualar oxumuş, məzarları üzərinə tər çiçəklər düzmüşlər.

Bildirilib ki, hər bir azərbaycanlı kimi Vüsal Tahirov da torpaqlarımızın işğalı ilə heç vaxt barışmayıb. Bu səbəbdən də Vətən müharibəsi zamanı silaha sarılaraq cəbhəyə yollanıb və düşmənin qarşısında sipər olub. Tanıyanlar Vüsalın keçdiyi döyüş yolundan söhbət açaraq göstərdiyi şücaətlərdən danışıblar. Ziyarətə gəlmiş məktəblilər isə vətənpərvərliyə və qələbəyə aid şeirlər səsləndiriblər.

Anım tədbiri daha sonra Xırdalan şəhərindəki Heydər Əliyev Mərkəzində davam edib. Burada şəhidlərin müqəddəs xatirəsi bir dəqiqəlik sükutla yad olunub və Dövlət himni səsləndirilib. Bildirilib ki, Abşeronda şəhid və qazi ailələrinə böyük diqqət və qayğıkeşlik göstərilir. Sonda Abşeron məktəblilərinin və incəsənət nümayəndələrinin iştirakı ilə bədii kompozisiya təqdim olunub və şəhid Vüsal Tahirovun həyat və fəaliyyətindən söz açılıb.

Qeyd edək ki, Vüsal Tahirov ölümündən sonra "Vətən uğrunda" , "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medallarına layiq görülüb.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

### Lənkəranda şəhidin xatirə kompleksi açılıb



Lənkəranın Parakənd qəsəbə tam orta məktəbinin həyətində bu təhsil ocağını bitirmiş birinci Qarabağ müharibəsi şəhidi Mikayıl Nəzərovun xatirə kompleksinin açılışı olub.

Tədbirdə şəhidin keçdiyi döyüş yolu və göstərdiyi qəhrəmanlığı barədə söz açılıb. Xatirə kompleksinin açılışının şəhidin 60 illik yubileyinə təsadüf etdiyi qeyd olunub. Şəhidlərin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı görülən işlərin və irəli sürülən təşəbbüslərin gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında müstəsna əhəmiyyət kəsb etdiyi bildirilərək Parakənd qəsəbə tam orta məktəbinin şəhid Mikayıl Nəzərovun adını daşıdığı vurğulanıb.

Şəhidin ailə üzvləri adından çıxış edən qızı Ramilə Nəzərova ölkəmizdə şəhidlərə, qazilərə və müharibə iştirakçılarına göstərilən diqqətdən razılığını bildirib.

Sonda məktəbin şagirdlərinin ifasında şəhidlərimizə həsr olunan şeirlər səsləndirilib.

*Ağaddin BABAYEV,*
*"Lənkəran" qəzetinin əməkdaşı*

### Qazaxıstanlılar ermənilərin Gəncədə törətdikləri vəhşiliyin şahidi olublar

Qazaxıstan ictimaiyyətinin və kütləvi informasiya vasitələrinin nümayəndələri Gəncəyə səfər etmişlər. Qonaqlar Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tərəfindən Gəncədə törədilən terror nəticəsində dağılan ərazilərə baş çəkmişlər.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov qonaqlara erməni terroru barədə ətraflı məlumat verərək diqqətə çatdırmışdır ki, Vətən müharibəsi dövründə hərbi əməliyyatlar zamanı məğlubiyyətə uğrayan Ermənistan Azərbaycan Silahlı Qüvvələrinin uğurlu hücum əməliyyatlarının qarşısını almaq, bu hücumları dayandırmaq, xalq arasında qorxu və vahimə yaratmaq məqsədilə cəbhədən uzaq yaşayış məntəqələrini, o cümlədən Gəncəni qadağan edilmiş raketlərdən atəşə tutmuş və nəticədə mülki vətəndaşlar arasında böyük tələfatlar olmuşdur. Təkcə Gəncədə aralarında qadın və uşaqlar da olmaqla 26 mülki şəxs həlak olmuş, 130-dan çox dinc sakin yaralanmışdır. Şəhərdə mülki infrastruktur obyektlərinə, tarix-mədəniyyət abidələrinə, o cümlədən nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir.

Qonaqlar Ermənistanın törətdiyi bu terror aktını pisləmiş və həlak olanların xatirəsinə ehtiram əlaməti olaraq dağıntılar olan əraziyə güllər düzmüşlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Əhməd Cavad - 130

# Vətən sevdalı şair

**Ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyəti rus imperiyasının XI ordusu tərəfindən süquta uğradıldıqdan və ölkəmiz bolşevik-erməni silahlı birləşmələri tərəfindən işğal edildikdən sonra respublikamızın bir çox milli düşüncəli yazıçıları, şairləri, dövlət xadimləri sovet quruluşunun əleyhinə çıxdıqlarına görə işgəncələrə məruz qaldılar, həbsxanalara salındılar, sürgünə göndərildilər, gizli və açıq şəkildə güllələndilər. Bəziləri isə bu haqsızlıqlara görə Azərbaycanı tərk etməyə məcbur oldular, xarici ölkələrdə mühacir həyatı yaşadılar.**



XX əsrin sonlarında dövlət müstəqilliyimizin bərpasından sonra tarixin yaddaşından silinməyən belə insanlar zəngin dövlətçilik təcrübəsinə malik Ulu Öndər Heydər Əliyevin qədirbilənliyi sayəsində sağlam həyata qaytarıldılar. Onlardan biri də Azərbaycan ədəbiyyatında istiqlal şairi kimi tanınan Əhməd Cavaddır.

Xalqımızın milli istiqlal mübarizəsinə böyük töhfələr vermiş vətənpərvər şair Əhməd Cavadın anadan olmasının 130-cu ildönümünün dövlət səviyyəsində qeyd olunması barədə Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncam böyük sənətkarın məsləkinə, qiymətli və çoxşaxəli yaradıcılığına dərindən bələd olmaq baxımından olduqca qiymətlidir. Bu barədə dövlət başçısının 20 aprel 2022-ci il tarixli sərəncamında deyilir: "Əhməd Cavad Azərbaycan ədəbi-bədii fikri tarixində istiqlal şairi kimi özünəməxsus dəst-xəti ilə seçilən, müstəsna mövqeyə malik söz ustalarındandır. Bütün qəlbi ilə bağlı olduğu doğma xalqının müstəqillik ideallarına həyatı boyu sadiq qalmış sənətkarın azadlıq motivləri ilə zəngin yaradıcılığı milli məfkurədən yoğrulmuşdur. Azərbaycanın dövlət rəmzlərini yüksək şeiriyyətlə alovlu tərənnüm edən şairin müstəqil dövlətçiliyə sevgi aşılayan əsərləri dərin vətənpərvərlik duyğularının heyrətamiz poetik ifadəsidir. Əhməd Cavad daim ictimai-siyasi hadisələrin qaynar nöqtələrində olmuş, dövrün parlaq şəxsiyyətləri sırasında 1930-cu illərin ağır repressiyalarına məruz qalaraq, sovet totalitarizminin qurbanına çevrilmişdir".

Azərbaycan Xalq Cümhuriyyəti dövrünün ən məşhur şairi olan Ə.Cavadın şəxsi həyatı, ictimai fəaliyyəti və yaradıcılığı uzun müddət xalqdan gizlədilmişdir. Lakin Azərbaycan öz tarixi müstəqilliyinə qovuşduqdan sonra böyük şəxsiyyətin zəngin yaradıcılığı, ictimai-siyasi fəaliyyəti tədqiqatçı və araşdırmaçıların tez-tez üz tutduqları ünvanlara çevrildi. Əsərləri toplanıb nəşr olundu, haqqında elmi məqalə və monoqrafiyalar yazıldı, orta və ali məktəb dərsliklərində həyat və yaradıcılığı öyrənilməyə başlandı.

Görkəmli şair, tərcüməçi, maarifçi-pedaqoq və ictimai xadim, ən nəhayət, Azərbaycan Respublikası Dövlət Himninin sözlərinin müəllifi Əhməd Cavad (Cavad Məhəmmədəli oğlu Axundzadə) 1892-ci il mayın 5-də Şəmkir rayonunun Seyfəli kəndində, Qaraqocalı tirəsində ruhani ailəsində dünyaya gəlmişdir. Cavad uşaq ikən yazıb-oxumağı atası molla Məhəmmədəlidən öyrənib. Sonra kənddəki üçillik mollaxanada təhsil alıb. Yaxşı yaddaşı olan Cavad 7-8 yaşlarında Qurani-Kərimi sərbəst oxuyur, bəzi surələri əzbərdən deyirmiş. Lakin 1900-cü ildə atası vəfat etdikdən az sonra onun Gəncədə yaşayan qardaşlarının tövsiyəsi ilə Yaxşı ana Cavadı da götürüb Gəncəyə köçür və xalça fabrikində işə düzəlir. Cavadın savadına, gələcəyinə böyük ümidlərlə baxan əmilərinin dəstəyi ilə Cavad 1906-cı ildə Yelizavetpol (Gəncə) Müsəlman-Ruhani Seminariyasına qəbul olur. Bu zaman o, seminarist yoldaşlarından Quranı-Kərimi səlist və ahəngdar səslə oxuması, habelə gözəl şeirlər yazması ilə seçilirdi. Cavad yaxşı oxuduğuna və incə ruhlu şeirlər yazdığına görə müəllimlərinin sevimlisi idi. 1910-cu ildə Cavadın müəllimi Abdulla Tofiq (Abdulla Sur) Bakıya dostu Abdulla Şaiqə göndərdiyi məktubunda yazırdı: "Tələbələrimin içində Cavad adlı gənc bir yazar var. Mənə oxuduğu ilk mənzumələri gələcəyə böyük ümidlər verir. Lisanı (Dili - R.S) sadə və gözəldir".

Gəncə mədrəsəsində Hüseyn Cavid, Abdulla Sur, Savad Cavad, İdris Axundzadə, Mirzə Abbas Abbaszadə, Rza Zaki, Əli Razi, Əli Nəzmi və digər görkəmli pedaqoqlardan dərs alan Cavad Axundzadə 1912-ci ildə seminariyanı 10 fəndən əla qiymətlərlə bitirir. Həmin ili Çar Rusiyasının Osmanlı Türkiyəsinə qarşı Balkan yarımadası uğrunda müharibəyə başlayanda yüzlərlə Azərbaycan gənci kimi Əhməd Cavad müəllimi olmuş İdris Axundzadə, İsa Əlizadə, Əli Əsədulla ilə birlikdə "Qafqaz könüllü hissəsi"nə qatılaraq İstanbula getmiş, türk qardaşları ilə çiyin-çiyinə vuruşmuşdur.

1913-cü ildə Balkan müharibəsindən geri dönən Əhməd Cavad Gəncədə Qafqazın Şeyxülislamı Məhəmməd Pişnamazzadəyə imtahan verərək "şərəfli türk və fars dilləri müəllimi" adını alır, Gəncədə 1 nömrəli qızlar məktəbində və Gəncə ətrafı yaşayış məntəqələrində müəllimlik fəaliyyətinə başlayır. Məktəblərdə rus, erməni uşaqlarının say çoxluğunu görəndə hardadır mənim millətimin balaları, - deyə tanışlarına, dostlarına və tanımadığı qapılara üz tutub uşaqlarını məktəbə yazdırmağa çalışıb, savadsızlığın ləğvi üçün kurslarda təmənnasız məşğələlər keçib. 1913-cü ildən başlayaraq Əhməd Cavadın şeirləri dövrün qəzet və dərgilərində nəşr olunmağa başlayır.

1914-cü ildə Ələkbər bəy Rəfibəyli və Nəsib bəy Yusifbəylinin zəmanəti ilə Gəncədə doktor Xosrov paşa Sultanov tərəfindən yaradılmış "Xeyriyyə cəmiyyəti"nin katibi və cəmiyyətin sədri Xosrov bəyin müavini təyin edilir. Cəmiyyətin xətti ilə dəfələrlə Qars, Ərzurum ərazilərində və Batum yaxınlığında daşnaklar tərəfindən kütləvi qırğınlara məruz qalmış, yerləyeksan olunmuş kəndlərdə olur, təsadüfən sağ qalan uşaqlara, qocalara, kimsəsizlərə, imkansızlara yardım edir.

Əhməd Cavad şeirlərinin birində özünün portretini cızaraq:

*Mən çeynənən bir ölkənin,*
*Haqq bağıran səsiyəm,*

- deyən şairin şeirlərinin əsas leytmotivi xalqı itaətkar vəziyyətə salmaq istəyənlərə qarşı milləti oyatmaq, azadlıq, müstəqillik uğrunda mübarizəyə səfərbər etmək idi. Yaradıcılığa lirik şeirlərlə başlayan şairin 1916-cı ildə "Qoşma", 1919-cu ildə isə "Dalğa" adlı kitabları işıq üzü görür.

Şairin yaradıcılığının ən məhsuldar və parlaq dövrü 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək olmuşdur. Bu dövr ərzində Azərbaycan ədəbiyyatına nadir incilər bəxş etmişdir. Cümhuriyyətin tərənnümçüsü olan Əhməd Cavadın yaradıcılığı xüsusi bir ilhamla, ovqatla qanadlanmışdır. İdealı, məsləki yeni yaranmış milli dövlətə şərəfli xidmət idi. Bu səbəbdəndir ki, akademik, ədəbiyyatşünas-tənqidçi Yaşar Qarayev yazır: "İntibah" deyəndə ilkin xatırlanan Nizami olur, "Məhəbbət" deyəndə birinci Füzulinin adı çəkilir. "Cümhuriyyət" deyəndə yada hamıdan əvvəl Əhməd Cavad düşür". Əhməd Cavad 1918-ci ildə yazdığı bir şeirində yeni yaranmış Cümhuriyyəti belə vəsf edirdi:

*Mən röyada nazlı yarın,*
*Tellərini hörmüşdüm.*
*Bu sevincli zamanların,*
*Röyasını görmüşdüm.*

Əhməd Cavad dövrün böyük şəxsiyyətlərindən və ziyalılarından olan, cümhuriyyətin rəsmi orqanı "Azərbaycan" qəzetinin redaktoru Üzeyir bəy Hacıbəyli ilə yaxın münasibətdə olmuşdur. Görüş günlərinin birində Üzeyir bəy dostunun "Azərbaycan marşı" şeirini oxuyaraq bəyənir. Odur ki, 1919-cu ildə iki hürriyyət aşiqi, xalqımızın iki böyük oğlu Üzeyir bəy Hacıbəyli və Əhməd Cavad bu şərqi əsasında Azərbaycan Xalq Cümhuriyyətinin himnini yazmaq qərarına gəlirlər. Və çox keçmədən Azərbaycan parlamentində sözləri Əhməd Cavadın, musiqisi Üzeyir bəy Hacıbəylinin olan bu marş Dövlət himni olaraq səslənir. Sovet dönəmində məhkumluq həyatı yaşayan bu möhtəşəm himn 70 illik ayrılıqdan sonra - müstəqil Azərbaycanın Dövlət Himni kimi dünyanın ən böyük salonlarında, dövlət tədbirlərində, idman meydanlarında, beynəlxalq tədbirlərdə əzəmətlə səslənir. Ümummilli Lider Heydər Əliyev demişdir: "Azərbaycanın gözəl himni var. Sevindirici haldır ki, bu himn hələ 1918-ci ildə yazılıb. Bunun müəllifi bizim böyük bəstəkarımız Üzeyir Hacıbəyovdur. Himnin sözlərini böyük şairimiz Əhməd Cavad yazıb. Onun musiqisi də çox gözəldir, sözləri də çox mənalıdır, gözəldir".

Əhməd Cavadın unudulması mümkün olmayan belə möhtəşəm şərqilərindən biri də 104 il bundan əvvəl - 1918-ci il mayın 1-də Gəncədə qələmə aldığı "Çırpınırdın, Qara dəniz " kimi məşhurlaşan "Qara dəniz" şeiridir. Türklüyümüzün, mübarizliyimizin əks-sədası olan bu şeir Türkiyədə illərdir ki, az qala, himn qədər kütləvi şəkildə oxunur və sevilir. Bu əsərin populyarlığının səbəblərindən biri də qardaş ölkədə "Mehtər marşları" adı ilə tanınan milli marşlar sırasında xüsusi yer tutmasıdır. Sözləri Əhməd Cavada, musiqisi Üzeyir bəy Hacıbəyliyə məxsus bu şərqinin möhtəşəmliyi qürurvericidir.

Görkəmli şairimizin ictimai-siyasi fəaliyyətinin ən parlaq dövrü cümhuriyyətin yaranması və inkişafı illərinə təsadüf edir. Əhməd Cavad istedadlı və vətənpərvər gənc olaraq cümhuriyyət qurucuları sırasında nüfuz qazanır. Ona böyük ümidlər bəslənilirdi. Odur ki, milli hökumətin daxili və xarici siyasətində iştirakı üçün 1918-ci ildə ona Gəncə qubernatoru tərəfindən xarici pasport verilir. AXC-nin rəsmi nümayəndəsi kimi o sərbəst şəkildə İrana və Türkiyəyə gedib-gələ bilir, rəsmi məclislərdə dövləti təmsil edirdi. Eyni zamanda bədii yaradıcılığından da qalmır, maarifçilik işləri ilə də məşğul olurdu.

1920-ci il aprelin 28-də Azərbaycan rus-erməni bolşevik silahlı birləşmələri tərəfindən işğal edildikdən sonra Əhməd Cavad ailəsi ilə birlikdə Qusarın Xuluq kəndinə (o vaxt Qubanın inzibati ərazisi hesab edilirdi) köçərək orada müəllim, sonra Quba Xalq Maarif şöbəsinin müdiri işləyir. 1922-ci ildə Azərbaycan Ali Pedaqoji İnstitutuna (indi Azərbaycan Dövlət Pedaqoji Universiteti) qəbul olduğu üçün Bakıya köçür, savadsızlığı ləğvetmə kurslarında və Nərimanov adına Pedaqoji Texnikumda müəllimlik fəaliyyətini davam etdirir, bununla yanaşı, Bakı ədəbi mühitində zəngin ənənələrə malik Azərbaycan ədəbiyyatında yeni bir şəlalə çağlamağa başlayır.

Xalqın mənəvi ruhunu şeirlərində dolğun əks etdirən Ə.Cavad 1924-1926-cı illərdə Azərbaycan Şura Yazıçıları Cəmiyyətinin məsul katibi vəzifəsində çalışır. Bu dövrdə şairin yaradıcılığına qısqanclıqla yanaşanlar, onu gözü götürməyənlər də tapılır. O, şər və böhtanından, habelə rejimin sıxıntılarından can qurtarmaq üçün 1929-cu ilin sonlarında Gəncəyə köçməyə məcbur olur. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda (indi Azərbaycan Dövlət Aqrar Universiteti) Türk və rus dilləri kafedrasında müəllim, dosent, kafedra müdiri, Gəncə Dram Teatrında ədəbi hissə müdiri vəzifələrində işləyir. 1933-cü ildə ona professor adı verilir. Gəncə Dövlət Dram Teatrının sifarişi ilə Əhməd Cavad V.Şeksprin "Qtello", "Romeo və Cülyetta", "Yuli Sezar" və s. əsərlərini Azərbaycan dilinə tərcümə edir, tamaşaya qoyulur. Ə.Cavad 1934-cü ilin iyun ayında Azərbaycan Yazıçılarının Gəncə filialından Şura yazıçılarının Bakıda keçirilən V qurultayına nümayəndə seçilir. Həmin qurultayda Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul edilir və "Azərnəşr"də işləmək üçün dəvət alır. Şair yenidən Bakıya köçməli olur. Bakıda yaşadığı müddətdə rejimlə nə qədər ehtiyatlı davransa da, nə qədər məhsuldar yazıb-yaratsa da, onu bir an gözdən qoymur, rahat buraxmırlar. Hər şeirindən sonra haqsız tənqidə məruz qalır. Sinəsi söz dustağı, özü isə göz dustağı olan Əhməd Cavad üçüncü dəfə 1937-ci il martın 21-də müəllimi Hüseyn Cavid və Gəncədə seminariyada bir yerdə oxuduğu şəmkirli tələbə yoldaşı Vəli Xuluflu ilə bir gecədə həbs edilir. Səkkiz ay NKVD zirzəmisində işgəncələrə məruz qalan 45 yaşlı Əhməd Cavad 1937-ci il oktyabrın 12-dən 13-nə keçən gecə qətlə yetirilir.

Bu amansız faciədən üç-dörd gün sonra şairin ömür-gün yoldaşı Şükriyyə xanım həbs olunur, Bayıl türməsində işgəncələrə məruz qalır, 4 uşağı kimsəsiz qalan Şükriyyə xanım "xalq düşməni"nin həyat yoldaşı olaraq 8 il müddətinə Qazaxıstana sürgün edilir. Övladları Aydın, Tukay və Yılmaz çətin tərbiyə olunan uşaqlar düşərgəsinə verilir, qardaşların böyüyü Niyazi həbsxana həyatı yaşamalı olur.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

## Xurşidbanu Natəvan - 190

# Şad olan ruh



**XIX əsrin tarixi mənzərəsi Azərbaycan ədəbiyyatında çox güclü inkişaf meylləri ilə xarakterikdir. Bu meylləri yaradıb irəli aparanlar isə dövrün ədəbi mühitində, düşüncə tərzində parlaq imzaları əks olunan yaradıcı şəxsiyyətlərdir.**

Belə söz ustalarından biri də Azərbaycan ədəbiyyatı tarixində diqqətəlayiq yer tutan, Şərq poetik ənənələrinə sədaqətilə seçilən, daim bu ruhda yazıb-yaradan, insana məhəbbət, həqiqətə inam hissi aşılayan, zərif lirizmə malik və incə bədii boyalarla zəngin bir irs qoyub getmiş Xan qızı Xurşidbanu Natəvandır. O, XIX əsrdə yaşayıb-yaratmış Azərbaycan şairləri arasında çox yüksək məqam sahibi idi. Adının hər zaman böyük hörmətlə xatırlanması, mənəvi irsinə verilən yüksək dəyər şairin ədəbi yaradıcılığı ilə yanaşı, həm də ictimai fəaliyyətindən irəli gəlirdi. Onun başçılıq etdiyi ədəbi məclislər ətrafında dövrün qabaqcıl ziyalılarını toplamış və Qarabağ ədəbi mühitinin inkişafına güclü təsir göstərmişdir.

Xurşidbanu Natəvanın yaradıcılığı həmişə diqqət mərkəzində olmuşdur. Prezident İlham Əliyevin sərəncamı ilə bu il Azərbaycan bədii fikrinin görkəmli siması olan Xurşidbanu Natəvanın anadan olmasının 190 illiyi dövlət səviyyəsində qeyd ediləcək.

### Şeir-sənət sevgisi

Dövrün görkəmli şairi 1832-ci il avqustun 6-da Şuşada məşhur Qarabağ xanı İbrahim xan Cavanşirin oğlu Mehdiqulu xanın ailəsində doğulmuşdu. Mehdiqulu xan qızına anası Xurşidbanunun adını vermişdi. O, ailənin yeganə övladı olduğundan Qarabağ xanlıqlarının sonuncu vərəsəsi sayılırdı. Buna görə də Xurşidbanunu xan sarayında "Dürrü yekta" çağırırdılar. Böyüyəndən sonra isə el arasında "Xan qızı" kimi şöhrət qazanmışdı.

Öz dövrünə görə mükəmməl təhsil almış Xan qızı uşaqlıq illərindən şeirlər yazır, rəsm və tikmə sənəti ilə də məşğul olurdu. Təlim-tərbiyəsi ilə saraydakı təcrübəli dayə və mürəbbiyələr, məktəb yaşına çatdıqdan sonra isə Şuşanın tanınmış alim və sənətkarları məşğul olmuşdular. Xurşidbanu dini dərslər almaqla yanaşı, dünyəvi elmləri də öyrənirdi. Ərəb və fars dillərini mükəmməl şəkildə mənimsəmişdi. Dil bilikləri ona klassik şeirin qayda-qanunları ilə dərindən tanışlıq imkanı verirdi. Xan sarayındakı kitabxanada dahi Şərq şairlərinin o dövrdə çox çətin tapılan nadir kitabları, qiymətli əlyazmaları vardı. Bunlar Xurşidbanunun klassik ədəbiyyata bağlanmasında çox mühüm rol oynamışdı. Üstəlik, həmin illərdəki Şuşa mühitinin Qasım bəy Zakir, Mirzə Camal Cavanşir Qarabaği, Mirzə Adıgözəl bəy Qarabaği, Əhməd bəy Cavanşir kimi tanınmış şəxsiyyətləri tez-tez sarayda olardılar. Öz yaradıcılıqları, ədəbi söhbət və mübahisələri, eləcə də ağıllı məsləhətləri ilə Xurşidbanunun şeir-sənət sevgisini daha da gücləndirirdilər.

### Tiflis həyatı

1845-ci ildə atası ov zamanı həlak olarkən Xurşidbanunun cəmi 13 yaşı vardı. Atasının vəfatından sonra yeganə vərəsə kimi hakimiyyət ona keçir. 1850-ci ildə şair Dağıstan zadəganlarından olan general Xasay xan Usmiyevlə ailə qurur. Milliyyətcə kumık olan Xasay xan Qafqaz canişini Vorontsov-Daşkovun şəxsi yavəri idi.

Onların izdivacı barədə tarixçilərin müəyyən qənaətləri var. Ehtimallara görə, bu, sevgi münasibətlərindən daha çox məcburi evlilik idi. Çünki həmin dövrlərdə daxili və xarici vəziyyətin ciddi surətdə gərginləşməsi ilə əlaqədar xan ailələri üzərində nəzarət gücləndirilmişdi. Xurşidbanu Natəvanın Xasay xan Usmiyevlə izdivacı da belə bir vəziyyətdən irəli gəlirdi. Digər bir ehtimala görə isə Xasay bəy Tiflisdə Xan qızına hansısa mülk iddialarında kömək göstərmiş, onlar bu zaman tanış olmuş və general Xurşidbanuya evlilik təklif etmişdi. Onların toy mərasimi 1850-ci ilin payızında Şuşada baş tutmuşdu. Sonra Xasay bəyin Dağıstandakı kəndinə getmiş, oradan da Tiflisə köçmüşdülər.

Tiflisin mədəni mühiti onun dünyagörüşünə müsbət təsir göstərirdi. Natəvan bu şəhərdə rus, gürcü mədəni cəmiyyətlərinin fəaliyyətində yaxından iştirak edir, ağlı, zəkası, kübarlara məxsus davranışları, üç dildə sərbəst danışması ilə maraq oyadırdı. Amma Tiflis həyatı hər nə qədər xoşuna gəlsə də, Xan qızı burada qəriblik çəkirdi, doğma Şuşadan ötrü darıxırdı.

1852-ci ildə şair möhkəm xəstələnir. Həkimlərin məsləhəti ilə Şuşaya qayıdır. Sağaldıqdan sonra ailəsi ilə birgə Vladiqafqaza, Dağıstana, Şirvana, Bakıya səyahətə çıxır. Xasay xanla izdivacından 1855-ci ildə Xurşidbanunun oğlu, 1856-cı ildə qızı dünyaya gəlmişdi. Oğlunun adını Mehdiqulu, qızının adını isə Fatmabikə (Xanbikə) qoymuşdular. Övladları da anaları kimi şeirlər yazırdılar. "Vəfa" təxəllüsü ilə oğlu Mehdiqulu xanın fars dilində çoxlu qəzəlləri var. Qızı Xanbikə isə şeirlərini əsasən Azərbaycan dilində, qəzəl və rübai janrında qələmə alırdı.

### Aleksandr Dümanı heyran edən Azərbaycan qadını

1858-ci ildə Xan qızı ikinci dəfə ailəsi ilə birgə Bakıya gəlir. Şəhər hakimi Piquliyevskinin evində qonaq qalarkən burada məşhur fransız yazıçısı Aleksandr Düma ilə görüşüb tanış olur. Aralarında səmimi dostluq münasibətləri yaranır. Burada Xasay xanın fransızca sərbəst danışmasının da böyük rolu vardı. Düma həmin görüşdə Natəvanla şahmat oynayır. 26 yaşlı Natəvan 56 yaşlı Dümanı mat edir. Düma şahmat oyununda məğlub olandan sonra Natəvanın ağlına heyranlıq əlaməti kimi Napoleonun Parisdən gətirdiyi büstünü və fil sümüyündən düzəldilmiş zərif şahmat fiqurunu ona hədiyyə edir.

1859-cu ilin aprelində Dümanın 3 cilddən ibarət "Qafqaz səyahəti" əsəri Parisdə çapdan çıxır. Müəllif kitabında bu görüşə də yer ayırır. Natəvanın ailəsinin adını dərin hörmət hissi ilə yad edir. Bundan əlavə, Xan qızının xeyriyyəçilik məqsədilə Bakıdan Şıxlar kəndinə daş yol çəkdirməsi haqqında məlumat da A.Dümanın "Qafqaz səyahəti" kitabında əksini tapır.

Ümumiyyətlə, Xurşidbanu Natəvan kimi maarifçi bir qadınla görüş fransız yazıçısının nəinki Qafqaz, ümumən islam qadınları haqqındakı təsəvvürlərini müsbət tərəfə dəyişir.

### Xeyir əməllər sahibi

O, yoxsulların hamisi idi. Qarabağda kasıb ailələrin qayğısına qalardı. Şuşanın abadlığı üçün çox işlər görmüşdü. 1872-ci ildə Xan qızı 6 kilometrlik məsafədən Şuşaya su kəməri çəkdirərək şəhər əhalisini içməli si ilə təmin etmişdi. Kəmər Şuşa yaxınlığındakı Sarıbaba təpəsindəki mənbədən çəkilmişdi. Uzun illər ərzində Şuşa sakinlərinin böyük arzusu olan həmin kəmər indiyə qədər "Xan qızı bulağı" kimi tanınır.

Xurşidbanu Natəvan şəhərdə bulaq kompleksi, su anbarı, hamam, buzxana tikdirmiş, yaşıllıqlar saldırmışdı. Bundan başqa, o, Araz çayından Mil düzünə də su çəkdirmişdi. Bütün bunlar ona böyük ad-san qazandırmışdı. Xan qızı 1888-ci ildə Gəncədə çar Nikolayla görüşmüş, öz əli ilə toxuduğu nəfis bir hədiyyəni çarın həyat yoldaşına bağışlamışdı. Natəvan dövrünün istedadlı rəssamlarından və tikmə ustalarından biri kimi də tanınırdı. Onun bədii tikmələrinin toplandığı "Gül dəftəri" (1886) adlı albomundakı rəsmlər şairənin nə qədər hərtərəfli, həssas bədii duyuma, yaradıcı təxəyyülə malik bir insan olduğunu göstərirdi.

Amma onun ilk ailə həyatı uğursuz alınır. Xurşidbanu Natəvan Xasay xan Usmiyevdən ayrılır. Bu ayrılığın əsas səbəbi Xasay xanın Şuşada qalmaq istəməməsi ilə bağlı idi. Xan qızı isə Şuşasızlığa razılaşmadığından onlar yollarını ayırmalı olurlar. Bu nikahdan əvvəl də, sonra da çox zadəganlar Xurşidbanu ilə ailə qurmaq istəyində idilər. İran şahzadəsi Bəhmən Mirzə də Xan qızına elçi göndərmiş, amma rədd cavabı almışdı.

Natəvan ikinci dəfə 1869-cu ildə Seyid Hüseyn adlı bir şuşalı papaqçı ilə ailə qurur. Bu izdivacdan 5 övladı dünyaya gəlir. Övladlarından biri - Mir Həsən də böyüyəndən sonra "Mir" təxəllüsü ilə şeirlər yazırdı. Xan qızının ikinci həyat yoldaşı Seyid Hüseyn zadəgan nəslindən deyildi. Sadə zəhmət adamları arasından çıxmışdı. Natəvanın rəiyyət nümayəndəsinə ərə getməsi öz sosial mühitində birmənalı qarşılanmırdı. Mənasız söz-söhbətlər başlanır, ailə üzvləri arasında təfriqə salınırdı. Oğlu Mehdiqulu xan söz-söhbət üzündən sarayı tərk edib hərbi təhsil ardınca gedir. Cəhalət girdabına yuvarlanmış insanların tənə və qınaqları şairi zinhara gətirir. Bir tərəfdən də oğlu Mir Abbasın 17 yaşında həyatdan nakam köçməsi şairi vaxtsız qocaldır. Xurşidbanu Natəvan 1897-ci ilin 1 oktyabrında vəfat edir və Ağdamın məşhur "İmarət" qəbiristanlığında dəfn olunur.

### Həyat nəfəsli şeirlər

Xurşidbanu Natəvan öz şeirləri ilə Qarabağ şairləri arasında böyük nüfuz qazanmışdı. Ümumən, Natəvanın XIX əsr Azərbaycan poeziyasındakı yeri və rolunu aydın görməkdən ötrü o dövrün ədəbi mənzərəsinin qısa təsvirinə ehtiyac var.

Məlumdur ki, XIX əsr Azərbaycan ədəbiyyatında güclü dəyişiklik prosesləri baş verirdi. Realist ədəbiyyatın inkişafı başlanmışdı. Maarifçilik hərəkatı genişlənirdi. Eyni zamanda tərcüməçilik fəaliyyətinə də böyük maraq yaranmışdı. Tədqiqatçıların araşdırmalarında göstərilir ki, bütün bunlarla yanaşı, dini-sxolastik, aşiqanə formalı şeir də hələ öz mövqeyini qoruyub saxlamaqda idi. Bu cərəyana aid xeyli sayda şairlər vardı. Onların əksəriyyəti əsasən nəzirəçilik yolu ilə qəzəllər, qəsidələr, mərsiyələr yazırdılar. Aralarında qəzəl şairləri xüsusilə üstünlük təşkil edirdi. Bu şairlərdən bir qismi klassiklərə nəzirə yazanlardan və ya ilahi eşqi tərənnüm edən şairlərdən ibarət idi. Daha bir qrup şair, məsələn, Abbas ağa Nazir, Ağa Dadaş Müniri, Mirzə Həsən Yüzbaşov, Mirzə İsmayıl Qasir öz qəzəllərini daha çox elm, maarif, məktəb və s. mövzularında qələmə alırdılar. Üçüncü qism şairlər də vardı ki, onlar əsas mövzu kimi təbii insani duyğuları, azad sevgini, insanın sevinc və kədərini seçmişdilər. Onların şeirləri öz orijinal xüsusiyyətləri ilə diqqəti cəlb edirdi. Bu şeirlərdən həyatın nəfəsi, ətri duyulurdu. Xurşidbanu Natəvan da bu qrupa aid idi.

### "Məclisi-üns"ün işığı

Natəvanın fitri istedadının üzə çıxmasında Şuşanın təkrarolunmaz yaradıcı mühiti, düşüncə mühiti böyük rol oynamışdı. O, şeir yazmağa XIX əsrin 50-ci illərindən başlamışdı. İlk illərdə əsərlərini "Xurşid" imzası ilə yazardı. Əfsuslar olsun ki, bu şeirlərin əksəriyyəti itib-batmış, yalnız cüzi bir hissəsi bizə gəlib çatmışdır. 1870-ci ildən etibarən isə şair özünə "Natəvan" təxəllüsünü götürür. "Köməksiz", "zəif", "xəstə" mənası verən bu təxəllüs onun qəzəllərindən boylanan kədərli, qüssəli şair obrazına çox uyğun gəlir.

Yaradıcılığının ən qızğın illəri "Məclisi-üns" ədəbi məclisinin fəaliyyət göstərdiyi dövrə təsadüf edir. O illərdə Azərbaycanda bir çox ədəbi məclislər fəaliyyət göstərirdi. Təmsil etdiyi cərəyandan asılı olmayaraq şairlər bu məclislərdə bir araya gəlirdilər. XIX əsrin 60-70-ci illərində Qarabağda "Məclisi-üns" və "Məclisi-fəramuşan", Şamaxıda "Beytüs-səfa", Bakıda "Məcməüş-şüəra", Ordubadda "Əncüməni-şüara" adlı ədəbi məclislər təşkil olunmuşdu. Bu məclislərdə Firdovsi, Xəyyam, Xaqani, Nizami, Sədi, Hafiz, Nəvai, Füzuli kimi klassiklərin əsərləri oxunurdu. Onların şeirlərindən seçilmiş gözəl nümunələrə nəzirələr yazılırdı.

Xurşidbanu Natəvanın fəal iştirak etdiyi "Məclisi-üns" şairənin müasiri Mirzə Rəhim Fənanın (1841-1929) təşəbbüsü ilə Şuşada açılmışdı. Ədəbi məclis 1864-cü ildən fəaliyyət göstərirdi. İlk illərdə məclisin Mirzə Rəhim Fəna, Hacı Abbas Agah, Məmo bəy Məmai və Mirzə Ələsgər Növrəs də daxil olmaqla, dörd üzvü vardı. Xurşidbanu Natəvan "Məclisi-üns"ə 1872-ci ildən qoşuldu. Onun gəlişi ilə bu ədəbi məclisin şöhrəti daha da artdı. Qısa zamanda məclis üzvlərinin sayı 30-a qədər çoxaldı. Şairin qızı Xanbikə xanım da "Məclisi-üns"də iştirak edir, şeirlərini oxuyurdu. Məclis müəyyən vaxtlarda Natəvanın evinə toplaşıb burada müzakirələr keçirirdi. Başqa şəhərlərdə fəaliyyət göstərən ədəbi məclislərlə də əlaqələr vardı. Mirzə Rəhim Fəna sonralar öz xatirələrində yazırdı: "Məclisi-üns"ün sədası Qafqaziyyə şəhərlərində iştihar tapdığından, ən əvvəl şüərayi-Şirvan cənab Hacı Seyid Əzim, Bixud, Ziya, Zühuri qəzəllər yazıb "Məclisi-üns" şairləri ilə cavabi-dustanə əda etdilər. Şəkidən İsmayıl bəy Sədrəddinbəyov Rəhim adına şeir yazdı, cavab aldı. Naxçıvandan mərhum Sidqi izhari-məhəbbət etdilər".

"Məclisi-üns" tanınmış Qarabağ şairləri ilə yanaşı, məşhur xanəndə və sazəndələrin də sənət meydanı idi. Şuşanın, eləcə də külli Qarabağın musiqi mühitinin formalaşmasında müstəsna xidmətlər göstərmiş Hacı Hüsü, Məşədi İsi, Molla Vəli, Molla Abbasqulu, Məşədi Dadaş, Əbdülqəni və Sadıqcan kimi sənətkarlar tez-tez burada qonaq olar, ifaları ilə məclisi daha da rövnəqləndirərdilər.

Xurşidbanu Natəvan "Məclisi-üns"ün rəhbəri sayılırdı. Təkcə Qarabağ şairləri mühitində deyil, Gəncə, Şirvan, Nuxa, Quba, Bakı şairləri arasında da böyük nüfuz qazanmışdı. Onun böyük ilhamla qələmə aldığı şeirlərinin bir hissəsi - "Eylər", "Mən idim", "Sən idin", "Bənzətdim" rədifli ürəyəyatan qəzəlləri Azərbaycan şairləri arasında şeirləşmələr üçün mövzu vermişdir.

### Ana fəryadı

Natəvanın bizə gəlib çatan şeirlərinin çoxu oğlunun ölümünə həsr olunanlardır. Bu şeirlər dərin kədəri ilə oğlunu itirmiş qəlbidağlı ananın nisgilini, ağır qüssəsini əks etdirir. Məsələn, "Olaydı" rədifli qəzəlində şair üzünü Allaha tutaraq "Nə üçün bu aləmi və məni yaradıb da hicr atəşinə odlandırdın", - deyə öz taleyindən acı-acı şikayətlənirdi. Yaxud ürəyindəki qəmi, möhnəti poetik bir dillə təsvir edib, gözlədiyinin niyə gəlmədiyini sual edirdi.

Şairin "Neçin gəlməz?" qəzəli kimi "Ölürəm" rədifli qəzəlində də eyni ruh duyulur. Onun demək olar ki, bütün şeirlərinə həyat və səadət eşqi, ayrılıq dərdi, vüsal həsrəti hopub. Bu şeirlərin misralarında övlad müsibəti ilə üzləşmiş ananın yaralı ürəyi döyünür:

*Varımdı sinədə dərdü qəmi-nihan ölürəm,*
*Fəda olum sənə gəl eylə imtahan ölürəm.*
*Fəraqdan gecələr yatmaram səbahə kimi*
*Xəyali-zülfünə bağlı gedibdi can, ölürəm.*

Onun lirik şeirləri insanın daxili aləmini, iztirab və həyəcanlarını tərənnüm edir. Elə bu cəhəti ilə də Natəvan dövrünün bir çox nəzirəçi şairlərindən fərqlənirdi. Şairin qəzəllərində "zəmanənin möhnətindən", "qəhri-dünun" vəfasızlığından acı şikayətlər var. Hiss olunur ki, şairə oğlunun itkisindən sonra artıq özü də yaşamaq istəmirdi.

Natəvan böyük bir söz ustası idi. Onun adi söhbətlər əsnasında dediyi hikmətli kəlamlar, müdrik sözlər bir sıra hallarda poetik dillə, yaxud nəzmlə öz təcəssümünü tapırdı, müəyyən tarixi əhvalatlardan, təsadüflərdən belə incilər yaranırdı.

Xan qızı Natəvan Azərbaycan xalqının tarix boyu yetirdiyi çox görkəmli şəxsiyyətlərdəndir. Onun xatirəsi hər zaman uca tutulmuşdur. Natəvanın şeirlərinə musiqilər yazılmış, mərhum bəstəkarımız Vasif Adıgözəlovun "Qərənfil" mahnı-romansı mükəmməl yaradıcılıq əsəri kimi böyük maraqla qarşılanmışdır. V.Adıgözəlov Xan qızının şərəfinə "Natəvan" operasını da yaratmışdır. Həmçinin Məmməd Rahim "Natəvan" poemasını, İlyas Əfəndiyev "Natəvan" pyesini yazmışdır. 1960-cı ildə Bakıda şairin heykəli, 1982-ci ildə Ulu Öndər Heydər Əliyevin iştirakı ilə Şuşada büstü ucaldılmışdır. 2012-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə Xurşidbanu Natəvanın 180 illik yubileyi dövlət səviyyəsində qeyd edilmişdir. 2016-cı ilin 18 fevralında Heydər Əliyev Fondunun dəstəyi ilə Belçika Krallığının Vaterlo şəhərində Xurşidbanu Natəvanın abidəsinin açılış mərasimi olmuşdur.

Bu il isə görkəmli şairənin anadan olmasının 190-cı ildönümüdür. Belə bir əlamətdar tarixə ən böyük töhfə onun ruhunun şəhəri olan Şuşanın, mədəniyyət paytaxtımızın azadlığıdır. Natəvanın erməni vandalları tərəfindən güllələnmiş büstü 44 günlük Vətən müharibəsindən sonra əzəli məkanına qaytarılmışdır.

Tarixin yaddaşını silmək, izini itirmək mümkün deyil. Əzəli-əbədi yurdumuz olan Qarabağın, Şuşanın hər daşında, torpağında, ağacında, otunda, çiçəyində Natəvanın nişanəsi var. Onun xeyir əməlləri bu gün Azərbaycan dövlətinin Qarabağda, Şərqi Zəngəzurda həyata keçirdiyi quruculuq-bərpa işlərində yaşayır. Xan qızının ruhu daim azad Şuşanın, Qarabağın əngin səmalarında dolaşır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 05.05.2022-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
### *açıq tender elan edir*

**LOT-1.** Ağdam Uşaq və Ailələrə Dəstək Mərkəzinin inzibati binasının tikintisi işlərinin satın alınması.

Açıq tenderdə iddiaçı qismində satınalmaların predmeti üzrə müvafiq təcrübəyə malik mikro, kiçik, orta və iri sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Kod: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T.BIK:CTREAZ 22**
**Hesab: AZ71CTRE00000000000002318501**
**VÖEN: 1700332731**
**Fond-7(səviyyə kodu)**
**Kitab nömrəsi-002306-2318501;**
**Funksional təsnifat-00113;**
**İqtisadi təsnifat-142330 (sair daxilolmalar)**
**Əsas fəaliyyət növünün kodu - 84120**

**İştirak haqqı: 2500.00 (iki min beş yüz) manat**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1) Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi orqanından arayış;*
*2) Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*3) İddiaçının son dövr göstərilməklə fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
*4) Tender təklifi;*
*5) Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*6) Tender iştirakçısının öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması və yaxud müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd- Kommersiya Məhkəməsindən və ya Dövlət Vergi Xidmətindən Yüklülük haqqında arayış;*
*7) Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması haqqında arayış (malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən məhkumluq ilə bağlı arayış alır);*
*8) İddiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd (malgöndərən uçotda olduğu statistika orqanından alır);*
*9) Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış;*
*10) Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
*11) İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*12) Tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işlərinin icra edilməsi üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi (və ya müvafiq dövlət orqanı) tərəfindən verilmiş lisenziya - əlavəsi ilə birlikdə;*
*13) İşin icrası üçün müqavilə imzalayacağı subpodratçılar barədə məlumatlar (subpodratçı cəlb edəcəyi təqdirdə)-siyahı rəsmi blankda təqdim olunmalı;*
*14) İddiaçının peşəkar işçi heyəti haqqında məlumat - minimum 10 il təcrübəsi olan 5 təcrübəli mühəndisi (bununla bağlı işçi heyətinin diplomları, CV-ləri və portaldan əmək müqaviləsinə dair bildiriş-çıxarışı təqdim olunmalı) olmalıdır;*
*15) İddiaçının analoji işləri haqqında - iddiaçı baş podratçı kimi ən azı 5 (beş) analoji obyektdə əsaslı tikinti işlərinin icraçısı kimi təcrübəyə malik (bununla bağlı təhvil-təslim aktlarını təqdim etməlidir) olmalıdır;*
*16) İddiaçının maddi-texniki bazası haqqında - işlərin icrasını təmin etmək üçün malgöndərən bütün maddi-texniki bazaya (kran, yük maşını, beton qarışdıran və digər zəruri avadanlıqlar) malik olmalıdır;*
*17) Tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.*

Qeyd olunan sənədlər Azərbaycan dilində düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə, satınalan təşkilat tenderdə iştirak etmək istəyən malgöndərəni (podratçını) iddiaçı kimi qeydə alacaqdır.

İddiaçının təklifi əsli və surəti eyni bir zərfə qoyulmaqla, qiymət təklifini təklifin bank təminatı ilə birlikdə əsli və surəti digər zərfə qoyulmaqla zərfləri imzalayıb möhürləməli, sonra isə texniki və qiymət təklifləri olan zərfləri başqa bir xarici zərfə qoyub, xarici zərfi imzalayıb və möhürləyib əsas şərtlər toplusunun məlumat xəritəsində göstərilmiş vaxtdan gec olmayaraq göstərilmiş ünvana göndərilməlidir.

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər. Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, apostil olunmuş və notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **09.06.2022-ci il saat 17:00-a,** tender təklifi və tender təklifinin bank təminatını isə **20.06.2022-ci il saat 18:00-a** qədər kağız daşıyıcıda ikiqat zərfdə (əsli və surəti) AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyli 80,Hökumət evi, IV qapı ünvanına təqdim etməlidirlər. İddiaçıların təklifləri **21.06.2022-ci il saat 17:00-da** açılacaqdır.

**Ünvan: AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyli 80,Hökumət evi, IV qapı.**
**Telefon: (+99412) 498-69-57**
**E-mail: zohrabhasanov1983@gmail.com**
**Əlaqələndirici şəxs: Zöhrab Həsənov.**

***Tender komissiyası***

## "Günay Bank" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə!

28 iyun 2022-ci il saat 10:00-da Bakı şəhəri, Nərimanov rayonu, Aşıq Alı küçəsi 45 ünvanında yerləşən bankın inzibati binasında "Günay Bank" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

**Aşağıdakı məsələlər növbəti ümumi yığıncağın gündəliyinə daxil edilmişdir:**

1. "Günay Bank" ASC-nin kənar auditor tərəfindən təsdiqlənmiş və audit komitəsi tərəfindən tövsiyə olunmuş 2021-ci ilin maliyyə hesabatının təsdiq edilməsi.
2. Digər məsələlər.

***Rəhbərlik***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
### açıq tender elan edir

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi İsmayıllı rayonunun Zeyvə kəndi ərazisində, Muğanlı-İsmayıllı avtomobil yolunun 16-cı km-də "DOST evi" Yaradıcılıq, Sərgi və Satış Mərkəzinin tikintisi işlərinin satın alınması ilə əlaqədar tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova 85 (Əlaqə telefonu: (012) 596 44 09 (e.poçt: **aydin.m.mammadov@sosial.gov.az**) ünvanında yerləşən inzibati binadan ala bilərlər.

**İştirak haqqı: 1500 (bir min beş yüz) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**KOD: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 29.2-ci maddəsinə əsasən, tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır

Tenderdə iştirak etmək üçün tələb olunan sənədlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Azərbaycan Respublikasında vergilərə və digər məcburi ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); 01.05.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir;*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması; (müvafiq təsdiqedici sənədlər təqdim olunmalıdır);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması; (uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi; (malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən (məhkumluq ilə bağlı arayış) alır. 01.05.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir;*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulduğu halda, iddiaçı bu qanunun 28.1-ci maddəsində nəzərdə tutulan tender təklifinə işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə məlumatları (konkret subpodratçının adı göstərilməklə) göstərməlidir;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış. (01.05.2022-ci il tarixdən sonra alınmış arayış təqdim olunmalıdır);*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (notarial qaydada təsdiq olunmuş surətləri) tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **09.06.2022-ci il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **21.06.2022-ci il saat 17:00-a** qədər Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova 85 ünvanında yerləşən nazirliyin inzibati binasına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı **22.06.2022-ci il saat 17:00-da** Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova 85 ünvanında yerləşən nazirliyin inzibati binasında Tender komissiyasının iştirakı ilə aparılacaqdır.

İddiaçı və ya onun notarial qaydasında təsdiqlənmiş sənədlə müvəkkil etdiyi şəxs tender prosedurlarının açılışında iştirak edə bilər. Müvafiq orqanlardan tələb olunan sənədlərin alınmasının cari ayı əhatə etməsi mütləqdir.

***Tender komissiyası***

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# "AzerGold" yeni qızıl məhsullarını alıcılara təqdim edib







**"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən yeni növ qızıl məhsulları satışa çıxarılıb. Belə ki, çəkisi 5, 10, 20, 500, 1000 qram və 1, 10 unsiya olan qızıl külçələr kolleksiyasına alıcıların tələbatı nəzərə alınmaqla ilk dəfə olaraq 2, 50 və 100 qram çəkilərdə qızıl külçələr əlavə edilib.**




Yeni növ məhsullar cəmiyyətin Bakı şəhəri, Bülbül prospekti 3 ünvanında yerləşən Satış və Mübadilə Mərkəzində qızılın dünya birjasındakı cari qiymətinə uyğun və istehsal xərclərini əhatə edən minimal marja ilə satışa çıxarılıb. Məhsullar həmçinin onlayn satış platforması www.azergold.gift vasitəsi ilə alıcılara təqdim edilib. Əlavə olaraq məhsulların mərkəzdə qızılın dünya birjasındakı cari qiymətinə uyğun geri alışı - mübadiləsi də təmin edilir. Beləliklə, alıcıların təkcə dəyərli hədiyyə deyil, həm də istənilən zaman milli valyuta ilə mübadilə edilə bilən investisiya aləti qismində seçim imkanları daha da genişləndirilib.

Xatırladaq ki, "AzerGold" QSC tərəfindən yerli pərakəndə bazarı üçün hazırlanan ilk məhsullar 2018-ci ildə istehsal edilmişdir. 3 müxtəlif qızıl və gümüş sikkə kolleksiyalarının üzərində Heydər Əliyev Mərkəzi, Qobustan qayaüstü təsvirləri və Qarabağ xalçasının "Çələbi" naxışının əks olunmaqla Azərbaycanın müasirliyinin, tarix və incəsənətinin təbliğinə yönəlmişdir. 2021-ci ildə Heydər Əliyev Mərkəzi ilə birgə təşkil edilmiş, Müzəffər Ali Baş Komandan İlham Əliyevin liderliyi ilə ordumuzun Vətən müharibəsində əldə etdiyi şanlı qələbəyə həsr olunmuş "Qarabağ incələri" sikkə dizaynı müsabiqəsinin qalib layihələri əsasında isə daha iki dizaynda - 5, 10, 20 qramlıq çəkilərdə "Şuşa" və "Qarabağ" qızıl sikkə kolleksiyaları istehsal edilərək satışa çıxarılmışdır.

# Builki Bakı marafonu fərqli marşrutda təşkil ediləcək

**Heydər Əliyev Fondunun təşəbbüsü ilə mayın 15-də "Bakı marafonu-2022" keçiriləcək.**




AZƏRTAC xəbər verir ki, "Küləyə qalib gəl" şüarı altında beşinci dəfə keçiriləcək Bakı marafonu bu il fərqli marşrutda təşkil ediləcək. Yarışın start nöqtəsi ilə yanaşı, finişi də Dövlət Bayrağı Meydanında olacaq və 21 kilometrlik məsafəni əhatə edəcək.

Yarışda iştirak etmək üçün martın 25-də başlayan qeydiyyat prosesi mayın 10-dək davam edəcək. On səkkiz yaşdan yuxarı şəxslər bu müddətdə Bakı şəhərinin ticarət mərkəzlərindəki ("28 Mall", "Gənclik Mall", "Dəniz Mall") qeydiyyat məntəqələrinə və ya "Bakı Marafonu-2022"nin saytına - www.marathon.az müraciət edə bilərlər.







## B İ L D İ R İ Ş

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs tərəfindən 18 fevral 2022-ci il tarixdə elan edilmiş "Koronavirus infeksiyası ilə mübarizə tədbirləri çərçivəsində yarımavtomat PZR test dəstlərinin və onlara uyğun sərfiyyat mallarının satın alınması"na dair keçirilmiş açıq tenderin nəticəsinin hazırkı yoluxma statistikasının dəyişməsi ilə əlaqədar testlərə ehtiyac olmaması səbəbindən Tender komissiyası tərəfindən ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

***Nərmin Aydın qızı İbrahimbəyli ilə "SAHİL-17" MTK-nın sədri Seyfəddin Xıdır oğlu Nuriyev arasında 30 aprel 2020-ci il tarixində bağlanmış (Bakı şəhəri, Xətai rayonu, Bakı Ağ Şəhər Layihəsində inşa edilən PLOT BW 045, mərtəbə 3, blok 5, mənzil 66, sahə 202 m²) 66 nömrəli müqavilə itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənova əzizi

**BƏHMƏN HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Natiq Cavadov və Amil Cavadov Vaqif və Həbib Həsənovlara əzizləri

**BƏHMƏN HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İxtiyar Hüseynli və Lazım Quliyev Vaqif və Həbib Həsənovlara əzizləri

**BƏHMƏN HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV



Ünvan
AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5977
Sifariş 1223
Qiyməti 40 qəpik